

**Nizami MURADOĞLU**

# EŞQ BİR SİRDİR

**"Elm və təhsil"**
**Bakı -2020**

Nizami Muradoğlu. Eşq bir sirdir.
Bakı, "Elm və təhsil", 2020, 264 səh.

Kamil insan modelinin formalaşmasında başlıca amil olan **Eşq bir sirdir.** Onun dərki Yerlə Göy arasındakı gözlə görünməyən rabitənin yaranmasını, Vətənin Leyla kimi sevgiliyə, insanın Göy üzündəki mələyə çevrilməsi prosesini təlqin edir.

Kitabda bu duyğuların inikası olan ürək çırpıntıları toplanmışdır.

M $\frac{4702000000}{N\text{-}98\text{-}2020}$ Qrifli nəşr

© Nizami Muradoğlu, 2020

# ÖN SÖZ

## ARAZ AXIR ÜRƏKLƏ CAN ARASINDAN

Hasan paşanın Çənlibelə gəlməyi" qolunda Koroğlu Eyvaza deyir:

- Dəlilərdən iki min götürüb kəsərsən bəndərgahları. Onu-bunu bilmirəm. Çənlibelə bir adam buraxsan, başını özüm kəsəcəyəm.

Eyvaz Koroğlunun gözünün işığıydı, ciyərparasıydı. Ancaq Çənlibel onun gözünün didəsi, ciyərinin hamısıydı. Ona görə ciyərinin parasını hamısına qurban verməyə hazırıydı. Bu, Koroğlunun Vətən sevgisiydi.

Xalqımızın gözəl deyimləri çoxdu. Onlardan biri də "ciyərparam" deyimidi. Bütün ata-analar balalarına ciyərparam deyirlər. Şair dostum Nizami Muradoğlunun da gözəl balaları onun ciyərparalarıdı. Ancaq onun ciyərinin hamısı olan bir varlıq da var. O da Vətəndi!

Mən bu sözləri Nizami Muradoğlunun Vətən haqqında yazdığı şeirlərdəki hisslərin, duyğuların səmimiliyinə, onun ürəyinin yanğısıyla yoğrulduğuna özüm qədər inandığım üçün deyirəm. Koroğlu üçün Çənlibel nə deməyiydisə, Nizami Muradoğlu üçün də Vətən-Azərbaycan elə o deməkdi:

*Ey Araz boyunca bölünən Vətən*
*Bölünə-bölünə kiçilən Vətən.*

harayı gecə-gündüz onun qəlbini didib-parçalayır, xəyalını Təbrizə, Urmiyəyə, Ərdəbilə, Kərkükə, Mosula, Göyçəyə, İrəvana, Zəngəzura, Şuşaya apaırır. Məmməd İsmayıl "Qayanı yonarlar, daşı çaparlar, Dağ-qaya kiçilər, Vətən kiçilməz", Məstan Günər "Köksümdə ürəyim Azərbaycanın əslinə düz gələn xəritəsidir" deyəndə onlar da Azərbaycanın tikə-tikə tikələndiyini, parça-parça parçalandığını, bölük-bölük bölündüyünü gözəl bilirdilər, ancaq Vətənin bütövlüyünü heç olmasa ürəklərində yaşatmaq istəyirdilər. Mən də, Nizami Muradoğlu da Vətənin bütövlüyünü ürəyimizdə yaşadırıq, ancaq bu çox azdır, onunla Vətənin yaralarını sağaltmaq olmaz. Vətənin özünü bütövləşdirmək lazımdır. Bunun üçün hamı Vətən yolunda əsgər olub, "cana can, qana qan" deməyi bacarmalıdır:

*Əsgərəm, qaziyəm Vətən yolunda,*
*Təpər canımdadı, qüvvət qolumda.*
*Qarabağ taxtından asılan Vətən!*
*Cana can deyirəm,*
*Qana qan, Vətən!*

Güney Azərbaycan, Dərbənd, Borçalı, İrəvan, Göyçə, Zəngəzur, İraq-türkmən dərdimiz azıydı, Qarabağ da üstünə gəldi:

*Vətənin adını daşıyan Vətən*
*Bir az ruhumuzda yaşayan Vətən.*
*Bir az içimizdə yaşayan Vəən.*
*Səndən uzaqlarda, önündə zindan,*
*Ramilin əlində balta oynadı.*
*Bakının, Təbrizin düz ortasında*
*Əcnəbi əlində xalta oynadır.*

Şeirdəki əcnəbi və xalta motivi gözəl poetik tapıntıdır. Mənim də buna oxşar bir şeirim var. Nizami Muradoğlunun bir çox şeirlərində onun hissləri, duyğularıyla mənim hisslərim, duyğularım çarpazlaşır, qol-qola girir, qaynayıb-qarışır. Çünki biz eyni havayla nəfəs alır, eyni hisslərlə, duyğularla yaşayırıq. İkimiz üçün də Vətən ciyərimizin parası yox, hamısıdı!

Əcnəbi və xalta motivinə qayıdıram. Burada xalta yalnız Ramilin baltasının qafiyəsi deyil. Şair burada ən yaralı yerimə toxunub. Bakının, Təbrizin düz ortasında əlində xalta oynadan əcnəbi onu boyunbağı kimi boynuna taxacağı adamı axtarır. Əcnəbilər o xaltanı kiminsə boynuna taxanda heç vaxt yanılmırlar. Çünki onların sonrakı niyyətlərinin puç olub-olmaması yalnız o xaltanı kimin boynuna taxmaqdan asılıdır. Əcnəbi seçimində yanılmırsa, boynuna xalta taxdığı adamın zəncirini öz əlində saxlamağına heç bir ehtiyac qalmır. Sonra bütün işlər əcnəbinin istədiyi kimi gedir, yəni bax belə olur:

*Sənli də, sənsiz də ölürəm, Vətən!*
*O taya həsrətəm şirin pay kimi.*

*Bu tayda dərd çəkdim ögeylər kimi.*
*Yadların ayağı altına atdın,*
*Məndən uzaq oldun bu göylər kimi.*

Vətəndə Vətənə həsrət qalmaq! Vətəndə ögey olmaq! Vətəndə Vətənin bu göylər kimi əlçatmaz olmağı! Bunlar bizim alnımıza yazılmış Vətən dərdidi. Nizami Muradoğlu Vətənə üz tutur ki, sən məni və bizi "Yadların ayağı altına atdın". Ancaq əksinə oldu. Biz Vətəni yadların ayaqları altına atdıq. Biz onu qoruya bilmədik. Sən Vətəni qorumalısan ki, o da səni qorusun. Yadların ayaqları altına atdığın Vətəndə özün də yadların ayaqları altına atılacaqsan! Bax bu gerçəkliyi bizim ata-babalarımız vaxtında dərk etmədilər.

Nizami Muradoğlunun "Culfa körpüsü" şeiri yaddaşımı oyatdı, məni 1982-ci ilə apardı. Naxçıvanda ezamiyyətdəydim. Culfada mehmanxanada qalırdım. Bir dəfə gündüzdən xəbər verdilər ki, gecə yarısı vaqonları dəyişəcəklər, mehmanxana boşaldılacaq. O zaman mən Culfa körpüsünü də, Araz boyunca Azərbaycanı iki bölmüş tikanlı məftilləri də, "yadların ayaqları altına atılmış" Vətənimizin bu tayını o tayından qoruyan rus əsgərlərini də gözlərimlə görmüşdüm. O əsgərlərin və onların çiyni ulduzlu ağalarının gözlərindən bizə sevgi yox, acıq, qəzəb boylandığını da duymuşdum. "Culfa körpüsü" şeiri məni yenidən o yerlərə, o günlərə apardı:

*Araza baxıram suları qandı,*
*Bu yanda ürəkdi, o yanda candı.*

*Sağı da, solu da Azərbaycandı,*
*Nə yaxşı sən varsan, Culfa körpüsü.*

Azərbaycanı tikə-tikə bölüb o tayıyla bu tayının arasındakı bütün körpüləri amansızcasına vurub dağıtmış imperiya bircə Culfa körpüsünə dəyməmişdi. Çünki bu körpü ona lazımıydı. Onsuz da Culfa körpüsünün üstündən bir türk oğlu türk o yandan bu yana, bu yandan o yana keçə bilməzdi!

Nizami Muradoğlunun bu şeirini oxuyanda istər-istəməz Səməd Vurğunun "Azərbaycan" şeiri səsləndi qulaqlarımda. Həmin anda mənə elə gəldi ki, "Nələr çəkmiş başın sənin" misrasının dalınca "Ayrılarmı könül candan" deyəndə Səməd Vurğun da o tayla bu tayın birini könül, digərini can adlandırıb onların ayrılmazlığını dilə gətirib.

Araz çayı Culfanı tən ortadan iki bölür. Culfanın yarısı çayın bu üzündə, yarısı o üzündədi. Bu, bir ürəyin iki yerə bölünməyinə oxşayır. İndi iki bölünmüş ürəyin o tayını bu tayına bağlayan bircə damar qalıb, o da Culfa körpüsüdü. Arazın suları qandımı? Yox! Araz günahkardımı? Yox! Bəs niyə şair bu yandakı ürəklə o yandakı canın arasından qəmli-qəmli, dalğın-dalğın, üzülə-üzülə axan Arazın sularını qan rəngində görür? Axı Vətən iki bölünəndə burada qanlar su yerinə axıb və şairin gözlərinə görünən də o qandı. "Culfa körpüsü" şeiri tarixin canlı tanığı kimi yaşayan Arazın pıçıltılarıdır. Misraların fikir tutumu, emosional təsir gücü şeirə xüsusi gözəllik verir.

Nizami Muradoğlu "Dərbənd" şeirində Qazan xanı axtarır, tapa bilmir. Üzünü Bayandur xana tutur:

*Gəl ey şahım, sultanım xan Bayandur,*
*Dərbənd gedib,*
*Yurdlar gedib,*
*Bu talanı dayandır.*

"Qaraca Çoban" şeiri də eyni hava üstündə düzülüb-qoşulub. Adama elə gəlir ki, bu şeirlər eyni vaxtda bir-birinin ardınca yazılıb:

*Qırx incəbel əsirlikdə dərd çəkir,*
*Hər sitəmi ərən çəkir, mərd çəkir.*
*Bu nə dərddi fələk bizə sərt çəkir,*
*Oğul-oğul ağzı qurdlar gedibdi.*

Nə Bayandur xan, nə Qazan xan, nə də Qaraca Çoban adları bu şeirləri günümüzdən ayırmır. Əksinə, bu şeirlərin bütün misraları günümüzün havasıyla, ağrı-acısıyla, dərd-qəmlərilə yoğrulub. Şair qırx incəbel deyəndə Qazan xanın arvadı boyu uzun Burla xatunu yox, neçə illərdi erməni əsrliyində saxlanan qızlarımızı, gəlinlərimizi, qadınlarımızı xatırlayır, onların taleyinə acıyır və oxucularını da bunları unutmamağa çağırır. İşğal altında olan torpaqlarımızı, əsirlikdəki insanlarımızı qurtaracaq Qazan xanı, Bayandur xanı, Qaraca Çobanı axtarır.

Nizami Muradoğlunun Vətən haqqındakı şeirlərinin hər bəndindən, hər misrasından ayrıca danışmaq olar. Çünki onların hər birində böyük sevgi var. Vətən sevgisi! Onun ana, ata, oğul, qız sevgisinin hərəsi bir bulaqdı. Bu bulaqların suları bir yerə yığışıb şairin qəlbində "Vətən

sevgisi" adlı bir çay yaradıb. Mən böyük ürəklə deyərdim ki, Nizami Muradoğlunun Vətən haqqındakı şeirləri bütövlükdə vətənpərvərlik dərsliyidir.

Nizami Muradoğlu həyat şairidi. Onun yaradıcılığı yaşadığımız həyatın güzgüsüdü. Həyatdakı gerçəkliklərin canlı poetik lövhələrini yaradan şair yaxşını da görür, pisi də və onları bir-birindən ayırmağı bacarır. Sözünü deməyin yeri gələndə də susmur, ürəyinin səsindən başqa heç nəyi eşitmir. Gənclikdə, Badamdarda, Bilgəhdə, Mərdəkanda, Şüvəlanda xalqın "milyonçular məhəlləsi" adlandırdığı yerləri gəzir, bir-birinin bəhsinə buludları yaran göydələnləri görür və üzünü onların yiyələrinə tutub deyir ki, həmin yerlərdə sizdən çox-çox qabaqlar da milyonçuların bağları və sarayları varıydı. Onları köhnə hökümət tutub əllərindən aldı. İndi onların yurdlarında it küçüyü də qalmayıb. Bunlar şair xatırlatmalarıdır. Nizami Muradoğlu bu yolla onları ayıltmaq istəyir. Pul, var-dövlət örtmüş gözünüzü açın, dünənə, olanlara-olmazlara yaxşı baxın deyir və birdən yadına düşür ki, həmin nadanlardan bir neçəsini nə vaxtsa teatra dəvət eləyib, ancaq heç kim gəlməyib. Söz onlara təsir eləməz:

*Bir dəfə teatra dəvət etmişdim.*
*Gəlmədilər.*
*Bir daha rastlaşanda*
*Giley-güzar elədim.*
*Sordular:*
*- Mövzu nəydi?*
*Dedim:*

*- Hüseyn Caviddi...*
*- Harda işləyir?*
*- cənnətdə...*
*Dedilər:*
*- bu gecə o restorandayıq...*

Bu misralar Nizami Muradoğlunun poetik uydurmaları deyil. Onları yazanda şair romantikanın qanadlarında göyləri gəzmirdi. Gözümüzün qabağında "iyirmi birinci əsr", "iki min iyirminci il" sözlərini deyə bilməyənlərin Hüseyn Cavidi tanımamaqları nə böyük işdi ki?!

Yuxarıdakı cəmi on iki sətirlik parçada həyatımızın gerçəkliyi çox aydın verilib. Yan-yörəmiz belələriylə doludu. Hər gün onların üzlərini görməsək də, nadanlıqları ilə üzləşirik, çünki taleyimizi onlara tapşırıblar.

Nadanlıq həyatımızın güvəsidir. Savadsız, istedadsız, elmsiz adamlar rüşvətə və korrupsiyaya daha çox və daha tez qurşanırlar. Savadlı, istedadlı, elmli adamlar rüşvətə və korrupsiyaya ona görə daha az qurşanırlar ki, onların özlərilə rüşvət və korrupsiya arasında keçilməz sədd yaradan ağılları var.

Nizami Muradoğlu həyat şairidi. Həyatımız sevgiylə doludur. Həyatın bütün gözəllikləri sevgi bulağından su içir. Ata-ana sevgisi, yar sevgisi, oğul qız, Vətən sevgisi! Hansı şair şeir ağacını sevgiylə sulayırsa, onun yazdıqları şirin olur, ürəyə yatır, könül oxşayır. Nizaminin yaradıcılığında da sevgi şeirlərinin öz yeri, sanbalı və salğarı var. Onun sevgi şeirləri də saf, təmiz hisslərlə, duyğularla yoğrulduğundan oxunaqlıdır, təsirlidir, yadda qalandır.

"Gördüyüm o qızlar nənədi indi" şeiri bu baxımdan xoş təsir bağışlayır. Gənclik illərində sevgisi aşıb-daşan, nazı-qəmzəsi oğlanların bağrını yaran qızlar indi nənədilər. Bu şeir gənclik illərindən nənəliyə qədər şairin gördüyü o qızların həyatına güzgü tutur:

*Gedib gənclik çağı, odu qalmayıb,*
*Şirin xəyalların dadı qalmayıb.*
*Yadımda nə qalıb, adı qalmayıb,*
*Gördüyüm o qızlar nənədi indi.*
*O şaqraq gülüşlər səslənmir daha,*
*Min arzu, min istək bəslənmir daha.*
*Səhər sübh olanda süslənmir daha,*
*Gördüyüm o qızlar nənədi indi.*

Qızların nənəlik illərində yoxa çıxmış bu hisslər, duyğular yaddaşımızı oyadır, gənclik illərində olanları bir daha gözlərimiz önündə canlandırır, bizə şirin-şirin xatirələr yaşadır. Nə gözəl lövhələrdi bunlar. Nizaminin sevgi şeirləri bu cür gözəl poetik lövhələrlə olduqca zəngindir!

Mən şair dostum Nizami Muradoğlunun yaradıcılığı haqqında sözümü dedim. İndi söz oxucularındır.

**İSLAM SADIQ**

# HƏR QARIŞ TORPAĞIN QEYRƏT QALASI

## AZƏRBAYCAN

Ey Araz boyunca bölünən Vətən,
Bölünə-bölünə kiçilən Vətən.
Sənin bölünməyin mənim günahım,
Özümün özümə xəyanətimdir.
Tökülən göz yaşım, çəkilən ahım,
Hissimdir, dərdimdir, qəbahətimdir.

Xəcalət çəkirəm cəhalətimdən,
Nədən məğlub oldum, aşağılandım?!
Nədən xan babalar anlaşammadı,
Gülüstan kəndində pozdular andı.

Sənli də, sənsiz də ölürəm, Vətən!
O taya həsrətəm şirin pay kimi.
Bu tayda dərd çəkdim ögeylər kimi,
Yadların ayağı altına atdın,
Məndən uzaq oldun bu göylər kimi.

Bakının qoynuna sığınan Vətən,
Yadları bəslədin yağınan, Vətən...
Yadlar bu diyarda sahibə döndü –
Sahiblər qəribə, bu halın nədir?

Bir milyon didərgin çöldə, çadırda.
Kəndlərin, yurdların əsirlikdədir,
Çalıb oynayırsan, cəlalın nədir?

Vətənin adını daşıyan Vətən,
Bir az ruhumuzda yaşayan Vətən.
Bir az içimizdə yaşayan Vətən,
Səndən uzaqlarda, önündə zindan,
Ramilin əlində balta oynadı.
Bakının, Təbrizin düz ortasında
Əcnəbi əlində xalta oynadır.

Bölünə-bölünə kiçilən Vətən,
Özgəyə don kimi biçilən Vətən.
Oğurlanan Vətən, ey itən Vətən.
Özgə atlasında tez bitən Vətən!
Ey iki paytaxtlı Vətənim mənim,
İkili olmağın qəmimdi mənim,
İkili olmağın dərdimdi mənim.

Ey Araz boyunca bölünən, Vətən,
Bölünə-bölünə kiçilən, Vətən.
Kiçilə-kiçilə satılan Vətən,
Yadlar tapdağına qatılan Vətən!

Getdi, Göyçəm getdi, Rəvanım getdi,
Getdi, Şuşa kimi məkanım getdi.
Niyə od tutmursan ahım, hardasan?
Dur çıx məzarından Şahım, hardasan?!
Elə bil yatmışam yuxum kimi gəl!
Qılınclı, qalxanlı ruhum kimi gəl!
Yolunu qürbətdə yurdlar gözləyir,

Döyüşə təşnə boz qurdlar gözləyir.
İki Azərbaycan – iki can Vətən,
Ürəyi yaralı, köksü qan Vətən,
Yolunu gözləyir yarımcan Vətən,
Can Vətən!..



## BAYRAĞIM

Şəninə nə deyim, deyilməyibdi?..
Ucadan ucasan uca Bayrağım!
Qəlbimdən bir nisgil əksilməyibdi –
Təbrizdə, Kərkükdə aça Bayrağım…

Odur yadigarı Cümhuriyyətin,
Candan əziz tutduq şanın, şöhrətin.
İzzətim, şərəfim, əbədiyyətim,
Başımın tacıdır, tacı Bayrağım!

Çalması mavidir – göy türkdən gələr.
Köksü qırmızıdır – şəhid sinələr.
Yaşıl geyimiylə müsəlləh əsgər,
Tanrı dərgahında uça Bayrağım.

Əvvəl Məmməd Əmin öpüb üzündən,
O hilal qaşından, ulduz gözündən.
Kimsə inciməsin mənim sözümdən –
Salavat bağlıdır gücə, Bayrağım!

90-da yenidən gəldin dünyaya,
Yenidən boy atdın ulduza, aya.
Nazlan, salam yetir elə-obaya,
Düşməsin üstünə kölgə Bayrağım!

Məramı alidir, nişanı çoxdu,
Düşmənin köksünə saplanan oxdu.
Mərdlər sınağından qeyrətlə çıxdı,
Götürməz bir töhmət - ləkə Bayrağım.

Mənalar axtardım keçən izində,
Min arzu, min istək vardı gözündə.
Şuşa qalasında, Cıdır düzündə
Bağrı param-parça, tikə Bayrağım.

And yeri əsgərin, şəhidimin də...
Qazinin, alimin, hər bir fərdin də.
Xalqımdan istərəm vəsiyyətimdə,
Öləndə üstümə çəkə Bayrağım.

Yox, hələ ölmərəm görməsəm əgər,
İgid cəngavərim əlində xəncər,
Rəvan qalasının yerinə sancar –
Ordan da nurunu saça Bayrağım.

Adının önündə Azərbaycanım,
Dünənim, bu günüm, sabahkı anım.
Azadlıq carçısı – hünər meydanı
Hər zaman yolunu bəklər Bayrağım!

## DƏRBƏNDDƏ

Gəlib gəzdim Dəmirqapı Dərbəndi,
Baxıb gördüm bağlanıbdı hər bəndi.
Soraqlaşdım Dədəm Qorqud uyurmu?
Çağırıram, harayımı duyurmu?!.
Bəkil oğlu İmran bəyim hardadı?
Yer altından bir səs gəldi: - dardadı.
Salur Qazan yetişməyir haraya,
Alp Aruz da asi oldu saraya.
Qara Çoban bu dağlarda tək qalıb,
Ətrafını duman alıb, sis alıb.
Qoşun-qoşun gavur gəlir üstünə,
Od qalayan olacaqmı tüstümə?
Gəl ey Şahım, Sultanım Xan Bayandur,
Dərbənd gedib,
Yurdlar gedib,
Bu talanı dayandır!..

*01.12.2017*

## ÖLKƏM

Yurd yerləri basılı,
Tale tüкdən asılı.
Şah damarı кəsili,
Yaraları qan ölкəm,
Qurban sənə can, ölкəm.

Keçir neçə qış, bahar,
Şəhidləri intizar.
O yurdlardan nə xəbər,
Azadmı hər yan, ölкəm?
Qurban sənə can, ölкəm!

Yamacları yaşıldı,
El-elə yaraşırdı.
Nuru dağlar aşırmı,
Söкülürmü dan, ölкəm?
Qurban sənə can, ölкəm!

Köhlənləri yəhərli,
Qalibiyyət səfərli.
Qızları ər hünərli,
Oğlanları xan ölкəm.
Qurban sənə can, ölкəm!

Bizimкidir bütün bu;
Dəniz, torпaq, hava, su.
Yaşa, yarat, qur ordu,
Qazan şöhrət, şan ölкəm.
Qurban sənə can, ölкəm!

## BAKI LÖVHƏLƏRİ

Buruqlar düzümü durna qatarı,
Binalar tökülüb yaz buludundan.
Küləklər oynayar hallı-halaylı,
Elə bil ayrılıb öz ümidindən.

Bir cənub nəsimi səssiz-səmirsiz,
Əl atar qızların örpəklərinə.
Qəfəsə salınmış şir kimi dəniz,
Çırpınar Bakının ətəklərinə.

Dünyanın gülünü, çiçəklərini,
Təbiət gətirib bu yerə yığıb.
Binalar ağappaq, yollar tərtəmiz,
Küçələr elə bil yağışdan çıxıb.

Qız qala dayanar qız vüqarıyla,
Burda daş heykəllər xəyala dalar.
Metrolar boylanıb qapılarıyla,
Gah insan qarşılar, gah yola salar.

Dəniz qasırğası, dəli küləyi,
Qəzəbli kamanı, ağlar neyidir.
Bakı bir şairdir, sevən ürəyi,
Yanar atəşlərin mavzoleyidir.

## CULFA KÖRPÜSÜ

Araza baxıram suları qandı,
Bu yanda ürəkdi, o yanda candı.
Sağı da, solu da Azərbaycandı –
Nə yaxşı sən varsan Culfa körpüsü.

Orda sərbaz  durur, burda əsgərim,
Nə gərək mən sizə sənəd göstərim?!
Alnıma yazılmış kimlik dəftərim –
Bax, məni tanıyır Culfa körpüsü.

Təbrizə gedirəm, uğur dilə di,
Təbrizdə bir qız var – "Qaragilədi".
Dağlar alqışladı, göy nur çilədi –
Səadət körpüsü, Culfa körpüsü.

*24.08.2018*

## SALAM, XOCALI

*Xocalı soyqırımı 1992-ci il 26 fevral.*

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itiribdir. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Salam, Xocalıda əsir ağacım!
Ey qazi qardaşım, ey şəhid bacım!
Gözü yolda qalan dağım, yamacım!
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Salam, əsir meşə, yazın qalmayıb,
Qırılıb dalların nazın qalmayıb.
Daha bu hicrana dözüm qalmayıb!
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Salam əsir daşlar, əsir qayalar!
Düşmən tapdağında yesir qayalar!
Bir acı ruzgar var - əsir, qayalar!
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Haray, yurd yerlərim, ellərim, haray!
Solğun çiçəklərim, güllərim, haray!
Yetmir əlinizə əllərim, haray!
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Salam, köç eliyən yurdlar, obalar!
Şəhid məzarlarda şəhid babalar!
Kimi arayalar, kimi tapalar…
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Güllü xalam, Bəyim nənəm necoldu?
Hər nə oldu – o qaranlıq gecə oldu.
"Şəhriyarın gələnmədi, gec oldu".
Dərdim oldun, qəmim oldun, Xocalı!
Bəlkə dərdim mənim ilə qocalır?!

Laçında tək qalan qurdum ulayır!
Erməni Şuşada quyruq bulayır,
Kimi harda, nəyi necə yalayır-
Sən bilirsən, mən bilirəm, bilən hey!
Bu dünyanın gərdişinə gülən hey!

Salam, Xoca yurdum, – dərdim Xocalı!
Şəhidim, igidim, mərdim Xocalı!
Dərdimi dağına sərdim, Xocalı!
Hələ ki, qoynunda xəyanət yatır,

Əlim sənə çatmır!
Allaha çatır!
Allaha əmanət, əmanət qalın!
Salamat qalın!

Çiçəyim, yolumu gözlə gələrəm!
Açıq alın ilə, üzlə gələrəm!
Bu savaş çəksə yüz ilə-gələrəm!
Qoymaram qalasan əsir Xocalım!
Türkündür bu era-əsr, Xocalım!

## CAN VƏTƏN

Qeyrətini çəkənlərin çox olub,
Koroğlular, Mübarizlər doğulub.
Ərənlərin qanı ilə yoğrulub,
Bayraq sənin, qan mənimdir, qan, Vətən!
Can Vətən!

Düşmənlərin gözlərinə batan biz,
Bu torpaqda biz Vətənik, Vətən biz.
Xocalıda şəhid olub yatan biz,
Torpaq sənin, can mənimdir, can, Vətən!
Can Vətən!

Haqqa gedən, Haqdan gələn yol incə,
Uca tanrım bizə rəva görüncə.
Xocalıdı, bu ölkədi ölüncə,
İlk beşiyim, son məzarım, son Vətən,
Can Vətən!

## EY TÜRK BALASI

Dur ey içimdəki qəhrəman kişi,
Bu gündən sabaha saxlama işi!
Dədən Bayandır xan, baban Koroğlu,
Sən qurddan doğuldun, boz qurdun oğlu!

Çıx dağlar başına ula qurd kimi,
Müqəddəs nə var ki ana yurd kimi?!
Düşmənin səfini dağıt, parçala,
Qoyma qiyamətə bu qisas qala!

Gərək gavur bilə, bilə həddini!
Qaytar öz yerinə yurd sərhəddini!
Hər qarış torpağın qeyrət qalası,
Bu Vətən sənindir, ey türk balası!

Qalx, ey mərd igidim, qalx, hünərvərim,
Bu gün Qarabağdır mənim səngərim.
Şuşadır, Laçındır ürəyim, canım,
And yerim, Kəbəmdir Azərbaycanım!

## VƏTƏN

Əsgərəm, qaziyəm Vətən yolunda,
Təpər var canımda, qüvvət qolumda,
Qarabağ taxtından asılan, Vətən!
Cana can deyirəm,
Qana qan, Vətən!

Bir yanda bayatı, layla – hıçqırır,
Bir yanda içimdə qəzəb qışqırır.
Atəşdir, alovdur, bu vulkan, Vətən!
Cana can deyirəm,
Qana qan, Vətən!

Bir vədə Arazda boğdular səni,
Sonra yeni adla doğdular səni.
O vaxtdan xəstəhal, yarıcan Vətən,
Cana can deyirəm,
Qana qan, Vətən!

Ağrıyır, sızlayır yaraların da,
Salamat yer varmı aralarında?!
Dərdinə, yarana can qurban, Vətən,
Cana can deyirəm,
Qana qan, Vətən!

Bədəndən ayırıb qolu kəsirlər,
Sağın kəsilibdi, solu kəsirlər.
Necə yaşayasan bu adnan, Vətən!
Cana can deyirəm,
Qana qan, Vətən!

Təbrizli, Kərküklü, Göycə, Şuşalı,
Ey qəlbi yaralı, dərdə düşəli,
Ruhu parça-parça, sərgərdan Vətən,
Cana can deyirəm,
Qana qan, Vətən!

Qaldır qılıncını,  kəs bu kəndiri,
Çevir cəhənnəmə yanan təndiri,
Düşmənə gor olsun bu qəzan, Vətən!
Cana can deyirəm,
Qana qan, Vətən!

*25.09.2017*

## BU NAĞIL - O NAĞIL DEYİL

Dünyaya göz açalı,
Nağıl-filan demişdin.
Dünyanın həqiqətin
Saçlarına sindirib
Doğru "yalan" demişdin:
"Mənim ağıllı balam,
Bu da nağıldı, balam"...

Dur ayağa, ay nənə,
Yenə öyüd ver mənə.
Rahatsızam nə vaxtdı,
Heç olmasa, bu axşam
Sən mənə nağıl danış.
Qoy eşitsin dost-tanış,
Qoy bilsin eşidənlər.
Axı, yalan dünyada
Mən sənə inanmışam,
Nağıla inanmışam.
Həyatda gördüklərim
İnsanlığa yaraşmır,
Nağıl boyunu aşmır.
Nağılda olan divlər
Ədalətli, mərddilər.
Adamyeyən olsa da,
Heç adam yemədilər.

Cırtdanlar var həyatda
Adam yeyirlər, nənə.
Üstündən də uydurub
Nağıl deyirlər, nənə.
Bu nağıllar bozdu, boz...
Nə ağdı, nə də qara...
Heş oxşamır sən deyən
O şirin nağıllara.
Hərəsi bir cür deyir.
Bu nağıl –
O nağıl deyil...

*09.09.2017*



## EY QOBUSTAN

Ey tarixin daş yaddaşı!
Babalardan miras qalan qəbir daşı!
Qaya yurdu, daş ormanı,
Qucağında göy Xəzəri,
başı üstə asimanı.
Sənin o daş ürəyində arzun qalıb,
Bu dünyaya deyiləsi sözün qalıb.
Canlan bir an,
Ey daş altda yatan insan!
Dur ayağa!
Dur ayağa qışqır bir az,
Dur ayağa bağır bir az!
İndi bizi bu dünyada
Tanıyırlar fağır bir az...
Səsimizi alıbdılar,
Sözümüzü alıbdılar,
Qaytar mənə mənliyimi,
Qaytar dəli günlüyümü!
Xətainin qılınc vuran qolun qaytar,
Bayandır xan yolun qaytar!
Dədəm Qorqud gəzən yurdlar
Düşmənlərin tapdağında inildəyir,
Mübarək-üz olan qurdlar
Küçük kimi zəngildəyir,
Qaytar mənim boz qurdumu,
Qaytar mənim öz qurdumu!

Aslanların qabağında mən qurd olum,
Dərbəndimdən Ağrıdağa
Basılmayan bir yurd olum!
Dədəm Qorqud qədəm qoysun toyuma,
Söz söyləsin, soy soylasin boyuma.
Mən qayıtmaq istəyirəm öz əslimə,
Öz kökümə, öz soyuma, öz nəslimə.
And verirəm, Tanrı səni, qaytar məni,
Öz yoluma qaytar məni!

*12.03.2017*

## HANI BƏS

Səndən əzəl bu yollardan keçən var,
Şərbət kimi bulağından içən var,
Sarayları tikdirən var, tikən var –
Saray qalır, tikdirənlər hanı bəs?!

İnsan oğlu, bu yollarda düz yeri,
Dağ başının yaylaq olar düz yeri.
Ürəyimdə zoqquldayır duz yeri –
Ağrımazmı iki bölsən canı bəs?!

O tay sənin, bu tay mənim - demədim,
Aramızdan keçdi bu çay - demədim.
Haray çəkdin, niyə haray demədim –
Mən özümü bilmədimmi, yəni bəs?!

Çən sürünür, duman dağı alırsa,
Gözlər yolda, əl yaxada qalırsa,
Savalanın çiçəkləri solursa –
Açılarmı Şahdağının danı bəs?!

Üz tutduğum Şəhriyardı – babamdı,
Xanbiçənin laylası da nəvamdı.
Xudafərin oxuduğum duamdı –
Eşitməzmi bu duamı Tanrı bəs?!

09.04.20

## QARACA ÇOBAN

Gorun çatlamırmı Qaraca çoban?..
Tavla-tavla şahbaz atlar gedibdi.
Sinən üstən yol eyləyib yağılar,
Düşmən keçib, gavur yadlar gedibdi.

Qazlıq dağa kölgə düşər, gün aşmaz,
Qırx incə bel çiçək istər, gül açmaz,
Ərənlərin əsir düşsə, yaraşmaz…
Əsil-nəsəb, soyad, adlar gedibdi…

Qırx incə bel əsirlikdə dərd çəkir,
Hər sitəmi ərən çəkir, mərd çəkir.
Bu nə dərddi fələk bizə sərt çəkir,
Oğul-oğul ağzı qurdlar gedibdi.

Sürü-sürü gedib heyvan – dərd deyil.
Şəhid olub min-min cavan – dərd deyil.
Bəy gedib, xan gedib, çoban, dərd deyil,
Ay gorun çatlasın, yurdlar gedibdi...

*26.08. 2017.*

## FANİ DÜNYA

Milyon insan gəldi, getdi.
Can verdi, kam aldı getdi.
Nəyi vardı qaldı, getdi,
Tanı dünya, tanı dünya!

Mərdlərini tanımadın,
İgidlərin yarımadı.
Odur ki, belədir adın:
Fani dünya, fani dünya.

Burla xatun – can alan can,
Bamsı Beyrək, Sarı Selcan.
Dədəm Qorqud, Bayandır xan
Hanı dünya, hanı dünya?!

Bir əlində dərd xəncəri,
Bir yanında Səməndəri.
Məni oda yaxan pəri,
Fürsət verməz anı dünya.

Önümüzdə sual-sorğu,
Gəldik gedək Haqqa doğru.
Mehmanındı Muradoğlu
Unutdunmu onu, dünya?!.

## SƏS VERİN SƏSİMƏ

Səs verin səsimə,
Yüz il də keçsə,
Min il də keçsə,
Ey mənim yurdumun qəhrəmanları,
Ey mənim yurdumun padişahları.
Məhəmməd Qacarı,
Nadir Əfşarı!
Abbas Mirzələri,
Fətəli şahlar!
Sizə xəyanəti kimlər yapdılar?!
İngilis yapdımı?
Babam yapdımı,
Qardaşım yapdımı,
Dədəm yapdımı?
Qarabağ xanı –
İbrahim Xəlil,
Şəki xanı –
Səlim xan,
Lənkəran xanı-
Mustafa zəlil,
Şəkili, bakılı, keçili xanlar,
Tükləri tülkü tək tökülü xanlar.
Sizə kimlər yapdı xəyanətləri?
Söylə Nadir Əfşar,
Məhəmməd Qacar!
Abbas Mirzə!

Fətəli şah!
Yığın qoşunları...
Əfşar igidləri.
Qacar bəyləri!
Qarabağ – o gözəl diyar
Gedibdi əldən...
Səda gözləyirəm
Qərinələrdən....

*16.08. 2017*

## VƏTƏN OĞLU

Vətən oğlu!
Səni yanlış öyrətdilər
Qəhrəmanın kimdi sənin
Tanımadın.
Uluların kimdi sənin,
Dirilərin kimdi sənin,
Ölülərin kimdi sənin,
Tanımadın.
Duyğuların nədir sənin,
Yurdun, elin nədir sənin,
Sərhədlərin hardan başlar,
Hara varar -
Tanımadın.
Vətən oğlu,
Səni yanlış öyrətdilər.
İgidləri unutmusan,
Nadir şahı tanımadın,
Şah Qacarı tanımadın.
Guya sənə dərs dedilər,
Hər şeyi də tərs dedilər.
Hadir şahı bir yolkəsən,
Şah Qacarı bir qaniçən,

Türkün dostu ola-ola
Türkə düşmən öyrətdilər.
Aç gözünü bu dünyaya
Bir yaxşı bax.
Bu dünyanın yaxasına,
Bacasına bir yaxşı bax.
Gör kimlərin buyruğuyla
Haralara yuvarlandıq,
Millətlərin sırasında
Yer almamış parçalandıq.
Tarixinə bir yaxşı bax
Fətəli şah,
Abbas Mirzə -
Sənin ulu babaların
Guya sənə,
Guya türkə
Xəyanətdə bulundular...
Guya səni onlar satdı,
Guya səni  onlar atdı.
Guya... guya...
Yalan-yalan bu guyalar,
İftiralar, bu böhtanlar...

Dumanlatdı başımızı,
Heç bilmədik işimizi,
Görənmədik qarşımızı...
Vətən oğlu!
səni,
məni aldatdılar.
Yurdumuzu hissə-hissə,
Parça-parça satdılar.
Şərəfsizlik damğasıyla
Alçaltdılar.
Vətən oğlu,
Bizi belə aldatdılar...
Gec olsa da,
Axtarıram:
Nadir şahı,
Şah Qacarı...
Abbas Mirzə,
Fətəli şah,
Hardasınız?!
Bəlkə elə dardasınız?!
Dur ayağa Vətən oğlu!
Dur ayağa şəstlə oğul!
Dur, babanı səslə oğul!

*15.08. 2017*

## NAXÇIVAN

Ulu yurdum, ana Vətən,
Min illərİn o üzündən
Bu üzünə keçib gələn
Haqq yolusan.
Çalın - çarpaz sinəsindən
Qan püskürən,
Əldə qılınc hərb meydanın
Tərk etməyən çəngavər tək
Bir igidlik simvolusan!
Nuh babamın yadigarı,
Nuhçuansan!
Qapıçığın zirvəsində zirvələnən,
Gəmi-qaya daşlarına
Həkk olunmuş yazısıyla
Tarixini bu dünyaya
Diqtə edən bir məkansan.
Xan Arazın sahilində
Dayanmısan igid, məğrur.
Haçadağın zirvəsindən
Şimşək çaxır, alov qalxır.
Qayaların qala-qala,
Səngər-səngər.
Yağıların qarşısında
Sinə gərər.
Min illərdir Arslanların,
Ruhu burda keşik çəkir.

Günəş qızıl dırnağıyla
Yer şumlayır, tarla əkİr.
Qara çoban sürülərin
Yaylaqlara qaldırıbdı.
Salur Qazan təbil,
Şeypur çaldırıbdı.
İgidlərin ayaq üstə,
At üstədİr.
Qarşı dağdan səslər gəlir,
Bir naqolay not üstədir.
Naxçıvanım, qarı düşmən
Qarşısında dayan, dur!
Sənə yağan böhtan dolu
Hədyanları dayandır !
Oğuz elli, türk ellisən.
Oğuz dilli, türk dillisən.
Qopuzunla bir çəngi çal,
Bu dünyaya vəlvələ sal.
Naxçıvanım,
Turk elisən, Haqq yolusan
Sən azadlıq simvolusan!

## MÖMIİNƏ XATUN

Layla oxu, laylayına yataram,
Uğur dilə, uğurlara çataram.
Nəfəsimi nəfəsinə qoy qatım,
Möminə xatun, Möminə xatun.

Küləк olub daşlarını öpərəm,
Ulduzları ətəyinə səpərəm,
Arzudursa-bu arzuma qoy çatım,
Möminə xatun, Möminə xatun.

Haraylasan harayına gələrəm,
Mən oğlunam - Səni Ana bilərəm.
Adın ilə qoşa olsun qoy adım,
Möminə xatun, Möminə xatun.

## GÖY-GÖL

Bir tərəfdə qarlar, buzlar sallanır,
Bir tərəfdə gül-çiçəklər allanır.
Şəfəq düşür ləpələri xallanır
Fəsillərin görüş yeridi Göy-göl.

Keşiyində Qazandağı, Qapıcıq,
Burda Tanrı dərgahına yol açıq.
Ağ buluddan köhləni min, yola çıx,
Ayla günün görüş yeridir Göy-göl.

Nuh babadan qalmış köhnə məsəldi.
Qazancöldən ayrı düşmüş gözəldi.
Ürəyimdən iki kəlmə söz gəldi-
Bu ellərin alqış yeridi Göy-göl.

## DIRNISIN

Əlini göynədər buz bulaqları,
Layla tək çağlayar çayı Dırnısın.
Qoynunda gülşəni, alma bağları,
Yoxdu bu cahanda tayı Dırnısın.

Qızları ismətli, oğulları mərd,
Dağları sıldırım, dolayları sərt.
Gavura, namərdə eyləməz güzəşt,
Dosta var ərməğan payı Dırnısın.

Bir yanı Kələki, bir yanı Əylis,
Böyüdük, boy atdıq qucağında biz.
Hamıya mehriban, hamıya əziz,
Sanki bir cənnətdir yayı Dırnısın.



## NAXÇIVANIM

Hər daşının üzü doğma,
Yolu doğma, izi doğma.
Bu şəhərin özü doğma-
Naxçıvanım.

Unutmaram o illəri,
Çiçəklərdi sevgiləri.
Arzularımın şəhəri-
Naxçıvanım.

Seyrangahı-Böyük bağı,
Xatirədir hər bucağı.
Keçdi ömrün gənclik çağı-
Naxçıvanım.

Qarşılayar anam kimi,
Bir nazənin sonam kimi.
Sehrlidir dünyam kimi-
Naxçıvanım.

## ORDUBAD

İnci tək bəzəkdir ana Vətənə,
Dağların qoynunda güldü Ordubad.
Hər daşı min tarix söyləyər sənə
Danışan kitabdı, dildi Ordubad.

Zərdüşt atəş verib, od verib ona,
Şərəf qalası tək ad verib ona.
Dübəndi suyundan dad verib ona
Şəkərdi, şərbətdi, baldı Ordubad.

Günəşdən ayrılan nurdu, işıqdı,
O taya, bu taya o yaraşıqdı.
Təbrizdə oxuyan ustad aşıqdı,
Bir saz havası da çaldı – «Ordubad».

Düşmənin önündə qaladı, səddi,
Şöhrəti aşıbdı sərhəddi, həddi.
Qızları ismətli, ərləri mərddi,
Belə yaddaşlarda qaldı Ordubad.

Soyuqdan başlayıb Göy-gölə sarı,
Halay tutub yallı gedir dağları.
Əndəmic, Nüs-nüsün meyvə bağları-
Gövhərdi, yaqutdu, ləldi Ordubad.

Bir yanı Əylisdi, bir yanı Kotam,
Əjnövür bir dağdır, təpədir Salam.
Vənəndə, Dırnısa heyrandır adam
Dəstədən Xoşluya yoldu Ordubad.

Düylündən Urmusa yolu yoxuşdu,
Şəfa bulağının suları xoşdu.
Burda şair təbim qaynadı coşdu,
Bir anlıq xəyala daldı, Ordubad.

Azadan uzanır Nürgütə qədər,
Gilançay  üstündə yurdlar mötəbər.
Qırx iki kəndi var, qırx iki gözəl,
Gözəllər üzündə xaldı Ordubad.

Yuyunur Arazın ləpələrində,
Kəmkinin, Arsının   ətəklərində.
Peyğəmbər nəfəsi bəbəklərində,
Nuhun vətənidi, eldi Ordubad.

## ƏYLİSİN

Sağda təkə qaya, solu Arsdağı,
Qaladı, səngərdi yanı Əylisin.
Mən onu heç vədə tərk etmədim ki,
Canımda yaşayır canı Əylisin.

Buz kimi suları dişi göynədər,
Yolları tər tökər, işi göynədər.
Torpağa dərd əksən,çiçək göyərdər,
Çiçək rəngindədir qanı Əylisin.

Küçələr döşəmə, barısı-divar,
Məscidi, körpüsü, minarəsi var.
Mərkəzdən boylanır min  yaşlı çinar,
Uludur şöhrəti, şanı Əylisin.

Vəraqut, Nühgədih dayanıb başdan,
Şərbətdir suları süzülür daşdan.
Qız-gəlin oyadar sübhü obaşdan,
Şərqiylə sökülər danı Əylisin

Topda, Qanlıdaşda tökülüb qanlar.
Xanlar məhləsində yaşayıb xanlar.
Gəlibdi paşalar, gedib sultanlar,
Yaşayır şöhrəti-şanı Əylisin.

Şəninə min tərif deyib ozanlar,
Çoxalıb ayağın altın qazanlar.
Bəs harda qalıbdır tarix yazanlar,
Gözləyir yazanı canım Əylisim.

Düşmən söhbət açır xanlar bağından.
Göz dikib istəyir pay torpağından.
Namərd tənəsindən, el qınağından,
Barı özün qoru, Tanrım, Əylisi.

## TURAN DÜNYASI

Nə olmuş, nədəndir, bu necə sirdir?!
Düşmən caynağında yurdlar əsirdir.
Biz ki tanrımıza olmadıq asi,
Bəs niyə dərd çəkir Turan dünyası?!

Sizə salam olsun, igid ərənlər,
Köksünü gülləyə sipər verənlər.
Adınız şərəfdir elə, obaya,
Salam Ərtoğrula, Oğuz babaya.

Salam Beyrəklərə, Qazan xanlara,
Salam Atillaya, Eyvaz xanlara.
Dədəmiz Qorqudu, ulu Manası,
Salama dayanır Turan dünyası.

Salam Mübarizə, salam Çingizə,
Şəhadət qismətdir yazılıb bizə.
Analar, mərd durun, batmayın yasa,
Dəmir polad olmaz o dağlanmasa?!

Kişnəsin qıratlar, ulaşsın qurdlar,
Birləşsin, bir olsun bütün bu yurdlar.
Gəlir qulağıma səsi-sədası,
Qaldır sancağını Turan Dünyası!

## BİLƏSƏN

Altaylardan Qafqazlara yurdumuz,
Zəfərlərdən çıxıb şanlı ordumuz.
Önümüzdə bələdçi -  boz qurdumuz,
Səmalara ay-ulduzla yüksələn
Bayraq Türkün Bayrağıdır, biləsən!

Kişnə Qırat, kəməndləri qır at, gəl,
Nallar tökdür, kəhərləri oynat, gəl,
Xan Eyvazı, dəliləri oyat gəl,
Dədə Qorqud, Xan Bayandur yaylağı-
Koroğlular oylağıdır, biləsən!

Torpağıma ayağını basanda,
Qarı düşmən düşündümü bir an da?!.
Bu qisası saxlamaram  mən onda.
Əməlindən olacaqdır peşiman,
Bu yurd Türkün torpağıdır, biləsən!

Varsa satqın, varsa xain, xəyanət,
Qarşısında var cəsarət, dəyanət.
Ürəyində Yaradana məhəbbət,
Həqiqətdir, mərifətdir inamı,
Fəzilətdən çırağıdır, biləsən!

Bəşər oğlu, bu milləti bil, tanı.
Xilaskardı, qurtaracaq dünyanı-
İmansızın kəsiləcək gümanı
İman da bu, Quran da bu, vallahı!
Allah Türkün Allahıdır, biləsən!

*21.12.2017*

## HÜCUMA KEÇƏK

Düşmənlər əylənir yurd yerimizdə,
Çaqqallar ulayır qurd yerimizdə.
Min ağrı göyərib dərd yerimizdə,
Yığışın igidlər, hücuma keçək,
Azadlıq badəsin doldurub içək!

Boz qurdlar dayanıb üzü göylərə,
Salam və ehtiram bizdən yeylərə.
Gözləyir ağ qaya, boz çöl, göy dərə,
Tərpənin, qazilər, hücuma keçək,
Azadlıq badəsin doldurub içək!

Çalınır qopuzu Dədə Qorqudun,
Sizsiniz nicatı bu ulu yurdun.
Daha səbr etməkdən bezdin, yoruldun,
Qazilər, igidlər, hücuma keçək,
Azadlıq badəsin doldurub içək!

Qoy atəş açılsın, toplar gurlasın,
Ulduzlar ələnsin, məşəllər yansın.
Bayrağımız yenə də dalğalansın,
Qarabağ uğrunda hücuma keçək,
Qələbə badəsin Şuşada içək!

## MƏN BİR TÜRKƏM

Mən bir türkəm,
Şərəf duydum bu adla,
İnsan gəzər cüt ayaqla,
Qartal qoşa qanadla
Uçar gedər ənginlərə,
Mən də bu gün
göylərə yüksəlmişəm.
Bir qanadım Azərbaycan,
Bir qanadım Türkiyəm.
Bir yanımda Bakı, Təbriz,
Bir yanımda Anadolu.
Könlüm dolu,
İçim dolu,
Əlim dolu.
Ulularım göstərdiyi,
Öndərlərim açan yolu-
Mən gedirəm addım-addım,
Bir kimsənin dar günündə
Xoş günümü axtarmadım.
Mən bir türkəm!
Siz kimsiniz?
Sarı iblis-şeytanların
Yan cibində gizlənənlər!
Yalan adlı dəyirmanda
Türkə böhtan üyüdənlər.

Amal saxta, sifət saxta.
Bir budaqda otursa da,
Əli gəzir min budaqda.
“Əsliniz nə?
Soyunuz nə,
Kökünüz nə?!
Mən bir türkəm,
Sələflərim uludur.
Atilladır, Mətədir,
Dədə Qorqud, Koroğludur.
Getdiyim yol Haqq yoludur,
Ərənlərin yoludur!

## 12 - lər

1918-19-cu illərdə Ordubad rayonuna erməni hücumları zamanı həlak olmuş, Əylis Şəhidlər xiyabanında uyuyan 12 məhmətciyə

Əylisin köksündə mərdlik nişanı,
Qəlbi millətinə eşq ilə dolu,
Cəsarət simvolu,
Azadlıq yolu -
12 – lər.
Millətin inamı, güvənc yeridi,
Düşmənin önündə dirənc yeridi,
Savaş meydanıdı, bir cəng yeridi -
12 – lər.

Çanaqqala savaşından keçib gəlib,
Ayrılığın şərbətini içib gəlib.
Şəhadəti seçib gəlib -
12 – lər.

Nəğmələrim sizə sevgim, məhəbbətim...
Siz eşq dolu bir amalın, bir niyyətin.
Əbədi mehmanı əbədiyyətin –
12 – lər.

***YA EN GƏL YANIMA,***

***GÖYÜZÜNDƏKI,***

***YA MƏNI ÖZÜNLƏ***

***APAR, DARIXDIM***

## EŞQ BİR SİRDİR

Xoşlu dağın laləsi
Süzülüb piyaləsi.
Mən içdim, dərdə düşdüm
Yarda qaldı çarəsi.

Sərin rüzgarlar əsdi,
Əsdi, amanın kəsdi.
Eşq bir sirdir açmaq olmaz,
Sən bil, mən bilim, bəsdi.

Dağ mənim, düzlər sənin,
Badamı gözlər sənin.
Mənim sevdalı könlüm
Ölüncə gözlər səni.

## NƏ VAR Kİ...

Dağda duman-çən vardısa, gözəldi,
Saç kallaşıb dən vardısa, gözəldi.
Bir ömürdə "sən" vardısa, gözəldi.
Sənsiz olan bir ömürdə nə var ki?..

Bu dünyanın hər işini anladım,
Gah sevindim, gah özümü danladım.
Ötən günə "heyif" deyib yanmadım,
Gələn gündə "mən" yoxamsa, nə var ki...

*15.08. 2017*

## BU SEVGİNİN SONU YOX

Hər kəs ağaca yazdı
Sevdiyi qızın adın.
Mənsə qəlbimə yazdım,
Ağaca yazanmadım.
Ürəyimdə çat saldı
O sevginin ilk adı.
həsrəti mənim oldu,
Vəsli mənim olmadı.
Keçib illər, fəsillər
Ağacdakı yazılar
Qaysaqlanıb itibdi.
Çox sevənlər unudub
Sevgiləri bitibdi.
Mənsə unudanmadım.
Qəlbimə yazdığım ad
Qəlbimdə yara oldu.
Bir üzü bəyaz idi,
Bir üzü qara oldu.
Sordum gəlib gedəndən,
Sordum yeldən, küləkdən.
Dedilər o unudub,
Sən də çıxart ürəkdən.
Ürək ağac deyil ki,
Yarasını sarıyam,
Bir budağın kəsəndə

Bir budaq pöhrələyə.
Mən hələ ümidliyəm
Gözləyirəm nə vaxtdı.
Bu sevginin sonu yox,
Sonu – heç olmamaqdı.



## APAR MƏNİ

Gəl bu gün apar məni
Özümdən uzaqlara.
Bir sahildə ikimiz,
Ikimiz olaq ancaq.
Gedir dərd-bəla getsin
Gözümdən uzaqlara,
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

Gəl apar bu gün məni
Darıxmışam nə vaxtdı.
Hər gecə söyləyirəm
Sənlə gələn sabahdı.
Könlümdə qurduğun var,
Vardı məhəbbət taxtı.
O taxtdan özgə bir şey
Dünyada qalmayacaq,
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

Yenə bənövşə açır,
Yenə çiçəklər gülür.
Hər çiçəyin gözündən
Bir sevgidir tökülür.
Qollarım yelkən kimi
Açıldıqca açılır,
Yenə səni gözləyir,
Yenə səni qucacaq,
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

O yerə apar məni
Çay olsun, dəniz olsun.
Bir sənin məhəbbətin,
Bir də bəndəniz olsun.
O günün sərhədləri
Bir ildən uzun olsun.
Oxşamalı saçların,
Sevməli üzün olsun.
Dodaqlarından şirin
Olmasın bir dadacaq.
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

O yerə apar məni
Göyərçinlər cütdülər.
Birgə gəzib dolaşıb
Birgə şərqi ötdülər.
Hər qayğıdan, kədərdən
Uzaq olsun cütlülər.
Daş balıncdan yumuşaq,
Mehriban qum yatacaq...
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

Sənin dodaqlarından
Süzüldükcə bal şeir,
Fidanlar pıçıldaşır
Sanki nəqarat deyir.
O sözlərdə bir ümid,
O gözlərdə od-ocaq...
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq.

Gəl apar bu gün məni
Özümdən uzaqlara,
Apar sən olan yerə,
Yüzündən uzaqlara.
Apar ruhlar dünyasına
Yer üzündən uzaqlara.
Orda ruhlar danışsın,

Əllərimiz barışsın.
Yel əssin saçlarımız
Bir-birinə qarışsın.
Elə anlar yaşayaq
Bir ömür anılacaq...
Bu görüşdən xatirə,
Bir yadigar qalacaq...

# QALAR

Yerini tapmasa, ədalət, mizan,
Deməк üstələyib yazanı pozan.
Ya alim, ya dahi olsa da insan,
Pozulmuş nizamda gərəksiz qalar.

Ala gözlərinin yaşla dolması,
Təzaddır – dünyanın var toyu, yası.
Döyünər köksündə bir ət parçası
Sevgidə, eşqində ürəksiz qalar.

Bu həyat dərsidir anlamaq çətin,
Yazılmış qanunu var təbiətin.
Dünyaya eynəklə baxan millətin,
Məcnunu çöllərdə çörəksiz qalar.

*30.01.2018*

## DEYİLMİYƏM BƏS

Niyə əğyar ilə oturdun, durdun?
Sonra da arxadan bıçaqla vurdun.
Sən Leyli gözəli bu ana yurdun,
Mən Məcnun balası deyilmiyəm bəs?!

Unuda bilmədin məni bir an da,
Bu can o candadır, o can bu canda.
Getdiyin hər yerdə, qalsan hayanda
Başının bəlası deyilmiyəm bəs?!

Sənin o mənzildə gözünün yaşı,
Mənim bu mənzildə hicran yoldaşım.
Bəzən də üz-üzə, qarşıya-qarşı,
Qadanı alası deyilmiyəm bəs?!

Hər sözdən inciyib küsüb də getmə,
Yaralı könlümü üzüb də getmə.
Qəlbimə min dərdi düzüb də getmə,
Qəlbində qalası deyilmiyəm bəs?!

Niyə əğyar ilə oturdun, durdun?
Sonra da arxadan bıçaqla vurdun.
Sən Leyli gözəli bu ana yurdun,
Mən Məcnun balası deyimiyəm bəs?!

*26.01. 2018*

## HƏYAT GÖZƏLDİ, QARDAŞ

Sən niyə Tanrına asi olursan?!
Yaşamaq gözəldi, gözəldi qardaş.
Sənə ömür verib, göz, işıq verib,
Boy-buxun veribdi,
Yaraşıq verib.
Sən nədən narazı, razı olursan?!.
Yaşamaq gözəldi, gözəldi qardaş.
Günəşin nurundan sən də yararlan,
Gecələr ilham al, ulduzdan, Aydan.
Göy çəmən, ağ çiçək sənin deyilmi?
Alagöz o göyçək sənin deyilmi?
Ləpələr ötdükcə danış dənizlə…
Sahildə sevdiyin qarasaç qızla,
Bir nəğmə oxusan, açılar güllər,
Çiçəklər salama dayana bilər,
Bulud qaş-qabağın üzünə gülər.
Yaşamaq gözəldi, gözəldi qardaş,
Sən niyə Tanrına asi olursan?!
Sabahlar doğmamış, ah, nələr doğar...
Hələ görməmisən düyün, toy, mağar...
Amma  bir  obanın, amma bir elin
Kədəri olursan, yası olursan?!.
Sən niyə Tanrına asi olursan?!
Hələ qarşındadır o uzun illər,
Bağlar bar gətirər, bənövşə verər...

Özünə qəsdində məqsədin nədir?
Sənin düşündüyün boş əfsanədir...
Ardınca alagöz bir qız ağlayar,
Boyunu öpdükcə dəniz ağlayar,
Bir qatar təkəri xəcalət çəkər,
Bir ağı qışqırar, sənsiz ağlayar...
Sən niyə özünə rəhm eləmirsən?
Səni sevənlər var dünyada axı,
Səni sevənlərin göz yaşına bax,
O dərdli ananın üst-başına bax.
Yaşamaq gözəldi, yanmaq gözəldi,
Sevdiyin o qızdan küssən də belə,
Soyuq gözlərində donmaq gözəldi...
Soyuğun, şaxtanın yazı var hələ,
Alagöz gözəlin nazı var hələ...
Yaşamaq gözəldi, gözəldi, qardaş...
Sən niyə Tanrına asi olursan?!.

*11.01. 2018.*

## BALA

Bu da yoldu seçmisən?
Olmaya and içmisən?
Yalandan don biçmisən,
Gey səhər-axşam, bala.

Baş açmaq olmur səndən.
Özün günahkar ikən,
Yapışırsan fələkdən -
Hey səhər-axşam, bala.

Fələk çarə etmədi?
Dərdin bitib getmədi?
Qarğışladın yetmədi,
Söy səhər-axşam, bala.

Etibar yox sözündə,
Daha düşdün gözümdən.
Yastıq düzəlt dizindən,
Döy səhər-axşam, bala.

*09.01. 2018*

## BİRİSİ

Hər gün Tanrısına şikayət yazar,
Nisgili gözündə qalan birisi.
Özünü anlayan, başa düşməyən,
Ağlayan birisi, gülən birisi.

Taleyi gözünün önündə çılpaq,
Oyundur; uduzan, udan olacaq.
Başına min adam yığışar, ancaq,
Olmaz dərdlərini bilən birisi.

Üzünə, gözünə saçın dağıda,
O leyli nisgilin kökün dağıda,
Gələ eşq yuvasın laçın dağıda,
Həsrətin saçını yolan birisi.

Qan damar qapqara kipriklərindən,
Tilsimli sandıqdı; - sirri dərində.
Qara bəxti inlər ağ əllərində,
Dərməmiş çiçəyi solan birisi.

Şamın nə vecinə, yanıb sönəcək,
Yenə də otağı buza dönəcək.
Vallah, nə gələcək göydən gələcək,
Yalandı, yalandı, yalan birisi...

*30.12. 2017*

## MƏNİM

Getmir xəyalımdan surətin bir an,
Keçir ilmə-ilmə qatımdan mənim.
Dilimin əzbəri olubdur adın,
Adın əziz olub adımdan mənim.

O böyük sevgini sən bilə-bilə,
Anbaan, günbəgün versən də yelə,
Uzaqdan olsa da ağ əllərinlə
İstilik alırsan odumdan mənim.

Gözlərim görməyən yaxın da uzaq,
İsti ocağıma gətirmə sazaq.
Başlanğıc nöqtə var, bir son duracaq -
Çalış çıxmayasan yadımdan mənim.

*26.12.2017*

## EYLƏ

Bilirəm, sən məni sevirsən, canım,
Halaldır bu yolda tökülsə qanım.
Nədən yanlış olsun, niyə aldanım?!.
Nə olar, sevgini etiraf eylə.

Xəyalın dolanır aranda, dağda,
Anlayır ahıl da, körpə uşaq da.
İncitmə özünü, məni bu çağda,
Nə olar, sevgini etiraf eylə.

Sən həsrət çəkdikcə küncdə, bucaqda.
Daş ilə soyuyur isti qucaq da.
Söndür atəşini bizim ocaqda,
Nə olar, sevgini etiraf eylə.

Ömrümüz talanır – zaman oğrudu…
Sevirsən düşünmə - səhvdi, doğrudu?
Sənin ümidgahın Muradoğludu,
Bir yol da sevgini etiraf eylə.

## MƏNİ AXTARACAQSAN

Yaşına yaş gələndə,
Saçına qış gələndə,
Gözləmin boş gələndə
Məni axtaracaqsan.

Ulduzlardan doyanda,
Kimsə olmaz yanında.
Yastığa baş qoyanda
Məni axtaracaqsan.

Yadına bağ düşəcək,
O ötən çağ düşəcək.
Solub yarpaq düşəcək
Məni axtaracaqsan.

Günəş dağda batanda,
Hamı səni atanda.
Tənha qalıb Vətəndə
Məni axtaracaqsan.

*08.12. 2017*

## DAĞLARA-DAĞLARA

Özünü aldatma yalanlar ilə,
Barış bu həyatla, olanlar ilə.
Bir kimsə ölməmiş ölənlər ilə,
Dərdin dağlara-dağlara.

Dərdimdir dərd ilə qəddin əydirib?
Ağlayan kamanla, neylə eydirib,
Dərdinin əyninə kəfən geydirib,
Sərdin dağlara-dağlara?!.

İnsansan, iş gələr insan başına,
Kimsə varmı qara gündən yaşına?
Varaq gedək biz də bir gün yoldaşnan,
Mərdim, dağlara-dağlara.

*06.12. 2017.*

## MƏN SƏNİ TANIYIRAM

Mən səni tanıyıram,
Gülüşündə dərd var, adam.
Burax saxta görüntünü,
Üzə kədər, dərd ver, adam.

Dərd ver, dərdinmi azaldı?
Fələk səndən yazmı aldı?
Dərd adında sözmü aldı,
Şair oldu qəddar adam.

İlk özünə qəddar oldu,
Özgələrə əttar oldu.
Bəzən dünya çox dar oldu,
Bəzən küncdə çatlar adam.

Güzgüdə bax bir özünə,
Gör nə görünür gözünə?!
Bu sənmisən düz-düzünə,
Ya özgələr, yadlar adam...

Oxudunmu ulduzlara,
Gecələri yalqızlara?..
Özün kimi yalqız ara,
Yalqız-yalqız partlar adam.

Gözlərində sevinc nəmdi,
Gülüşlərin kədər, qəmdi.
Tutaq dünya cəhənnəmdi,
Bir ucu da bahar, adam.

*05.12. 2017*

## OXUNMAYAN MƏKTUB

Sən özün özündən uzaq düşmüsən,
Ürəyin anlamır dilin deyəni.
Bir kəlmə səhv sözə dustaq düşmüsən,
Əlimi buraxdın, itirdin məni.

İndi də eşq dolu sətirlərində
Göz yaşı bükülmüş hıçqırıqların.
Vulkan yanğısı var, kökü dərində
Yarımçıq sevginə yağan bu qarın.

Yazdan qışa keçdin günahlarınla,
Sən payız fəslini heç görmədin ki…
Of dedin, uf dedin – bu ahlarınla
Saralmış bir yarpaq göyərtmədin ki…

Yarpaq göyərtməyən ümid göyərtməz,
Ümidi olmayan inamsız qalar.
Sevginin nuruyla dolmayan qəlbi,
Yazda da, yayda da boran, qar alar.

Namərd ocağından aralı dayan,
Sözü urvatsızdı, söhbəti yavan…
Görürəm özünə asi olmusan,
Halbahal olursan, dəyişir havan.

Yerini bir kimsə əvəz eyləməz,
Məni anlayasan, axı sən necə?!.
Bir könül hər zaman oxuna bilməz,
Bir bağlı qapıdır, qaranlıq gecə…

*02.12.2017*



## SƏNƏ GÜLMƏK YARAŞIR

Ağlama bu qədər yasın içində,
Kədərin içində, pasın içində.
Bir cin var oynayır tasın içində,
Ağlama,
Sənə gülmək yaraşır.

Daş atma fələyə, daşına baxmaz,
Tökər gözlərini yaşına baxmaz.
Əməlinə baxmaz, işinə baxmaz.
Ağlama,
Sənə gülmək yaraşır.

Bəxt verib, bəxtindən yarı deyibdi,
Təxt verib, təxtində qarı deyibdi.
Bir məcnun könlünü, barı deyibdi-
Sevindir!
Sənə gülmək yaraşır!

*23.10. 2016.*

## ÖYRƏN

Bir gün mənsiz qalacaqsan,
Haray, bu başdan öyrən.
Öz-özünə dost olmağı
Torpaqdan, daşdan öyrən.

Meylini sal ağaclara,
Gül-çiçəkdə ülfət ara.
Alqış söylə buludlara,
Mehri yağışdan öyrən.

İlk bahardan gözəlliyi,
Dərib saxla üzərliyi.
Son bahardan dözümlüyü,
Sərtliyi qışdan öyrən.

Boş otaqda tək qalınca,
Mehrini sal gül balınca,
Təzə həmdəm axtarınca,
Oxu şeirdən öyrən.

Xəyallarda uçmağı,
Öyrən, unut qaçmağı.
Qəlblərə yol açmağı
Gözdəki yaşdan öyrən.

Öyrən, bu başdan öyrən,
İş keçər işdən öyrən.
Sabahı görmədinsə,
Barı keçmişdən öyrən.

## MƏHƏBBƏT NƏDİR

Bu sevda yoludur daşlı- kəsəkli,
Gah barış içində, gah küsəcəkli...
Yolçu, davam eylə cütlü ya təkli,
Getdikcə biləsən məhəbbət nədir.

Sən məcnun bir aşiq, o şıltaq - dəli,
Hərdən sevilməli, hərdən sevməli.
Onu  "öldürməli", onsuz "ölməli",
Sonra da biləsən məhəbbət nədir.

*21.08.17*

## BAKI KÜLƏYİ

Mən sənə dünyanın sevgisin verib
Könlünü almağı əhd eyləmişdim.
Şəhla gözlərindən kədəri alıb
Fərəh gətirməyə cəhd eyləmişdim.

Sənsə qarışdırıb bütün aləmi,
Gahdan inciyirsən, gahdan küsürsən.
Bakı küləyi tək hərdən şimaldan,
Hərdən də cənubdan, qərbdən əsirsən...
Özün bilərsən,
Daha neyləyim?!

*07.08. 2017*

## ADAM

Sən nədən beləsən?
- Dürüst deyilsən,
Yar olmaq bir yana, dost da deyilsən.
Özündən demirsən, məni deyirsən,
Bir dön keçmişinə, özünə adam.

Mən söhbət açıram gələcək gündən,
Könül sevgisindən, istədiyindən.
Sən qopa bilmirsən ehkamdan, dindən,
Yaxşı bax dünyanın üzünə adam.

Niyə oynayırsan olanlar ilə?
Oturub-durursan nadanlar ilə.
Qatma hər adamı adamlar ilə,
Sadiq ol, doğru ol sözünə adam.

Sən varsan, mən varam, biz olmasaq da...
Keçmişdə xəta var, düz olmasaq da...
Əlli əlliyədir, yüz olmasaq da,
Yenə də dəyərik yüzünə, adam.

Ağlını çaşdırdın, yolların çəndi,
O qədər cəhl etdin səbrim tükəndi.
Bəlkə də peşiman olmusan indi,
Ya indi döyürsən dizinə adam.

Axsa da gözünün yaşı sel kimi,
Təsiri olarmı acı dil kimi?!.
Üzündə təbəssüm qalsa xal kimi,
Məcnun düşər Leyli izinə, adam.

*04.08. 2017*

## SƏNSİZLƏŞİRƏM

Təkcə xəyalın da bəs edər mənə,
Sən varsan, mən səsəm, küyəm, həşirəm.
Elə doğmalaşıb bu şəhər mənə,
Bir gün ayrılanda qəribləşirəm,
Sənsizləşirəm.

Sən elə doğmasan mənə, biləsən,
Nə qədər uzaqsan o qədər yaxın.
Mən sənə yaxınam can köynəyindən,
Mənəm yaxalığın, ya arxalığın.

Yanında yoxamsa, könlündə varam,
Xəyal tək gəlirsən niyə bilmirəm.
Sən mənim ruhumsan deyə bilərəm,
Mən sənin nəyinəm deyə bilmirəm.

Dustaqsa qəlbimin istək, arzusu,
Yenə də bir zərif ümid kimisən.
Bu mənəm ruhuna yağış çiləyən,
Sən məni odlayan kibrit kimisən.

Mən sənə yaxınam can köynəyindən,
Su kimi axıram gözündən sənin.
Bəzən sən özündən uzaq olursan,
Mən yaxın oluram özündən sənin.



## ÜRƏYİM

Ürəyim sözümə baxmır nə vaxtdır,
Sancır, qəfəsindən çıxmaq istəyir.
Məni qasırğalar yıxa bilmədi,
Deyəsən ürəyim yıxmaq istəyir.

Bir ömür o mənim nazımı çəkdi,
Mən ona qəm, kədər, dərd verdim ancaq.
Ona da təbii baxıram elə,
Ağrıyıb-ağrıyıb bir gün susacaq.

*01.07. 2017*

## GÖY ULDUZU

Öpüb oxşayıram göy ulduzunu,
Gündüz xəyalımda, gecə yuxumda.
Qorxuram əlimdən salıb uduzum,
Qorxuram əlinmdə möhkəm tutum da.

*17.07. 2017*

## AĞLA ƏZİZİM

Ana qucağından ayrılan çağa,
Adətdir başlayar səs-küy salmağa.
Nəfəslik var idi hava almağa,
Onu da çox gördün bağla, əzizim.

Səni tərpətmirmi həyacanım da?
Məhəbbət virusu çıxıb qanımda...
Bir ocaq qalayıb yağ tiyanında
Bu məcnun könlümü dağla, əzizim.

Sinəmə çəkdikcə dağı dağ üstə,
Bir də bir məşəl al, bir çaxmaq istə.
Matəm marşı çaldır muğamat üstə -
Yola sal, ardımca ağla, əzizim.

*17.07. 2017*

## BƏDƏNİNDƏ

Sən elə zərifsən nəfəs dəyməmiş,
Ulduzlar göyərir ağ bədənində.
Ürəkmi çırpınır həvəslə, yoxsa,
Məhəbbət ruhumu, bax, bədənində?

Qoynunda cüt narın təamı-əla,
Vaqifin başına gətirdi bəla.
Ruhu da eyləyir orda təcəlla,
Bu necə cənnətdi, bağ bədənində?

Canda olmasa eşq atəşi gizli,
Alışmaz bu qədər dumanlı-sisli.
“Pənbeyi-daği-cünün” içrə Füzuli –
Şair, əlbət var, çıl-dağ bədənində.

## HƏYAT DƏRSİ

Həyat məktəbində "2" almışam,
Dedim ki, bu dərsi sən öyrət mənə.
Önə çıxammayıb geri qalmışam,
Gör heç olubdumu bir ibrət mənə?!

Qiymət cədvəlimə baxıb utandım,
Hamını özüm tək sadəlövh sandım.
Oyunda uduzmaq olar.
Mən yandım,
Hər addım gətirir xəcalət mənə.

Uşaq tək aldandım şirin sözlərə.
Sapdım, qoşulanda yalan izlərə.
Gündüz çıraq ilə gəldim sizlərə,
Amma tənə etdi bu afət mənə.

Neyləyək, deməli, həyat bu imiş,
Dərsi də, tərsi də axar su imiş.
"2" almağımın qorxusu imiş,
Hələ də qoyulur min minnət mənə.

## AFƏT

Uç mənə göylərdən mələk kimi gəl,
Bir eşq ilahəsi – fələk kimi gəl.
Ömrümə, günümə bəzək kimi gəl,
Mən öksüz qalmışam sevgidən, afət.

Səni idrak edir nə baş, nə şüur.
Al məni qoynuna canım üşüyür
Yadıma bir şeir, bir misra düşür,
"Sən məni elə sev", sevginən, afət.

Sev məni, elə sev bilən olmasın,
Elə sev sənin tək sevən olmasın.
Elə sev üşüyən yerim qalmasın,
Qurtarım həsrətdən, acıdan, afət.

Bilirsən mən səni necə sevirəm,
Gündüz oxşayıram, gecə sevirəm.
Bəlkə əbəs yerə, bica sevirəm,
Sən mənə biganə olsan da, afət.

Mən səni sevirəm qəlbdə qan kimi,
Dodaqda söz kimi, canda can kimi.
Ay kimi, gün kimi, asiman kimi,
Eşq uman Sənanam tərsadan, afət.

Sev məni havasız qalmadığın tək.
Dilində şarkılar, əlində çiçək.
Xumar saçlarını sinəm üstə tök,
Od alım eşq dolu köksündən, afət.

Sev məni heç kəsi sevmədiyin tək,
Sev məni heç kəsin olmadığın tək.
Sev məni, ən şirin uyğu kimi sev,
Sev məni, könlündə duyğu kimi sev.

Mən necə sevirəm eləcənə sev,
Məni özün kimi biləncən sev.
Gözümdə həsrətin ölənəcən sev,
Oduma yanmasan, yansan da, afət.

## GECƏ YARI

Gözümün üstüdür yerin bilirsən,
Uç gəl qollarıma qon gecə yarı.
Ürəyim isidə bilməsə səni,
Mənimlə birlikdə don gecəyarı.

Sənsiz üşüyürəm, soyuqdur canım.
Sənsən düşündüyüm, sənsən hər anım.
Elə bir atəş yax, mən də odlanım,
Özün də oduna yan gecə yarı.

Düşün, bu sevginin bir qibləsi var,
Duymaq istədiyin qəlbin səsi var.
Hər dava-dalaşın atəşkəsi var,
Qoyulsun hicrana son gecə yarı.
00



## SƏN ÖYLƏ VARLISAN Kİ

Sən öylə varlısan ki,
İçin eşqlə doludur.
Getdiyin sevgi yolu
Elə haqqın yoludur.
Get, bu yolu sevdiyim,
Ardınca mən də gəlim.
Yorulanda dizinə
Baş qoyum bir dincəlim.
Yatım xəyallarında,
Durum xəyallarında.
Qoy mən olum qazancın,
Dövlətin də, varın da...
Kölgən kimi yanında,
Atəş kimi canında.
Arzu mənim içimdə
Sevda sənin başında.
Ürəyində qan kimi,
Ümid olum qarşında.
Get, bu yolu sevdiyim,

İçin eşqlə doludur.
Getdiyin sevgi yolu-
Bu dünyanın tək yolu -
Elə haqqın yoludur.

## DÜNYA NAĞIL DEYİL

Sən elə bilirsən dünya nağıldı?
Cırtdanlar divlərə qalib gələcək?!
Bir az düşüncəli, bir az ağıllı
Fikirləş, bu qara sevdadan əl çək.

Hər gülün yanında min qara tikan...
Çiçəyin məskəni dağ yamacıdır.
Həyat ağacını gəmirir siçan,
Bilirsən...həzm etmək, amma acıdır...

Bəlkə də... neyləyək, həqiqət budur,
Kimi keçmişiylə dərdin ovudur,
Kimi də boşuna ümid bəsləyir.
Bəs həyat?!
Bəs həyat hara səsləyir?

Dünyanın əvvəli güllü-çiçəkli,
Zamanla istisi, şaxtası vardır.
İsidər, üşüdər, gedər beləcə -
Sonunda mürdəşir taxtası vardır.

Həyat nağıl deyil, anla bir kərə,
Uşaq tək aldanır şirni yeyənlər.
Üç alma düşməyir göylərdən yerə,
Onu da uydurub nağıl deyənlər.

## QADIN MÜƏLLIM

Bir yazılı təbrik,
Bir dəstə çiçək,
Şagirdləri adından
Aldı sevindi qadın.
Qızının evsizliyi,
Oğlunun işsizliyi
Çıxdı yadından.

## SƏNİN

Unudub yaşımı, işimi tamam,
Uşağa dönürəm qarşında sənin.
Səni də mən elə böyük görmürəm,
Görürəm sevilən yaşında səni.

Varsa da günahım, başıma qaxma,
Zəhərə dönməsin bir tikə loxma.
Üzünü çevirib baxmırsan, baxma…
Hələ min hava var başında sənin.

Heç nədən salırsan dava, qalmaqal,
Dodağın əsirdi, bir yadına sal.
Könlüm bir çiçəkdi, bu çiçəyi al,
İnci tək parlasın döşündə sənin.

Sən bəzək verirsən ağ otağına,
Mən qonaq gəlmişəm bağ otağına.
Bax öz sevdiyinə, suç ortağına,
Gör kimdir dolanan peşində sənin?

Səni ucalardan uca eylərəm,
Qaldırıb başımın tacı eylərəm.
Nə zaman eylərəm, necə eylərəm,
Sultana döndərrəm işində səni.

Mən Muradoğluyam, bəllidi adım,
Sənsən könül dostum, qolum-qanadım.
O gözəl ruhunu öpdüm doymadım,
Qaldımı o anlar huşunda sənin?!

*25.06. 2017*

## DÜNYA FANİDİR

Sənə “canım” dedim, sən mənə “can” de,
Bu eşqin oduna “alışıb yan” de.
Könlündən nə keçir, a mehriban, de,
Onsuz da gördüyün dünya fanidir.

Ömrümün gəncliyi, heyi gedibdi,
Bilmirəm nə qalıb, nəyi gedibdi.
Çalışdım, vuruşdum səyi gedibdi.
Qalan da gördüyün,
dünya fanidir.

Qarışıq salmarıq gecə-gündüzü,
Eşqin ətəyindən yapışsaq düzü,
Bəlkə də bəxtəvər eyləyər bizi,
Elə də, belə də dünya fanidir.

Gündü gəlib keçər, dərdini çəkmə,
Dəniz sənə yaxın, sahildə təknə...
Könül eşq tarlası sevgini əkmə,
Ya da ək, istəsən…
Dünya fanidir...

*22.06.2017*

## QALDI

Dağlar dərd edincə, Lələ, dərdini,
Lələ də Kərəmin bilə dərdini.
Döndərdi Əslinin gülə dərdini,
Nə Əsli yaşadı, nə Kərəm qaldı.

Dünya baş açmadı qurduğu işdən,
Bəni-adəmindən, şeytan ABŞ-dan.
Lənətlə anılan Qara keşişdən
Əsrlər keçsə də, bir sitəm qaldı.

Tilsimdən açılmır əsrin yaxası,
İndi iblislərdi igidlər xası.
Yanıq  Kərəmlərin yoxdu arxası,
Arxa dağlarında dərd-ələm qaldı.

*18.06.2017*

## GÜLÜM

Hər gecə... hər gecə uyğularımda,
Bir ömür, br tale, həyat var, gülüm.
Xatirə anılar duyğularımda,
Acılı, şirinli büsat var, gülüm.

İlk bahar yağmuru, yağ üstümə, gəl,
Nöqtə qoy, dərdimə, həsrətimə gəl.
Gəlirsən bu gecə qismətimə gəl,
Qoynunda çiçəkdən sovqat var, gülüm.

Ulduzlar qovuşar gecə yarısı,
Yarısı mənəmsə, sənsən yarısı.
Dağılsın gecənin hasar-barısı,
Səhər dan üzünə ovqat var, gülüm.

## ELƏ DEMƏ

Qanamış əllərinin
qanını sürt üzümə,
qoy üzüm qanlı olsun.
O bal dodaqlarının
təmasın unutmadım,
Lütf et, xəyallarımda
həmişə canlı olsun.
Mən də hey sənin kimi
qəlbimə dərd əkirəm.
Nə müddətdir, əzizim,
o daraq əllərinin
həsrətini çəkirəm.
İki qərib vardısa,
hicranı bitməzmidir?!
Bir eşqə tapınanlar
vüsala yetməzmidir?!
Niyə qaçıb özündən
könlünü əsdirirsən?!
Bu həyatdan, dünyadan
məni də küsdürürsən?!
Həyat şirin, yol qısa...
səni duyan vardısa,
səni sevən vardısa,
daha,
daha nə isə...

## SƏN DƏLİ, MƏN DƏLİ...

Çıxıb hövsələdən bu səhər dəli,
Yatmır ipə-sapa bir təhər - dəli.
Düşüb aramıza yenə qalmaqal,
Sən dəli, mən dəli, bu şəhər dəli.

Yoxdu atəşkəsi, sülh məramlısı,
Deyirsən vur ölüm, qandı - qanlısı.
Kim kimin düşməni, kimin qanlıısı,
Sən dəli, mən dəli, bu şəhər dəli.

Sözündə əvvəlin, axırın da yox,
Ən ağıllı sənsən, ağılın da yox.
Məni toxtatmağa nağılın da yox,
Sən dəli, mən dəli, bu şəhər dəli.

Əsir acı ruzgar, küləklər dəli,
Dalanlar, döngələr, küçələr dəli.
Arzular dəlidi, istəklər dəli,
Sən dəli, mən dəli, bu şəhər dəli.

Yoxmu məhəbbəti, yoxmu sevgisi?
Alsın ağuşuna uyutsun bizi.
Al-qana qərq etdik bir-birimizi,
Sən dəli, mən dəli, bu şəhər dəli.

Ağlaya-ağlaya eydirmə, bəsdi,
ruhunu şeirimə geydirmə, bəsdi.
dəlini dəliyə əydirmə, bəsdi,
sən dəli, mən dəli...
gedək bu şəhərdən…
Bu şəhər dəli.

## AĞ MANTOLU QADIN

Tanrının alnına yazdığı varsa,
Sirr dolu bağlanmış sandığı varsa,
Qaranın içində bir ağı varsa,
Sənə ağ yaraşır, ağ geyin, qadın,
Bir ömür salamat-sağ geyin, qadın!

Qarşında oturan dostuna bir bax,
Gümüşü saçına, şəstinə bir bax.
Sözün çəpləşəndə küs, genə bir bax,
Ağ çiçək əllərə bax, geyin, qadın,
Sənə ağ yaraşır, ağ geyin, qadın.

Qızıl boyunbağı ağ sinən üstə,
Gör necə yaraşır, tax sinən üstə.
Bir şahlıq tacıdır - taxt sinən üstə,
Gah aç yaxalığı, gah geyin, qadın.
Sənə ağ yaraşır, ağ geyin, qadın!

Bir gün də dəyişik çıxdın qarşıma,
Daha nə qalmadı açdın başıma.
Bəlkə kimlərinsə yarar işinə,
Çəkdin sinəm üstə dağ-deyim, qadın!
Sənə ağ yaraşır, ağ geyin, qadın!
Mənli də, mənsiz də sağ geyin, qadın!..

## QORXURAM

Sənə zəng etməyə, düzü, qorxuram,
Qorxuram alışıb, yanam da bir gün.
Eşitsən şəhərdən çıxıb gedən var,
Biləsən, o gedən mənəm də bir gun.

Amma hara getdim, yanımda getdin,
Dumana  dönmədin, çənə dönmədin.
Elə bil ruhumda, canımda getdin
Bu necə atəşdi, niyə sönmədi?

Buluddan göz yaşı - leysan istədim,
Yağdıra yollara sən gəlməyəsən.
Könlümün qapısın döydün hər gecə:
- Dərdinəm, gəlmişəm, dincəlməyəsən.

Qorxuram, sevməkdən səni, qorxuram,
Çıxarım ürəkdən səni, qorxuram.
Qapat, zəng eləsəm, telefonu açma,
Sevib itirməkdən səni, qorxuram.

## GECƏLƏR

Gecələr qariban, qərib gecələr,
Qəlbinə ruhumu sərib gecələr.
Həsrətdən nəsibin dərib gecələr,
Bilə nə çəkirəm, bilə gecələr...

Düşüb uzaqlara səadətindən,
Ayrıldı eşqindən, məhəbbətindən.
Gündüzlər qovrulub yar həsrətindən,
Gözünün yaşını silə gecələr.

Ağlayar, sızlayar ömür boyunca,
Xəyal aləmində gəzər doyunca.
Şehli çəmənində gülləri qonça,
Səhərlər açıla sola gecələr.

Tökülüb daş- kəsək yolumun üstə,
Bir dəfə qonmadın qolumun üstə.
Görəsən gələrmi ölümün üstə,
Gündüz də gəlməsə, gələ gecələr.

## SƏN VƏ SƏNİ GÖZLƏYƏN

Şəhərin o başında sən,
Bu başında mən təkəm.
Sənin orda çəkdiyin
Qara sevda dərdini,
burda gərək mən çəkəm.
Sən orda ağlayanda
burda titrəyir tavan.
Mən qəm ilə munisəm,
sən də yalnız, natəvan.
Bizə tapılmaz oldu
"Qızıl orta" hələlik.
Bir gün əyilər belin
əlinə alıb çəlik,
bu tənha gecələri
toz basmış döngələrdə
axtararsan, gəzərsən.
Nə saçını darayıb,
nə üzünü bəzərsən.
Nə saçının ətrini
çəkib ciyərlərinə
qoxulamaq istəyən,
nə baxıb sifətinə
sevgi, ülfət diləyən
birisi olmayacaq.
Bir daş məzarın altda

yatacaqdır çox güman.
Bu qərib küçələrin,
o qaranlıq dalanın,
min cürə bəhanənin,
həqiqət anlamında
dediyin o yalanın
yiyəsi olmayacaq.
Əlindən yapışmağa
qalmayacaq xatirə.
Getməyə yerin də yox,
kimə, nəyə xətirə?...
Düşün, vaxtın var ikən,
sən və səni gözləyən...
varsa birisi bu gün...
Düşün, düşün, düşün....

## BƏNÖVŞƏ

Addım-addım axtarmışam hər yeri,
Yal-yamacda izləmişəm mən səni.
Kol dibində gizlənməyə gərək yox,
Ürəyimdə gizləmişəm mən səni,
Yaşıl yarpaq, muncuq gözlü bənövşə.

Ətrin ilə dolub bütün bağça-bağ,
Baş qaldırıb gözlərimə yaxşı bax.
Mənli keçən bu anların qalacaq,
Min çiçəkdən üzləmişəm mən səni,
Yaşıl yarpaq, muncuq gözlü bənövşə.

Qızlar istər saçlarına hörsünlər,
Sevənlərin köksü üstə sərsinlər.
Amma sən gəl, nazlan mənə, görsünlər
Eşq içində süsləmişəm mən səni,
Yaşıl yarpaq, muncuq gözlü bənövşə.

Muradoğlu, namərd kəsib yanımı,
Onu dərib yandırarlar canımı.
Gülzar eylə sübh açılan danımı,
Göz yaşımla gözləmişəm mən səni,
Yaşıl yarpaq, muncuq gözlü bənövşə.

*02.10.2017*

## MƏN SƏNİ UNUTMADIM

Nə səni unutdum,
nə saçlarının ətrini.
Nə payız axşamında
başımın üstünə
açdığın çətrini.
Omuz-omuza getdik,
içimizdə danışıb
əhd etdik,
peyman etdik.
Mən səni...
unutmadım...
Birinci çərşənbənin
bəxş etdiyi o gözəl,
rayihəli gecəni...
Mən necə sevdim səni...
Üzündəki gülüşü,
o şən bəxtiyarlığı...
Dodağın titrəyəndə
titrəyirdi varlığım...
Qəlbimə saldığın od,
o gecə... o şirin dad...
Mən səni unutmadım,
necə unudum səni?..
Qəlbim eşq dəyirmanı-
gözündəki sevgidi,

üzündəki təbəssüm
bu dəyirmanın dəni.
Mən səni unutmadım,
necə unudum səni?!.

*13.03.2017*

## QADIN

Göydən bir nur kimi gəlibdi yerə,
Mələkdi, huridi qadın deyirəm.
Əlçatmaz, ünyetməz yüksəkliklərə,
Şərəflə yazılıb adın deyirəm.

İşdə əməkçisən, evdə anasan,
Hər zaman bilirəm məndən yanasan.
Çiçək tək zərifsən, nazlı sonasan,
Ruhuma od verir odun deyirəm.

Dünyaya tən gəlir onun varlığı,
Var eşqi, əməli, könül yarlığı.
Kişinin qeyrəti, bəxtiyarlığı,
Qadındır, qadındır, qadın deyirəm!

## MƏNİ BAĞIŞLAMA

Mən sənin xətrinə dəydim, bilirəm,
İncitdim, sarsıtdım, əydim, bilirəm.
Kobuddum, dəliydim, nəydim, bilirəm,
Məni bağışlama, yox, bağışlama!

İnsanı çevirib robot düzəldən,
Dünyayla üz-üzə durdum əzəldən.
Canımı odlara yaxan gözəldən,
Mən əvf diləmirəm, yox, bağışlama!

Çarpayı üstündə quruca sinəm,
Gecələr göylərdən asılan mənəm.
Hicrindən vəslinə yol istəmirəm,
Məni bağışlama, yox, bağışlama!

Bir çiçək sevirsə tikan kolunu,
Mən nədən istədim kəsim yolunu.
Tanrı bağışlayar dəli-dolunu,
Amma sən, amma sən… sən bağışlama.

Alışdın bu səsə, küyə, bilmirəm?!
Mən sənə "bağışla" deyə bilmirəm.
Niyə bağışladın, niyə?! – bilmirəm,
Məni bağışlama, sən bağışlama…

## ŞAİR OLAN

Peyğəmbərdən sonra gələn şairsə,
Şeirlərin cəhrəsində əyirsə.
Ürəyindən keçənləri deyirsə,
Bu qismətdi, qəbul eylə, yetdimi?!

Şair oldun qapın Haqdan bağlanır,
Sinən üstü çalın-çarpaz dağlanır.
Bir sirr vardır, aralıqda saxlanır -
Sən demədin, eşitmədim, bitdimi?!

Bizdən əvvəl Şeyx Nizami gəlibdi,
Nəsimi də "Həq məndədir" deyibdi.
Füzulinin ahı göyü dəlibdir.
Sözdən başqa bir var qoyub getdimi?!

Biz də bir gün bu dünyadan gedərik,
Danışarlar, nə yetirrik, nə dərrik.
İmkan olsa, salam-əleyk göndərrik,
O da bəsmiş, Tanrım, vədəm çatdımı?!

## BU CANIYANMIŞ

Bilmirəm dəlidi dəlilik eylər,
Ya göydən gəlibdi vəlilik eylər.
Hərdən rəhmə gələr əlilik eylər,
Neynəyək, gözəldi bu canıyanmış.

Yol gedər yolları nazı öldürər.
Gəlini öldürər, qızı öldürər.
Çəkər qılıncını bizi öldürər,
Neynəyək, gözəldi bu canıyanmış..

Yüzünü yandırar, özü də yanar,
Eşqindən alışar, sözü də yanar.
Vallah belə getsə yer üzü yanar,
Neynəyək, gözəldi bu canıyanmış.

## MƏNİ BAĞIŞLARMISAN

Bu dünyanın şeytanı,
Bu dünyanın cini var.
Hər adamın içində
Bir qaranlıq tini var.
Bəzən işıqdan qaçıb
Azdığım da o yoldu.
Qarşını görməyəndə
Başıma əngəl oldu.
İndi günah gəzmənin
Zamanı varmı görən?
Məni bağışlarmısan
Ayağın altda ölsəm.
Ədalətin vardısa -
Qəlbin də adil gərək.
Mən bir xatalı qulam,
Sinəmdə sevən ürək…

*20.02.2017*

## UNUTMADIM

Bu sevdanın yollarında
Nələr olmadı-olmadı.
Fələk mənə zülm elədi,
Səbrim qalmadı-qalmadı.

Gözüm dolub qan-yaş ilə
Demə sözümü tutmadım.
Vallah, vəfasız deyiləm
Mən səni heç unutmadım.

Ömür qısa, həyat gözəl,
Əngəlləri aş, bizə gəl.
Vüsalına yetir məni,
Qapıdadır zalım əcəl.

Sən bilirsən, mən bilirəm...
Daha dərdindən ölürəm.
Həsrət bizi kül eylədi,
Ya sən dur gəl, ya gəlirəm.

Daşa dəymiş məhəbbətim,
Sən gəlməsən mən gəlirəm.

*04.05.2017*

## GÖRDÜNMÜ - GÖRDÜM

Allaha xəyanət eyləyənləri,
Şeytan qucağında gördünmü?
- Gördüm.
Yazda cücərməyən püfə dənləri,
Anbar bucağında gördünmü?
- Gördüm.

Ayaqlar altında çürük qov kimi.
Gələr qulağına səda-sov kimi.
Nəfsinə yananı bir alov kimi
Düşmən ocağında gördünmü?
- Gördüm.

Yazı yazanların yazılarını,
Nazirin yanında tazılarını.
Dünyadan narazı, razılarını,
Oğrunu, əyrini, düzünü gördüm.

Şəhərdə banlayır cır Hacıbəla,
Guya ki hər şeyi gətirib hala.
Nə səbəb olubdu bu qalmaqala,
Əyibdi qaşını, gözünü gördüm.

Dəyişib adını soğan satanlar,
Soyuqdan süd əmir çöldə yatanlar.
Çoxalıb cib qırxan, dosta atanlar,
Gördüm beləsinin yüzünü, gördüm.

Tirboyun adamlar, yekəqarınlar,
Məzlumun, yetimin dərdinmi anlar!?
Yeyər - gödən şişər, şişər - harınlar,
Çaşdırar cümləsin, sözünü gördüm.

İndi bu dünyanı şər qarışdırır,
Rüzgar var, ya yoxdur – pər qarışdırır.
O əsir torpaqda hər qarış durur,
Gözləyir yolunu, izini gördüm.

## YAĞIŞ İSTƏYİRƏM

Yağış istəyirəm qəlbimə yağa,
Nov susuz qalıbdı, dəyirman dənsiz.
Bu gecə mən yata bilmirəm, Allah,
Bu gecə bir qadın ağlayır mənsiz.

Ağlayır, ağlamaq çarə deyil ki...
Dualar günahlar önündə aciz.
Vaxtında sözünü deyə bilməyən,
Günahsız günahkar bəndələrik biz.

Ağlama, canımdan can çıxır mənim,
O sənin əməlin, bu mənim işim.
Qara gözlərini sevmişdim sənin,
Qara günlərini istəməmişdim.

Elə bilirdim ki, sən unutmusan,
Mən də unutmuşam, dəmirəm, daşam.
Qəlbimdə bir isti yuva qurmusan,
Bəlkə də sevmisən, mən yanılmışam.

Yağış istəyirəm ruhuma yağa,
Göz yaşı axmaya yanaqlarından.
Bir cığır açıla gələn sabaha,
Bir busə, o çiçək dodaqlarında...

## TƏNDƏSƏN

Bir sahildə dayanmışıq üz-üzə,
Sahil mənim, dəniz sənin, mən sənin.
Qıya baxdın yerbəyerdən dağladın,
Dağlar mənim, duman sənin, çən sənin.
Dəniz mənim, sahil sənin mən sənin.

Yel əsdikcə dağıdır saçlarını,
Tellər öpür çiçək üzündən sənin.
Ətir gəlir çiçək telindən sənin...
Sinəm üstə çəkmə qəmi qüssəni,
Başımızın üstdə seyrək buludlar -
Bulud mənim, duman sənin, çən sənin.

Biz ki birik, mən səndəyəm, məndə sən,
Xəyalımda, ürəyimdə, təndəsən.
Qıya baxdın yerbəyerdən dağladın,
Neyləmişdim  məni saldın bəndə sən.

Bulud gələr gözlərinə, nəm olar,
İki ürək bir könüldə çəm ola.
Ümid ilə baxdım yar gələn yola,
Dedim gələr, dərdimə həmdəm olar.

Zalım qızı məni saldın bəndə sən.
Mələkmisən, hurimisən, bəndə, sən?

Necə dözüm sən çəkdiyin dağlara,
Muradoğlun qoyub gedirsən hara?!
Bir vədə ver, varaq gedək ikimiz,
Bənövşələr boy verən yaylaqlara.
Ayaq saxla, bir geriyə dön də sən,
Niyə məni öldürürsən bəndə, sən?!

## SÖZÜMƏ BAXMA

Sənin əllərinin möcüzəsi var,
Üzündə gülüşün can dərmanıdır.
Səni Məcnun sevsə divanə olar,
Əgər Kərəm görsə odlanmalıdır.

Kəsilə-kəsilə qaldım içimdə,
Qəlbimi açmağa yol vermir yaşım.
Görəsən sığarmı bir çərçivəyə,
Sənin qızıl saçın, mənim ağ başım.

Nə olar dilinə acı qat bir az,
Yerə bax, göyə bax, üzümə baxma.
Qapının dalında çox saxlat bir az,
Növbəyə, cərgəyə, düzümə baxma.

Mən baxma desəm də, bax, oğrun-oğrun.
Məhəbbət süzülür baxışlarından.
Şairin sözü çaş, xəyalı yorğun,
Sədəqə istəyir alqışlarından.
Yerə bax, göyə bax, üzümə baxma,
Desəm də, mənə bax, sözümə baxma!
Hərdən özümə bax, sözümə baxma!

*14.12.2016.*

## BU DA YENI İL

Yeni bir il də gəldi...
Bir il də ötdü getdi.
Bir pəncərə açdısa,
Min qapı örtdü getdi.
Saçlarıma dən düşmür,
Demək, ağarıb tamam.
Gülşən güllə ötüşmür,
Mən gülzar tapmalıyam.
Nəyə sevinirik bəs?
Gələn borandı, qardı.
Qarda istilik yoxdu,
Qarda soyuqluq vardı.
Mən soyuq baxışların,
Dadını çox görmüşəm,
Odunu çox görmüşəm.
Üşüyəndə sevinən,
Dırnaqdakı “dostları”,
Yadını çox görmüşəm.
Belәmi olmalıdır,
Deyə bilmirəm düzü.
Bəzən dəyişik salıb
Gecə ilə gündüzü,
Gündüzlər mürgü vurub,
Gecələr oyanmışıq.
Dostun qəlbini qırıb,

Kimə arxalanmışıq?
Deyə bilmirəm axı,
Sənə sevnc gətirən
Mənə qəm gətiribdi.
Əlimdən gənc liyimi
Alıbdı, itiribdi.
Yeni bir il də gəldi...
Bir il də ötdü getdi.
Sevincimin üzündən,
Gözündən öpdü getdi.
Geri qayıdan deyil,
Nə o sevinc, nə o il...

*01.01.2014*

## TOĞRULAYIN BİR ÇİÇƏK

***Muxtar İmanovun nəvəsi Toğrulayın dünyaya gəlişi münasibətilə***

Hər insanın taleyində bir yazı,
Hər yazının pozulmayan nəqşi var.
Hər insan da taleyindən narazı,
Taleyinsə qədəri var, bəxşi var.

Bəlkə qədər-qismətidir fələyin,
Şükr eləyək bəxşişini görəndə.
Ələnərik dar gözündən ələyin,
Nə zamansa qismətimiz gələndə.

Dəyirmandı daş üyüdər bu dünya.
Quru kəsər, yaş üyüdər bu dünya.
Hərdən vaxtsız çaş üyüdər bu dünya,
Kaş sınaydı onun pəri gələndə.

Toğrulu da alıb eldən aparıb,
Dən düşməmiş qara teldən aparıb.
Ağızdan, dodaqdan, dildən aparıb,
Toğrulayı gətiribdi gələndə.

Yanaqları al-əlvandı - çiyələk,
Boylanır Günəşə yaşıl fidan tək.
Muxtar baba, Toğrulayın bir çicək,
Ellər gülür, daha sevin, gül sən də.

***

Tərs işlər əlindən,
Dərd çəkir bəşər.
Qaldıq arasında xeyirlə şərin.
Kişilər öpüşür qadınlar baxır.
Qadınlar öpüşür baxır kişilər,
Səhv düşüb yerləri bu öpüşlərin.

*10.12.2015*

## ƏVƏZİNDƏ

Mən sənə sevgimi, könlümü verdim,
Sən mənə dərd verdin, dərd - əvəzində.
Mən səni hər yerdə əziz eylədim,
Sən məni pərt etdin, pərt - əvəzində.

Çilik-çilik etdin məhəbbətimi,
Sən satdın sərvətə səadətini.
Necə bağışlayım xəyanətini?!
Nə qədər mərd olsam, mərd - əvəzində.

Bir işə yaramır göz qanunları,
Lap elə tapdala, poz qanunları.
Nə cürə istəsən yoz qanunları,
Taleyin şərti var, şərt - əvəzində.

İndi peşmanlığın yeri yox daha,
Nə bəndəyə xoşdu, nə də Allaha.
Döysən də başına, yırtsan da yaxa,
Sayılar cəhd kimi, cəhd - əvəzində.

*03.11. 2015*

## GÖZƏLDİ

Yansan da atəşin, odun içində,
Doğmanın içində, yadın içində.
Bu qədər ağlama, qadın, içində,
Bir boylan dünyaya, necə gözəldi.

Günlər kərpic-kərpic ömürdən düşər,
Ağlama, cütləşib ikidən düşər.
Şeh ki var, gül üstə gecədən düşər,
Şehi gözəldirsə, gecə gözəldi.

Deyirlər ağlamaz özü yıxılan,
Günahkar küsənmi, küsənmi uman?
Quyuya daş atdı bir əqli- nadan,
Yüz aqil yığışa çəkə, gözəldi.

Taledi tərəzi gözünü əyən,
Ömrünə qarğıyan, dizinə döyən.
Yenə bir ürək var sevən, sevilən,
Bu da bir qismətdi, məncə gözəldi.

## YAŞADIM

Dərdlərimin Araz oldu yarası,
Yarı Vətən, yarı Vətən parası.
Daha bunun salamatdı harası,
Ürəyimdə qara yara yaşadım.

Süfrə açdım çörəyimi yeyənlər,
Oldu mənə böhtan, qarğış deyənlər.
Xəyanətdə ya "lap"lardı, ya "ən"lər,
"Lap-ənləri" qıra-qıra yaşadım.

Bir gün düşdüm məhəbbətin qoynuna,
Rast gəldim min kələyinə, oynuna.
Boyunduruq saldım günün boynuna,
Çəkə-çəkə ora-bura yaşadım.

Bu ömürdü saçlarıma saldı dən,
Bir zirvədi, hər addımı duman, çən.
Bir könüldü həm sevən, həm sevdirən,
Həmdəm oldum dosta, yara yaşadım.

## ƏZİZİM

Könlümdə üç sevgili var, bilirsən,
Biri anam, biri Vətən, biri sən.
Anam köçmüş,Vətən cansız, diri sən,
Quc boynumu, çək sığalın, əzizim.

Axşam olcaq açarsan söz boxçasın,
Sinən yazlıq çiçəklərin bağçası.
Ala gözlər qəmli-qəmli baxmasın,
Bu sənmisən, ya xəyalın, əzizim?!

Bu da mənəm, eşq yolunda didərgin,
Gəldi-gedər, vəfa etməz ömür-gün.
Ya mehman et vətənsizi, ya sürgün,
Ya mənimlə böl mahalın, əzizim.

*17.11.2015*

## SƏN MƏNİM TALEYİMDƏ

Sən mənim taleyimdə
Doğan Günəş kimisən,
Qarşımdakı buzları
Ərit, başına dönüm.
Qəlbimin ağrısıdır,
Gözlərimdən axan yaş.
Gözlərimin yaşını
Qurut, başına dönüm.

Gündüzlər düşüncəli,
Xəyallarım gecəlik.
Mən kamansız bir ovçu,
Sən xınalı bir kəklik.
Bir gün də bu yerlərdən
Çıxıb gedə bilərik,
Sən mənim əllərimdən
Bərk tut, başına dönüm.

Hər anında bir ümid,
Hər addımın uğurdu.
Mən bir ocaq qalayım,
Sən də xəmir yoğur, dur...
Bu dünyanın sualı
Yordu,
bizi çox yordu,

Hərdən də bu dünyanı
Unut, başına dönüm.

Dünya dünyayla qalsın,
Bizim öz dünyamız var.
Taleyin özüylə də,
Cəngimiz, davamız var.
Qəlbimizin oduyla
Qızınan yuvamız var,
O vətəndi,
o yurddu,
O yurd, başına dönüm.

Dərd gələr batman-batman,
Dərdi unudammasan.
Mənə gülüş bəxş elə,
Qarşılığı sevgidir.
Dərd özü də gülüşlə
Yox olub gedərgidir.
Ovut dərdimi, ovut,
Ovut, başına dönüm…

## BU DÜNYA DA GÖZƏLDİ

O dünyada nələr vardı - bilmirəm,
Yerlər vardı, göylər vardı - bilmirəm.
Çaylar vardı, sular vardı – bilmirəm,
Ya Rəb, elə bu dünya da gözəldi!

Mələklər var - gözəllərə taydısa,
Səhər günəş, gecə doğan aydısa,
Dar günümü xoş ömrümə saydısa,
Ya Rəb, elə bu dünya da gözəldi!

Qışı gözəl, yayı gözəl, yaz gözəl,
Bal arıda, bu qızlarda naz gözəl.
Nə yazırsan taleyimə yaz gözəl,
Ya Rəb, elə bu dünya da gözəldi!

Muradoğlu dərgahına duaçı,
Yaratdığın tikanlar da gül açır.
Şükür verdin əyal, övlad, alaçıq,
Ya Rəb, elə bu dünya da gözəldi!

## ÇOX SEV

Mən səni nə qədər sevə bilirəm,
Sən məni məndən də bir az da çox sev.
Nə vaxtdır ömrümdən qış gəlib keçir,
Yaz sevgi fəslidir – bu yaz da çox sev.

Elə sev, hamıda həsəd yaratsın,
Qursun bir təntənə, büsat yaratsın.
Bütün sevgiləri birdən oyatsın,
Deməyim namərdmiş bu qız da, çox sev.

Son bahar -  yarpaqlar, güllər qızıldı.
Bir ümid közüldü, bir yol cızıldı.
Bu da bir taledi – belə yazıldı.
Baharda sevmədin, payızda çox sev.

*24.09.2018*

## DURNAM

Qatarından yaşına,
Gələ dağlar başına.
Mən sevəm, durnam sevə,
Kimsənin nə işinə?

Durnam, ucadır boyun,
Qürbətdən gəlir soyun.
Təşnələr sudan doymaz,
Mən səndən necə doyum?

Ağ durnam, ala durnam,
Gözləri lala durnam.
Səni görəndən, könlüm,
Eşqə mübtəla, durnam.

Zülfün pərişanlığı
Çəkilən şanədəndir.
Mənim pərişanlığım
Sən vuran tənədəndir.

Dilim susar lal olar,
Ürəyim xal-xal olar.
Gözlərimiz danışar,
Aləm xəbərdar olar.

Gəl belə etmə, durnam.
Bir yana getmə, durnam.
Bir deyək, bir oxuyaq,
Təklikdə ötmə, durnam.

## SƏN OLACAQSAN

Daha səbr etməyə səbrim qalmayıb,
Gedirəm, peşiman sən olacaqsan.
Ardınca gəzmişəm bir ömür boyu,
Ardımca boylanan sən olacaqsan.

Qədrini bilmədin qədirşünasın,
Vaxt gələr bir gün də tutarsan yasın.
Gizlə hisslərini görən olmasın,
Həm qanan, həm yanan sən olacaqsan.

Dəyər verənmədin dəyərsizlərə,
Beçənin yerində oturtdun fərə.
Meydanı buraxdın sərçəciklərə...
Sonunda bil yaman sən olacaqsan...

*23.09.2018*

## GÖRDÜYÜM O QIZLAR

Sizi tanımadım mən ilk baxışda,
Keçib o zamandan bahar da, qış da.
Çıxıb yaddaşımdan olan-olmuşlar
Gördüyüm o qızlar nənədi indi.

Gedib gənclik çağı,
odu qalmayıb,
Şirin xəyalların dadı qalmayıb.
Yadımda nə qalıb adı qalmayıb...
Gördüyüm o qızlar nənədi indi.

Kiminin alnını həyat şumlayıb,
Kiminin üzündə kədər mumlayıb.
Gözə pərdə çəkib, dili quylayıb...
Gördüyüm o qızlar nənədi indi.

O şaqraq gülüşlər səslənmir daha,
Min arzu, min istək bəslənmir daha,
Səhər sübh olanda süslənmir daha...
Gördüyüm o qızlar nənədi indi.

Şəfəq saçardılar dərsə gələndə,
Oğlanlar durarqı dalanda, tində.
Min ümid, arzuyla gözlərdim mən də...
Gördüyüm o qızlar nənədi indi.

Zaman nə tez keçdi, nə tez yad oldu?
Hər qız bir oğlana bir gün ad oldu.
Bir elə, obaya gül-sovqat oldu...
Gördüyüm o qızlar nənədi indi.

O nazik əllərin istisi gedib,
Eşqin, məhəbbətin tüstüsü gedib.
Gileyin umusu, küsdüsü gedib,
Gördüyüm o qızlar nənədi indi.

Mən də qocalmışam ağarıb başım,
Bir az da pozulub huşum, yaddaşım.
Bizdə də nənə var – həyat yoldaşım...
Gördüyüm o qızlar nənədi indi.

*16.09.2018*

## SƏNSİZ DARIXMIRAM

Sənsiz darıxmıram
Xəzərin sahilində.
Saçlarımı oxşayır
Dənizdən gələn hava
Bir də xəyal sevgilim
Ruhumla pıçıldaşır.
Sahil qaynayıb daşır,
Yanımdan ötüb gedən
Mavi gözlü qızların
Üzünə də baxmıram.
Mən sənsiz darıxmıram.

Könlüm xəyal sevgimin
Məst olub qucağında.
Hər kəs öz ocağında.
Beləcə xoşdu mənə…
Bəlkə elə sənə də…
Bir göyərçin uçursa,
Qonursa pəncərənə,
Sən də xatırlanırsan.
Vüsalın olmasa da,
Ara-bərə izləri
Var ömrümün bu yazda.
Bir az ümid yeridi,
Təsəllidi bir az da…

Necə istəsən düşün,
Daha keçdi o günlər,
Qəlbimi od-alovla
Yandırmıram,
yaxmıram,
Mən sənsiz darıxmıram.

O sərxoş gözlərinin
Alovu sönmüş kimi.
Əllərində qalmayıb
Bir istilik, hərarət.
Məhəbbətin yerini
Çoxdan tutub xəyanət.
Bu da belə taledi,
Başına da çaxmıram,
Mən sənsiz darıxmıram.

Sən Leyli deyilsən,
Zöhrə deyilsən,
Yaralı könlümə
Töhfə deyilsən.
Özündən uzağa
Düşdün,
heyif sən…
Mən sənsiz darıxmıram…

Vəfalı deyilsən,
Darıxa bilim ,

Yoluma dağ çıxsa,
Dağ yıxa bilim,
Uşaq tək önündə
Karıxa bilim...
Əvvəl karıxardım,
Çox darıxardım.
Daha darıxmıram,
Heç darıxmıram…

## ÖYRƏT

Sən mənə, gözəlim, gülməyi öyrət,
Qara gözlərini sevməyi öyrət.
Kamına yetmədim bir ömür boyu,
Barı eşq yolunda ölməyi öyrət.

Yapış əllərimdən ürəyim əsir,
Küləklər dağıdır ağ saçlarımı.
Vüsalın yubanır, hicran tələsir,
Çən alır ömrümün yamaclarını.

Nə üzə bilirəm eşq dəryasında
Nə gedir illərdir sevda başımdan
Sənin əsirinəm qəm adasında,
Qapına rizaya gəlməyi öyrət.

## SANIRSAN

***Allah Aşıq Ələsgərə rəhmət eləsin. Bizdən qabaq bu movzuda qoşmasını deyibdi, yeri gəldi, biz də deyək.***

Daha qarımısan, huşun dağılıb,
Gərdanın pozulub, işin dağılıb,
Saçların ağarıb, dişin dağılıb,
Olmaya - özünü qızmı sanırsan?!

Bir az səmimisən, bir az hiyləgər,
Məkrli işlərdən əl götür, dincəl,
Yolun o yanlıqdır, gözləyir əcəl,
Əllini ötmüsən, azmı sanırsan?

Fələyin çərxi də geriyə çönür,
Bir şam yandırırsan, yanmamış sönür.
Köksündə nəyin var kisəyə dönür,
Qoynunu baharmı, yazmı sanırsan?

Ördəklər yan gedir göldə çimməndə,
Fərələr dolanır çöldə, çəməndə.
Dost olmaq yaxşıdır,
gəl qoşul sən də,
Bir yoluq cücən var, qazmı sanırsan?

Hərdənbir başını bağlayacaqsan,
Guya ki, xətirdir saxlayacaqsan?
Bir söz də söyləsəm ağlayacaqsan,
Bunu da bir işvə, nazmı sanırsan?

Yaxşını, yamanı, ortanı billəm,
Bir köynək ziyana yırtanı billəm.
Sənin də yolunu yortanı billəm...
Sən məni ağıldan dazmı sanırsan?!.

## BİR AZ DA...

Sənə gələn yollar çöküb,
Qalan izdimi, yarıqdımı?
Mən olmayan bu günlərdə
Şəkillərin darıxdımı?
Darıxdımı,
ayağına daş bağlayıb
quyladığın şəkər sözlər?
bir tədbirdə qarşılaşdıq.
danışmaya-danışmaya
danışırdı rentgen gözlər.
saçlarını boyamış
"kişiciklər" gördüm orda,
Bir az sıxıldım,
Bir az qaldım darda.
Düzü, haqq da verdim sənə.
Düşünsənə...
Heç olmasa
sənin üzünün rəngi ağdı,
bir az da bozarardı qızanda.
Bir az da mən darıxdım,
Tək qaldığım o anda...

30.06.2019

## BİZ HƏLƏ ÖLMÜRÜK...

Qarabağda yağıdı,
Xocalı göz dağıdı.
Şuşa qəm oylağıdı,
Biz niyə ölmürük, Allah!..

Zəngəzurdan əsən külək,
Xankəndində dursun gərək.
İrəvan da getdi gerçək –
Biz niyə ölmürük, Allah!..

Ağzımızdan tikə getdi,
Park getdi, küçə getdi.
Öldü – bir ölkə getdi,
Biz niyə ölmürük, Allah!..

Ölmürüksə dirilt bizi,
Laçın boyu yürüt bizi.
Dədə Ələsgər gözləyir,
O torpaqda göyərt bizi –
Biz hələ ölmürük, Allah!

30.06.2019

## GÖRÜRƏM

Narahat yatıram gecələrimi
Yuxumda əjdaha, ilan görürəm.
Gəzirəm başabaş küçələrini,
Gəzirəm şəhəri  - yalan görürəm.

Sən də bir yalansan, adi, boz rəngdə.
Susubdu telefon, gəlmir bir zəng də.
Bu da bir taledi - əsən küləkdə,
Əlləri yaxanda qalan görürəm.

O sənsən üz tutub göyə yalvaran,
Kəsilib ülfətin, qırılıb aran.
Sevda yollarında suçlu, nigaran…
Qurduğun kompas var, plan görürəm.

Sevgi varsa, hiss hiss ilə hiss olar,
Qatar gedib, gördüklərin bəs olar.
Dağ başında duman olar, sis olar,
Ömür dağlarında duman görürəm.

Nə ağlarsan biyabanda, ay könül,
Zaman keçir, vədə yetir, onu bil.
Hər sevgili yar dediyin yar deyil,
Bağrının başını al-qan görürəm.
Canı qurban deyən bir can görürəm.

## DEYƏR

Özünü unudub özündən qaçan,
Sözünü tutmayıb sözündən qaçan,
Bir iynə işığın gözündən qaçan,
Günəşə kor deyər, Aya kor deyər.

Yumar gözlərini çiçəyi görməz,
Ağaran saçını, birçəyi görməz,
Görər yüz əyrini, gerçəyi görməz.
Bu gözəl dünyaya, dünya-gor deyər.

Muradoğlu, ayaq tutdu yalanlar,
Yalançı da evi yananda anlar.
Bir beçə ki, qonşu hasarda banlar,
Nə günlərə qaldı dünya, gör deyər.

2016

## DAĞLARIN

Tala yamaclarda otlar saraldı,
Yanmadı ocağı, közü dağların.
Səs-küylü yaylaqlar viranə qaldı,
Niyə döndü bizdən üzü dağların?

Ayrılıq dərd olub çıxıbdır dizə,
Göz yaşı mirasdır Arazdan bizə.
O taydan, bu taydan durub üz-üzə,
Ağlayır dərdimə gözü dağların.

Mərdliyim, qeyrətim kökdə, soydadı,
Mərd kəsməz yıxdığın, qədim qaydadı.
Qəlbimdə dağım var, dünya boydadı,
Heç olmaz pərsəngi yüzü dağların.

Uğrunda döyüşə bilməsən əgər,
Haqqından inciyər, xətrinə dəyər.
Baş ola bilməyən başına döyər,
Ölər qucağında özü dağların.

Daşlarda kəkliyin xınası qaldı,
Laçında Soltan bəy sədası qaldı,
Arxada bir Şuşa qalası qaldı,
Sınsa itə bilər izi dağların.

Qoyub yurd yerlərin köçəsi olduq,
Düşmən güc eylədi qaçası olduq.
Gör neçə birliyin parçası olduq,
Ruhu bağışlarmı bizi dağların?!.

## SƏNİ TANIYIRAM

Səni tanıyıram mən
Üzündəki gülüşdən,
Gülüşündə dərdlərin, -
Dərdlərin ağ çiçəklər.
Hərdən lətif gül kimi,
Hərdən kobud, lap kobud,
Kobud-kobud erkəklər.
Səni tanıyıram mən -
Bulud kimi dolmusan.
Yağış kimi yağmısan,
Hərdən küsüb hamıdan
Tərki-dünya olursan,
Hərdən açıb gül kimi,
Hərdən xəzana düşüb
Saralırsan, solursan.
Səni tanıyıram mən
Çox halbahal olursan,
Hərdən də ağlayırsan.
Bir sinəni isidib,
Min sinə dağlayırsan.
Bir kimsəni yazmadın,
Sən özünü yazırsan.
Hərdən saray tikirsən,
Hərdən məzar qazırsan.
Səni tanıyıram mən,

Üzündəki nurunu
Görənlər sevəcəklər.
Gözlərinin dibində
O gizlənən dərdini,
Qəmi görməyəcəklər.
Səni tanıyıram mən -
Üzündəki gülüşdən,
Gülüşün qəm çiçəklər...

26.03.19

## DƏNİZ, SAHİL, MƏN

Dəniz sahilində təkəm, tənhayam,
Qışdır, bu yerlərə yolu düşən yox.
Uçur qağayılar sahil boyunca,
İçində mənim tək bir üşüyən yox.

Əynimdə arxalıq, başımda papaq,
Soyuqmu üşüdür görəsən məni?!
Mən nədən unuda bilmirəm axı
Sevgimə yad olan o biganəni.

Günahkar sahilmi, yoxsa mənəmmi?
Dəniz ayağıma uzanıb gəlir.
Gəlmir xəyalıma, ruhuma dinclik,
Dəniz sahilində daşlar dincəlir.

Qayanın sevgisi, daşın sevgisi
Bəlkə insanlara görk olmalıydı.
Hər ümid, hər arzu, hər xəyal belə
Hər eşqin başında börk olmalıydı.

Xəyallar, arzular gerçəkləşmədi,
Hər sevgi içində bir təlatüm var.
Üşüdüm sahildə çırpındı dəniz,
Ayrılıq nidası yazdı dalğalar.

Surətin asıldı xəyallarımdan,
Buzlayan baxışlar od aldı getdi.
Nə sən dəniz oldun, nə mən daş sahil,
Sahil də, dəniz də yad oldu getdi.

22.03.19



## GÖY ÜZÜNDƏKİ MƏLƏYƏ MƏKTUB

Qaldım qucağında yad fikirlərin,
Məni bu bəladan qurtar, darıxdım.
Ya en gəl yanıma, Göyüzündəki,
Ya məni özünlə apar, darıxdım.

Sən ordan hər şeyi görə bilirsən,
Bədənim pərçimdi yerə bilirsən.
Bir qızıl külçəyəm belə, bilirsən?
Bir naşı zərgərdə batar, darıxdım.

Hurisən, mələksən, ay işığısan,
Günəşdən, ulduzdan ya aşağısan.
Ya məni uca tut, ya aşağı san,
Aç bu zəncirləri qopar, darıxdım.

Çörəyi verməyə çörəkçi gərək,
Sevdaya çatmağa  ürəkçi gərək.
Bir çərək altuna çərəkçi gərək,
Bir çərçi heç nəyə satar, darıxdım.

Nəfsimi çəkmişəm çarmıxa, təki
Qismətim olurmu bir daş, bir səki?!.
Ya en gəl yanıma, Göyüzündəki,
Ya məni özünlə apar, darıxdım.

## DƏNİZ BİZİMDİR

Sən mənim könlümdəki
İstədiyim adamsan.
Mən sənə səndən uzaq
Ögeyəmsə, yadamsa,
Sənə düzünü deyim,
Bu şəhər bizim deyil.

Bizimki dənizdi,
Sahildi, daşdı.
O yer ki,
o yerdə
Sevgi başdı.
Bu şəhər bizim deyil.

Şəhər bizi dışladı,
Bu dəniz bizim olsun.
Sahil boyu qayalar,
Bizə kölgəniz yetər,
Kölgəniz bizim olsun.

Bizim oldu bu sahil,
bu qayalar, bu dəniz.
Biz azad bəndələrik,
Varsa günahlarımız
Onu da rəndələrik.

Dalğaların qoynunda
Qoşulub o coşquya,
Günəş əlindən tuta,
Surətini oxşaya.
Saçlarını daraya
Ləpələrin qırmancı.
Üzündə donub qala
O sevgidən bir damcı,
Bu da bəs edər bəlkə.
Təki bu sevgimizə
Düşməsin kölgə.

Mən sənə çox yaxınam.
Bizimkidir bu dəniz.
Sənə bir sir açıram,
Dəniz bizimkidirsə,
Bu şəhər bizim deyil,
Bu şəhər bizim deyil.

02.03.2019

## DÜŞÜNDÜNMÜ HEÇ

Min yerə yozursan bir sözü-sovu,
Sənə sual verdim, cavabın nədi?
Mənim sözlərimin odu, alovu
Sənin buzlarını əridəmmədi.

Danışdın –buz qopdu dodaqlarından,
Üşüdüm, qar yağdı könül bağçama.
Sən getdin geriyə dönüb baxmadan,
Mən sənə əlimi uzatdım amma.

Əlimi tutmadın, şikayət etdin,
Ayrılıq adına üzü Allaha.
Özündə günahı görməyən adam
Boşuna şikayət edirsən daha.

Allah da bezibdi sənin əlindən,
Bəndəsi nə qədər günahkar imiş.
Naqislik olduqca əməllərində
Onun da on misli günah var imiş.

Qayıt öz özünə, suçunu anla,
Qayıt bircə yol da özünü danla.
Sən nəyi itirdin ötən zamanla.
Düşündünmü heç?!.

07.02.2019

## GEDƏK

Sevdalandıq sirdaş ilə,
Öyündük dost, yoldaş ilə.
Oynayardıq beşdaş ilə -
Bir o yana, bir bu yana.

Beşdaş deyil-qaranquşdu,
Üçü pərvazlanıb uçdu.
Cüt qalan da ayrı düşdü –
Bir o yana, bir bu yana.

Keçən gündü, ötən aydı,
Qismət adlı Haqdan paydı.
Nə saydısa fələk saydı –
Bir o yana, bir bu yana.

Arzumuzu içib gedək,
Bir xatirə əkib gedək.
Köçümüzü çəkib gedək –
Sən o yana, mən bu yana.

Mərdəkan
31. 01.2019

## MƏNİM

Getmir xəyalımdan surətin bir an,
Keçir ilmə-ilmə qatımdan mənim.
Dilimin əzbəri olubdur adın,
Adın əziz olub adımdan mənim.

O böyük sevgini sən bilə-bilə,
Anbaan, günbəgün versən də yelə,
Uzaqdan olsa da ağ əllərinlə
İstilik alırsan odumdan mənim...

...Gözlərim görməyən yaxın da uzaq,
İsti ocağıma gətirmə sazaq.
Başlanğıc nöqtə var, bir son duracaq -
Çalış çıxmayasan yadımdan mənim.

2018

## BU GÜN

Sənə deyəcəyəm öz dərdlərimi,
Nimçəyə, boşqaba düz dərdlərimi.
Hərdən əlli-əlli süz dərdlərimi
Qoy içim məst olum, unudum bu gün.

Unudum keçmişi, unuda bilsəm,
Silib göz yaşını quruda bilsəm.
Qəlbindən nə keçir – onu da bilsəm,
Anlayıb fikrimi yürüdüm bu gün.

Yürüdüm fikrində var  gördüyümü,
Bu geniş dünyanı dar gördüyümü.
Mən gerçək saymadım hər gördüyümü,
Çürük fikirləri çürüdüm bu gün.

Çürüdük riyalar qazamatında,
Hər kəs aşkar olur əsli-zatında.
Nə varsa kökündə, varidatında –
Sanayıb, ələyib, üyüdüm bu gün.

08.01.2019

# *ORDAN - BURDAN*

## MANAT

Manat getdi göy Xəzərdə üzməyə,
Dollar qalxdı göydən onu süzməyə.
Biz də gedək arxasınca gəzməyə,
Hamı gəzir, lap qalmışam mat, manat,
Rubl yatır, lirə yatır, yat manat!

Oyaq qalan funt-sterlinq, avro da,
Yaxşı bilir pişik vardı torbada.
Vay xəbəri kim verəcək arada?!
Bir köynəyin qaldı, onu sat, manat,
Tümən yatır, dinar yatır, yat manat!

Kim qurubdu, kim oynayır oyunu?
Canavara yem eylədi qoyunu.
Yorğan çatmır örtə sənin boyunu,
Heç olmasa ayıbını ört, manat,
Aləm yatır, hamı yatır, yat manat!

Dünyanın o başında Çin-əjdaha,
Əfqan, qazax, kore, yapon - kim daha,
Çaş-baş qalıb, ümidi yox sabaha.
Onları da öz cərgənə qat manat!
Sən də qıvrıl, hamı yatır, yat manat!

## A MİRZƏ

*Qəbrin nurla dolsun, Mirzə Ələkbər Sabir!*

Yenə fikrə gedibsən dərd əlindən, a Mirzə.
Bir az fazla deyilmi qədərindən, a Mirzə,
Qananlara pay düşür kədərindən, a Mirzə.
Hər gördüyün adamdı, hər adam insan deyil,
İnsanlıq ayrı şeydi, insanlıq asan deyil.

Boynu yoğun tir kimi, cəmdəyi şişmanlılar,
Əqli, huşu bir qədər fərqli olan canlılar.
Bakılı, Naxçıvanlı, Gəncəli, Şirvanlılar
Deyib milləti böldük, biz də belə canlarıq,
Millət nədi, a Mirzə, biz ki müsəlmanlarıq.

Başımıza min zopa dəyməyincə durmadıq,
Bizi vuran kimsəyə bir çırtma da vurmadıq.
Min cür bina tikdirdik, bir cəm evi qurmadıq,
Ağıllı pulsuzları danladıqca danlarıq,
Qeyrət nədi, a Mirzə, onu çətin anlarıq.

Mirzə, burax başına, fəhlə elə fəhlədi,
Ömrü boyu yük altda axıtdı tər, ləhlədi.
Günlərimiz xoş keçir, çıtmıqla, bəh-bəhlədi.
Sən deyən mətləbləri dəxi çətin anlarıq,
Kimin bizə sözü var?!
Biz də belə canlarıq.

## ŞƏHƏRDƏ

Bu necə şəhərdi çox şeyi saxta,
Sintetik düyüsü, süni yumurta.
Benzini qarışıb qazalin ilə,
Kərəsi seçilmir vazelin ilə.

Qara çörəyində kakoa rəngi,
Kasıblar dərd yeyir.
- Xoşmudur, Zəngin?!
Çalış ki, bir gün də sınmasın əngin
Başlara düşür daş, kərpic şəhərdə.

Tərəvəz şişdikcə hormonlar ilə,
Qarınlar sallanır qarmonlar ilə.
Adamaoxşamaz "baronlar" ilə
Yaşamaq əzabı - bir heç şəhərdə.

Ürəklər tövşüyür, könül bulanır.
Çəki ağır gəlsin – çox şey sulanır.
Satanı aldadır, alan allanır-
Tülkülər gəzişir bic-bic şəhərdə.

Toz-duman içində burda səhər də…
Şəkərə qatılıb bəyaz zəhər də…
İnsanlıq deyilən daha nə qaldı
Aqili fırladan bu gic şəhərdə?!

## BU ŞƏHƏR

Bu şəhər – milyonçuların şəhəri,
Lüks arabaların,
"altun süslü sarayların"
ağ əndamlı sahibləri.
Bahalı restoranlarda
barlarda
açarlar səhəri.
Metroya,
avtobusa minməzlər ,
piyada gəzməzlər,
Görməzlər –
Hər tində, səkidə
Oturan zavallı dilənçiləri.
Sədəqə verməzlər
Protez ayaqlarını qarşısına qoyub
Düşünən qazilərə.
Qızıldan xalta bağlayarlar
Bağlarında hürüyən tazilərə.
Bu şəhər
Milyonçuların şəhəri.
Gənclikdə milyonçular
məhəlləsi var,
Badamdarda həmçinin.
Bilgəhdə, Şüvələnda,
Mərdəkanda bağları.
Keçmiş milyonçuların da

Bağları vardı orda.
Keçmiş hökümət
almışdı əllərindən
o milyonçuların.
İndiki milyonçular
düşünməzlər bunları.
Bahalı restoranlarda
Viski dolu bardaqların
Arxasından baxarlar dünyaya.
Dünya yarıçılpaq qızların
Qucağında cənnət görünər.
Hər tərəf eyş-işrət görünər.
Tanıyıram bir-ikisin...
Bir dəfə teatra dəvət eləmişdim,
Gəlmədilər.
Bir daha rastlaşanda
Giley-güzar eylədim.
Sordular:
- mövzu nəydi?
Dedim:
- Hüseyn Caviddi...
- harda işləyir?..
- cənnətdə...
Dedilər:
- bu gecə o restorandayıq...

19.03.19

## NƏSİMİ

Bir kişilik məktəbinin
bünövrəsin qoyanda sən,
Misgin aşiq, soyulmağı
qəbul etdin düşünmədən.
Dözə-dözə min işgəncə,
min əzaba.
Sən sağ qaldın,
səndən başqa
qalan varmıdır əcəba?!
Günəş qürub eləsə də
o saralan çöhrən üstə.
Min-min günəş doğulubdu
hər cücərən pöhrən üstə.
Ey Nəsimi,
ey qəlbimin padişahı,
nurlu könüllər sabahı,
Söz dünyası səltənəti
sənin üçün qurulmuşdu.
O düşmənlər, o xainlər
ürəyindən vurulmuşdu.
Onlar itib getdi o an,
sən hələ də yaşayırsan.
Min illər də bundan sonra
Yaşayarsan!
Hər günündə, hər anında

Sən görürdün
Bax bu günü.
Bu sabahı!
Ey ənəlhəq deyən ustad,
Şerimizin Qibləgahı!

10.03.2019

## SALAM, ƏFƏNDİM

*Hüseyn Cavidin heykəli önündə*

Nə xəyala dalmısan?
Salam…
Salam, əfəndim.
Öncədən gördüklərin
Bir az modernləşibdi,
Keçib zaman, əfəndim.
Qalan hər şey köhnədir,
Elə haman, əfəndim.

Aldadanlar aldadır,
Allananlar allanır.
Kasıblar daxmalarda,
Zənginlər villalarda…
Dərdlilər dərd çəkirlər,
Hallananlar hallanır.
Dünya əski dünyadır,
Dünya yalan, əfəndim.

Dünyanın işlərindən
Danışsa da başçılar,
Harda əngəlli iş var
Krallar qarışdırar.
Silahlanma yolunda
Əl tutub yarışırlar.

Hər yan cəbhəxanadır,
Aman...
Aman, əfəndim.

Min üzlü siyasilər
Böhtan uydurur yenə,
Yalan düşmür dilindən.
Məzlumun göz yaşı var,
Bir şey gəlməz əlindən.
Nə İncil vura bilir,
Zalımların belindən,
Nə də Quran, əfəndim.

İnsan uçsa da Marsa,
Ayaq bassa da Aya,
Bir daha bu dünyaya
Nə Peyğəmbər gələcək,
Nə Şeyx Sənan, əfəndim.
Kəbədə daşlansa da,
İblis iş başındadı,
Durur Şeytan,
Əfəndim...

*06.10.2017*

# RAMİZ ƏFƏNDİ

Bu dünyadı – qalxanı var, enəni var.
Haqlı-haqsız danışanı, dinəni var.
Ağladanı, güldürəni, güləni var.
Sən də güldür, gül, əfəndim.

Demirəm ki, Süleyman tək təxtin olsun.
Deyirəm ki, sağlam canın, vaxtın olsun.
"Bəxt üzüyü" bəxtdirsə, qoy bəxtin olsun,
Üzün gülsün, gül, əfəndim.

Bu dünyada Ramiz çoxdu,
Ramiz Əzizbəyli təkdi.
Bu gün xalqım deyəcəkdi:
70 yaşın mübarəkdi,
Mübarəkdi, əfəndim!

2018

# YENİ İL

Yeni ili yeni arzularla qarşılamağa çalışırıq, amma unuduruq ki, hər gələn yeni il bizi sevgi dünyamızdan, gözəllik və cavanlığımızdan ayırıb aparır. Bir də gözümüzü açanda özümüzü yaşlaşmış, dünyaya sevgisi bir qədər də azalmış halda görürük.

Dünyadı, zamandı – il gəlib gedir,
Ağladır – gözümdən sel gəlib gedir.
Qəlbdə sevgi solur, əlimdə çiçək,
Viranə könlümdən yel gəlib gedir.

Yolunda can qoydum Vətənim deyə,
Eşqi ürəyimdə bitənim deyə.
Şuşada bayrağım ucalmır göyə -
Başıma ələnən kül gəlib gedir.

Deyirlər ədalət, haqq var, mizan var,
Ağzına su alıb susur krallar.
On səkkiz yaşında şəhid balalar,
Torpağın qoynuna gül gəlib gedir.

Gedir qoca-qoca nəsillər gedir.
Gün keçir, ay keçir, fəsillər gedir.
Qolu bağlı yurdlar, əsirlər gedir –
Zaman da, dövran da bil, gəlib gedir.

Saxlaya bilmədim zamanı, vaxtı.
Bəşərdən ucada fələyin taxtı.
Baxdı - millətimə qıyqacı baxdı,
Odur ki, Araz da lil gəlib gedir.

01.01.2019

## BİR GÜN

Küsməyin, ədanın yönü, təhri var,
Xəzanın ətgisi, qışın qəhri var.
Kimdə dəvə kini, ilan zəhri var –
Xətəri özünə dəyər də bir gün.

Acını, zəhrini bal eyləmişəm,
Nə bir söz demişəm, qal eyləmişəm.
Susmuşam, dilimi lal eyləmişəm –
Hər kəs öz əkdiyin yeyər də bir gün.

Zalımlıq yaraşmaz amana qarşı,
Babam yaxşı deyib yamana qarşı.
Dikbaşlıq eyləmə zamana qarşı –
Sındırar qəddini əyər də bir gün.

27.12.2018

## GƏLƏRƏM

Mən payız fəsliyəm, sən bahar-yazsan,
Könül dünyamızda çalınan sazsan.
Bir incə çiçəksən, işvəli qızsan,
Biz bizi bilmədən düşdük tilsimə,
Bahar yağışların yağdır üstümə.

Dünyadı, haqq dili bir az gödəkdi,
Haqsızlıq ortaya ayrılıq əkdi.
Bilsən ki, bir könül gülməyəcəkdi –
Ağla dərdin ilə,
gülüş istəmə,
Bahar yağışların yağdır üstümə.

Yollarım dumanlı-çənli də olsa,
Bu həyat dastanı qəmli də olsa,
Bu dünya sənsiz də,
sənli də olsa,
Bu huysuz həsrətin altı-üstü nə?!
Bahar yağışların yağdır üstümə.

İşıqdan donumu geyib gələrəm,
Min acı, bir şirin yeyib gələrəm.
Tək sənin adını deyib gələrəm,
Qoymam kölgə düşə ömür dəstinə -
Bahar yağışların yağdır üstümə.

Bulbul nalə çəkər gülşəndən ötrü,
Bilsəm darıxırsan sən məndən ötrü,
Gələrəm o doğma vətəndən ötrü,
Əgər qızınmasan mənim istimə,
Xəzan yağışların yağdır üstümə.

26.12.2018

## BELƏ

Nə salmısan hay-harayı,
Uçub könlümün sarayı.
Keçirtdik bir təhər yayı –
Yaylaq belə, dağ da belə.

Şumlandıqca arxı-ləki,
Əkin yeri gör nə çəkir.
Cəhənnəmmiş qoynundakı –
Gül də belə, bağ da belə.

Boylandıqca ətrafına,
Qılaflılar girdi qına.
Nə gəlibdi insafına –
Sol da belə, sağ da belə.

Dodağında meydi, məzə…
Gözlərində qəzəb-nizə.
Yedirtdiyin nəydi bizə -
Şor da belə, yağ da belə.

19.12.2018

## İNANMAYİN

Desəm inanmayın, göydən gəlmişəm,
Hamı kimi olduğumu bilmişəm.
Ac olanda ağlamışam,
Ağlayanda gülmüşəm…
Mən nə birinciyəm, nə də sonuncu.

Könlümü vermişəm çiçəyə, gülə,
Çiçəklər açıla, çiçəklər gülə.
Gördüm həqiqəti güllələr ilə…
Mən nə birinciyəm, nə də sonuncu.

Barmaq tətikdədir, tüfəng nişanda,
Hiylə də, saflıq da yatır bir canda.
Məhəbbət vardısa, qaynayar qan da…
Mən nə birinciyəm, nə də sonuncu.

Dünyanın varında gözüm qalmayıb,
Nazını çəkməyə dözüm qalmayıb,
Kimsəyə deməyə sözüm qalmayıb…
Mən nə birinciyəm, nə də sonuncu.

Dünyadan kamımı ala bilən də,
Üstünə bir sayə sala bilən də.
İstəsən qayğına qala bilən də,
Mən nə birinciyəm, nə də sonuncu.

Həyat bir səhnədir, bir tamaşadır,
Kimi silib atır, kimi yaşadır.
Qəhrəman tək olmur, rollar qoşadır –
Mən nə birinciyəm, nə də sonuncu.

Dünyada məst olan neçəsi belə,
Yolunda canından keçəsi belə.
Çoxuna ilişib haçası belə…
Mən nə birinciyəm, nə də sonuncu.

Bir az düşüncəli, bir az həlim ol,
Yağmadan öncə bir bulud kimi dol.
Gedirəm qarşımda açılb bir yol,
Mən nə birinciyəm, nə də sonuncu…

16.12.2018

Ey gülüzlü mələyim, can sənə əsir olur,
Nə səbəbdən deyirsən sevgisi kəsir olur?!.

Bir zamanlar var idi dərdimə müştaq idin,
Olmaya indi sənə kənardan təsir olur?!.

Kərbəla meydanıdır – can, ona bir yaxşı bax,
Aşikardır eşqində, nə gizli, nə sir olur.

Eşq - məhəbbət tacıdır başlarda tutmaq gərək,
Düşsə yerə ayaqlar altında həsir olur.

Muradoğlu baş qoyar yetişər muradına,
Nəsibinə yetməyən yollarda yesir olur.

18.02.2019

Üyüdür duyğuları dəyirmanın daşı kimi,
Bir bulaq varmı axa gözlərinin yaşı kimi?

Gecə yazdıqlarını hər səhər təkzib eləyir,
Yoxsa mən səhv edirəm, aldanıram naşı kimi?

Rəqibə həmdəm olub söz də verir, üz də verir,
Mənə də dərd gətirir dərdinin dərddaşı kimi.

Matahı vardısa da mindirib ceyran belinə,
Qaldırıb qiymətini lap küvər bozbaşı kimi.

Söz ilə tənə edir, qırmac ilə vurhavurur,
Elə bil göydən gəlib fələyin fərraşı kimi.

Canı candan kim ayırmış, nə deyim, Muradoğlu,
Bir yerdədir can ilə can - üzüyün qaşı kimi.

09.12.18

## YUXUMA GƏLMƏ

Yollar dumandı, çəndi.
Azarsan duman-çəndə,
Çəndə yuxuma gəlmə.
Çoxu məni tərk etdi,
Gedənlərə yaxşı yol,
Tərk elə sən də.
Gəlmə,
yuxuma gəlmə.
Vurdum özümü dağ-daşa,
Anla məni, düş başa.
Heç bilmirəm, nə deyim
Sənin kimi vəfasız
Bir dosta, min yoldaşa:
Hamınız bəndə.
Bəndə, gəlmə,
yuxuma gəlmə.
Bu şəhər ki görürsən
Məni əsir eylədi.
Qatıb qabağına
Yesir eylədi.
Bir "Məmmədnəsir idim,
Bir də həsir" eylədi.
Daha gedirəm burdan,
Gedirəm kəndə.
Kəndə gəlmə,
yuxuma gəlmə.

30.11.2018

## GƏLİRSƏN

Elə yorulmuşam ki...
Yumuram gözlərimi
Bir azacıq dincəlim,
Yuxuma sən gəlirsən.
Yapışıb əllərimdən
Çəkirsən üfiqlərə.
Ağ çiçəkli donunda
Köksü gülşən gəlirsən.

Buludlar lay-lay deyir,
Ulduzlar çırağımız.
Yarı bölünmüş ay da
Şahidlik ortağımız.
Amma yenə də olsun,
Deyirəm yer yaxşıdı...
Yer də mənəm deyirsən,
Yurd da mənəm deyirsən.
Xəyalıma bir anlıq
Elə vətən gəlirsən.

Sonra nədən bilmirəm,
Üzün bozarır sənin,
Əllərində donur su.
Anlamıram doğrusu,
Ya şaxtadan, soyuqdan,
Ya Sibirdən gəlirsən.

Göy üzü düşmür bizə
Gəl qayıdaq dünyaya,
Ümidimiz yerədir,
Dünya cürbəcürədir.
Xəzər sahilin seçək,
Sahildə bir çay içək.
Yüz yol sınaqdan keçək,
Hər sınağı bilirsən,
Üstündən sən gəlirsən,
Üstün də sən gəlirsən.

29.11.2018

## NƏ XƏBƏR

Ömrün payızına payız xoş gəlir,
Bir az dolu gəlir, bir az boş gəlir.
Gah duman, gah çiskin, gah yağış gəlir,
Şaxtadan nə xəbər, qardan nə xəbər?!.

Yolunda canımı eylədim fəda,
Vəslinə yetişdi bir nadan-gəda.
Sükansız, kompassız gəmim dəryada,
Yönləri itirdim, hardan nə xəbər?...

Misralar qarışdı alın yazımda,
Qalmadı əvvəlki sevgi-nazım da.
Nalə haray çəkir könül sazımda,
Kamandan nə xəbər, tardan nə xəbər?!.

Bulud süründükcə başımın üstə,
Son misra yazılır qaşımın üstə.
Elçilər oturub daşımın üstə,
A zalım balası, yardan nə xəbər?!..

21.11.2018

## SƏN OLACAQSAN

Daha səbr etməyə səbrim qalmayıb,
Gedirəm, peşiman sən olacaqsan.
Ardınca gəzmişəm bir ömür boyu,
Ardımca boylanan sən olacaqsan.

Qədrini bilmədin qədirşünasın,
Vaxt gələr bir gün də tutarsan yasın.
Gizlə hisslərini görən olmasın,
Həm qanan, həm yanan sən olacaqsan.

Dəyər verənmədin dəyərsizlərə,
Beçənin yerində oturtdun fərə.
Meydanı buraxdın sərçəciklərə...
Sonunda bil yaman sən olacaqsan...

23.09.2018

## SƏNSİZ DARIXMIRAM

Sənsiz darıxmıram
Xəzərin sahilində.
Saçlarımı oxşayır
Dənizdən gələn hava,
Bir də xəyal sevgilim
Ruhumla pıçıldaşır.
Sahil qaynayıb daşır,
Yanımdan ötüb gedən,
Mavi gözlü qızların
Üzünə də baxmıram.
Mən sənsiz darıxmıram.
Könlüm xəyal sevgimin
Məst olub qucağında.
Hər kəs öz ocağında.
Beləcə xoşdu mənə…
Bəlkə elə sənə də…
Bir göyərçin uçursa,
Qonursa pəncərənə,
Sən də xatırlanırsan.
Vüsalın olmasa da,
Ara-bərə izləri
Var ömrümün bu yazda.
Bir az ümid yeridi,
Təsəllidi bir az da…
Necə istəsən düşün,

Daha keçdi o günlər,
Qəlbimi od-alovla
Yandırmıram, yaxmıram,
Mən sənsiz darıxmıram.

O sərxoş gözlərinin
Alovu sönmüş kimi.
Əllərində qalmayıb
Bir istilik, hərarət.
Məhəbbətin yerini
Zəbt eyləyib xəyanət.
Bu da belə taledi,
Başına da çaxmıram,
Mən sənsiz darıxmıram.

Sən Leyli deyilsən,
Zöhrə deyilsən,
Yaralı könlümə
Töhfə deyilsən.
Özündən uzağa
Düşdün, heyif sən…
Mən sənsiz darıxmıram…

Vəfalı deyilsən,
Darıxa bilim ,
Yoluma dağ çıxsa,
Onu yıxa bilim,

Uşaq tək önündə
Karıxa bilim...
Əvvəl karıxardım,
Çox darıxardım.
Daha darıxmıram,
Heç darıxmıram…

07.06.18

## SEV MƏNİ

Al məni qoynuna qoynum üşüyür,
Mən yetim qalmışam sevgidən, gülüm.
Yadıma şeirindən bir misra düşür,
“Sən məni elə sev”, sevginən, gülüm.

Sev məni elə sev bilən olmasın,
Elə sev sənin tək sevən olmasın.
Elə sev üşüyən yerim qalmasın,
Qurtar bu həsrətdən, acıdan məni.

Mən səni sevirəm qəlbdə qan kimi,
Dodaqda söz kimi, canda can kimi.
Yer kimi, gün kimi, asiman kimi,
Məcnunam çöllərdə sərgərdan, gülüm.

Sev məni havasız qalmadığın tək.
Üzündə təbəssüm, əlində çiçək.
Dara saçlarını sinəm üstə tök,
Od alım eşq dolu köksündən, gülüm.

Sev məni heç kəsi sevmədiyin tək,
Sev məni heç kəsin olmadığın tək.
Sev məni, ən şirin uyğu kimi sev,
Sev məni, könlündə duyğu kimi sev.

09.07.17

## GECƏ YARI

Gözümün üstüdür yerin, əzizim,
Uç gəl qollarıma qon gecə yarı.
Ürəyim isidə bilməsə səni,
Mənimlə birlikdə don gecəyarı.

Sənsiz üşüyürəm, soyuqdur canım.
Sənsən düşündüyüm, sənsən hər anım.
Elə bir atəş yax, mən də odlanım,
Özün də oduna yan gecə yarı.

Düşün; bu sevginin bir qibləsi var,
Duymaq istədiyin qəlbin səsi var.
Hər dava-dalaşın atəşkəsi var,
Qoyaq bu hicrana son gecə yarı.

## KAZIM GƏLMƏDİ

***Kazımın anasının dilindən***

Gözlərim tutuldu yol gözləməkdən,
Susdu kaman-tarım, sazım gəlmədi.
Hamının bağında açdı gül-çiçək,
Mənim gülüm soldu,
Yazım gəlmədi.

Dağları sis aldı, dərəni duman,
Qalmadı dünyaya etibar, güman.
Dərdimə alışıb eşqimə yanan,
Biri vardı, getdi.
Nazım gəlmədi.

Gördüm sinəsindən vurulmuşları,
Bir alma alınca getdi huşları.
Oxuduqca İsaq-Musaq quşları –
İsaq gəldi, Musaq gəldi,
Kazım gəlmədi.

22/12/19.

## ANAM ZİKR ELƏYİR

Bu uşaq nə yaman sınıxıb deyə,
Elə gecə-gündüz fikr eləyərdin.
Sən mənim adıma təsbeh çevirib,
Bəlkə, milyon dəfə zikr eləyərdin:

“Allahım, namərdin xəyanətindən,
Balamı şeytanın şərindən qoru.
Zalımın zülmündən, bəd əməlindən,
Nacinsin pisindən, felindən qoru”.

Dolanıb başıma hər səhər, axşam,
Üzərrik yandırıb dualayardın.
Allaha yalvarıb cini, şeytanı,
Bizim qapımızdan qovalayardın.

Boş yerin qalıbdı indi bu evdə,
Nəzərin mənzilin hər tərəfində.
Sən bizi tərk edib, getdiyin gündən,
Ana, üzü gülmür nəvələrin də.

Üzümü söykədim məzar daşına,
Gördüm göz yaşımla məni yuyursan.
Mən necə ayrılım bu daş məzardan?
Axı, o daş altda sən uyuyursan

## İNDİ

Ayağa durardım yaşlı görəndə,
Durur ayağıma cavanlar indi.
Vətəni sevmişdim ana deyərək,
Sevgim qocalmayıb həmin-həmindi.

Nə olsun saçıma qar ələnibdi,
Ömrüm dağlar ilə zirvələnibdi.
65 gəlibdi - lap xoş gəlibdi,
Qaynayıb qarışıb zamanlar indi.

Qəlbimdə gəncliyin eşqi, həvəsi,
Şerimdə, sözümdə sevgi nəğməsi.
Hələ nələrim var, gəlib görəsi...
Hərdən yada düşür o anlar indi.

Ərməğan almadım dövlətdən, xalqdan,
Ruhum mükafatdı Tanrıdan, Haqdan.
Don geydim üç rəngli qızıl bayraqdan...
Mənə çox yaraşır bu donlar indi.

Var olsun dövlətim, elim var olsun,
Var olsun millətim, dilim var olsun.
Vətən çiçəklənsin, gül-gülzar olsun –
Kor olsun, paxıllar, düşmanlar indi.

## KEYQUBAD ƏLƏDDİN

Səlcuqlu Sultanı Keyqubad Ələddin indiki onun şərəfinə adlandırılmış Alanya şəhərini ala bilmirdi. Ağ dənizdən gələn yolun üzərində olan möhtəşəm qalanı fəth etmək çox çətin imiş. Deyirlər ki, Ələddin Keyqubad bir böyük keçi sürüsünü buynuzlarına şəm bağlayıb gecə vaxtı dağ yuxarı qalaya tərəf sürdürüb. Düşmən böyük bir ordunun üstünə gəldiyini zənn edərək qorxuya düşüb qalanı Ələddin Keyqubada təhvil verib. Bu əfsanənin nə qədər həqiqətə uyğun olduğunu bilmirəm. Amma bildiyim odur ki, belə bir hökmdar cəmi 45 il yaşayıbdır.Alanya şəhərində qoyulmuş bu möhtəşəm heykəl Ələddin Keyqubadındır.

Yüz heykəl yapsalar adına daha,
Bir də keçilərin çıxmaz sabaha.
Hər keçinin buynuzunda iki şəm
Yandırsan da bir şey olmaz dəyişən.
Qalxmaz bir də o dağlara keçilər,
O dağlar da, o qala da gözlərimdə kiçilər.

Ey Keykubat Ələddin,
Ey Səlcuqlu sultanı,
Nə susmusan, danış,din.
Xəyalına gətir bir
O zamanı, bu anı.
Uçub getdi əlindən

İki başlı qartalın.
Qaldın Leyla düzündə
bir nəsnəsiz, əlyalın.
Bir heykəl yapsalar da
Burda sənin adına,
Görən yetə bilirmi
Orda sənin dadına?!
Ağ dənizin qoynunda
Yabançılar dincəlir.
Sən isə sizlayırsan,
Fəryadını eşitmək
Mənə çox ağır gəlir.

09.11.2019

## YERDƏ QALMAZ

Fələk, söndürmə çırağı,
Bəndənin nə günahı?!
Zalımın qəzəbi, məzlumun ahı
Yerdə qalmaz, yerdə qalmaz.

Can istərsən can gedər,
Su yerinə qan gedər.
Ah çıxar, aman gedər –
Yerdə qalmaz, yerdə qalmaz.

Yağar yağış, əsər külək,
Açıqlanar fitnə-kələk.
Ahlar səni yıxar, Fələk,
Yerdə qalmaz, yerdə qalmaz!..

04.11.2019

İki dünya arasında
Bir ömürlük yol gedirik.
Nədəndi bəs,
Duya-duya, bilə-bilə
Çaş gedirik, sol gedirik?

06.10.2019

Yenə şəklin ilə qaldıq başbaşa
Məhəbbət süzülür gözündən sənin.
Yolumu dəyişib dirədin daşa,
Mən ki çıxmamışdım düzündən sənin.

Bir saray tikmişdin söküb gedirsən,
Sinəmə min yara əkib gedirsən.
Dağı dağ üstündən çəkib gedirsən,
Hələ doymamışdım sözündən sənin.

Qaldı iki gözüm səndə, ağlaram,
Dumanda ağlaram, çəndə ağlaram.
Buludlar ağlayar, mən də ağlaram –
Öpüb həsrətinin üzündən sənin.

## BƏSİMDİ

*Şəmistan Əlizamanlıya*

Dünyadan elə bir umacağım yox,
Mənə salam verir çiçək, bəsimdi.
Heç kimin qapısın döyə bilmirəm,
Döyür pəncərəmi külək, bəsimdi.

Böyüdüm torpağın, daşın içində,
Oturdum əllicə yaşın içində.
Vətəndə bu qədər işin içində -
Mən sevdim Vətəni – sevmək bəsimdi.

Qoynuna girməyə dənizim hazır,
Qumlu sahilində izimi yazır.
Başımda didərgin fikirlər gəzir,
Onu yazam gərək, gərək bəsimdi.

Beləcə dərd çəkdi Məmməd Araz da,
Bir az da oxşarlıq var sözümüzdə.
Sağ olsun qardaş da, oğul da, qız da,
Onları şad görüm, görmək bəsimdi.

Şil görüm, nəfsinə qul olanları,
Məramı, məqsədi pul olanları,
Alçaltdı ətəkdə dolananları,
Çox şükür, yetirir çörək, bəsimdi.

Gecə daşıyıram dağı arana,
Sabah da aranı qoyur virana,
Yaralı köksündə ey torpaq – Ana,
Doğuldum ölərəm, ölmək bəsimdi.

Şair də sözünü yetirir sona,
Kimsəyə qalmamış, qalarmı ona?
Bir rəhmət diləyib Muradoğluna,
Bir “sağ ol” deyilsə, demək, bəsimdi.

## MƏN QƏRİB ADAMAM

***Əkbər Əliyevə***

Mən qərib adamam öz vətənimdə,
Taleyim Tanrının hökmündən keçir.
Min yol açılsa da üzümə birdən,
Bir yol var ruhumdan, içimdən keçir.

Bir yol var dırmanır üzü yuxarı,
Yazda xəzanı var, qışda baharı.
Kəsir ömrümüzdən keçən yolları,
Edir parça-parça tikəmdən keçir.

Dirənər bir qara daşa əyilməz,
Torpağa əyilər, başa əyilməz.
Alovda bərkiyən tişə əyilməz,
Tişə ürəyimin içindən keçir.

Mən qərib adamam bu yer üzündə,
Qara gecəsində, ağ gündüzündə.
Əyri əyrisində, düz də düzündə,
Doğru da, yalan da seçimdən keçir.

Zirvələr bəxş olub zirvəsizlərə,
Bir ucu söykənir kirvəsizlərə.
Yol açıb iz salıb, zirvə, sizlərə,
Bir daş da çalmalı fikrimdən keçir.

Mən qərib adamam, a yad adamlar,
A dönük sifətlər, boyat adamlar.
Qoymadıq dünyada bəd ad, adamlar,
Yaxşı ad soyumdan, kökümdən keçir.



## ADAMLAR

Duman gəldi, çən bürüdü dağları,
Yada düşdü ömrün bahar çağları.
Payız ölüb, dirilsəydi yaz barı –
Yenə belə olardımı adamlar?!

Saç ağarır, diş tökülür, can gedir,
Didələrim yaş gətirmir, qan gedir.
Dünən məni sevənlər də yan gedir –
Başqasımı, onlardımı adamlar?!

Bu dünyaya heç etibar qalmadı,
Göydən düşən, üç düşməyən almadı.
Zamanında gərək idi, olmadı –
Üz çevrilən anlardımı, adamlar!?

Muradoğlu, ölüm haqdır binadan,
Yol gedirik doğulunca anadan.
Bu tarazı qurmasaydı Yaradan, -
Bu mizanı anlardımı adamlar?!

***

## DÜNYA

Qaldı caynağında harın kəslərin,
Dağıldı, bölündü yüz yerə dünya.
İnsan öz-özünə ölür içində, -
Ölür önümüzdə gözgörə dünya.

***

Ağrıyır bir qərib duyğu səsimdə,
Ruhum əzab çəkir can qəfəsimdə.
İlahi, lütfünü inayət eylə,
Min Məcnun ahı var hər nəfəsimdə...

***

Dərd üstə dərd gəlir, ağlamaq olmur,
Sir tək demək olmur, saxlamaq olmur.
Ürəyim ruhuma qapıdı, amma...
Amma açmaq olmur, bağlamaq olmur.

***

Yenə gəldi bahar fəsli, təbiət gülüzar eylər,
Mənim kimi binəvalar dərd çəkər, ahu-zar eylər.

Lütf edib bir dəfə baxsa, o dilbər üzümə mənim,
Qəlbim olar para-para, kövrələr min qubar eylər.

Bəlkə qismət bu imiş can çəkə yarın cəfasını,
Bu necə candı ki, Ya rəb, cəfadan iftixar eylər.

Adilə nə gərək haqdan, haqqı bilən olsa, ey dost,
Haqq onun öz içindədir, içindən intişar eylər.

Nə yarın vəslinə yetdin, Muradoğlu, şükr edəsən,
Nə o afət doyar səndən gözündən bir kənar eylər.

***

Sənə ümid verirəm, oğul,
Nə oddu, nə cızdı o.
Sahildə hava ud bol-bol,
Hələ ki rulsuz, sayğacsızdı o.

## ŞƏHİDLƏR XİYABANI

Yağır güllə yağış,
Yağır od yağış.
Nə göydən hədiyyə,
Nə haqdan bağış.
Ölümdən qaçmağa
bir yer qalmamış.
Zirehli tırtıllar
Düzülü gəlir.
Ölümə gedənlərin
Üstünə gəlir.
Adamları biçə-biçə,
Küçələrdən keçə-keçə,
Hər dalanda, hər bucaqda
Qan tökə-tökə,
Soldat gəlir,
Faşist gəlir,
Nasist gəlir!
Qanlı yanvar gecəsində,
Bakını hər küçəsində
Ölüm-həyat başbaşadır,
Faciəvi tamaşadır.
Bu səhnənin
Rejissoru Qorbaçovdu,
Dirijoru Yazovdu.
Səhnə deyil,

Əvvəlcədən hazırlanmış,
Qan-qadadı
Bakının hər küçəsində,
Qanlı yanvar gecəsində.
Sarı göygöz şeytanların,
Əllərində odlu silah,
Qırıb keçir insanları,
Qırıb keçir, aman, Allah!
Yerdə yatan o yaralı
Nə danışır, nə səsi var.
Bircə quru nəfəsi var.
Üstündən tank sürüb keçir,
Kəlləsinə bir güllə də vurub keçir.
Soldat deyil, cəlladdı bu,
Bir milləti aldatdı,
Öz-özünü alçaltdı bu!
Danış, danış dərdlərini,
Qanlı yanvar gecəsi,
Danış, danış, yer kürəsi!
Soyuq yanvar gecəsində
Tanka sinə gərənlərdən.
Danış, danış, əliyalın
Şəhidliyi zirvə seçən
Ərənlərdən!
Azadlığı şərbət kimi
İçənlərdən!
Üç rəngli bayraq uğruna,

Canlarından keçənlərdən!
Əsin yellər,
Şahə qalxın,
Göy Xəzərin dalğaları!
Salamlayın şəhidləri,
Alqışlayın siz onları!
Güvəncimiz, and yerimiz
Ana Vətən,
Müqəddəs yurd,
O Şəhidlər Xiyabanı,
O Şəhidlər Xiyabanı!

2015

## YORĞANSIZ

İstəyirsən uzan yat,
İstəyirsən qıvrıl yat.
Ayağını uzat yat,
Yorğanımız yoxdu bizim.

***

Bir yazılı təbrik,
Bir dəstə çiçək,
Şagirdləri adından
Aldı sevindi qadın.
Qızının evsizliyi,
Oğlunun işsizliyi
Çıxdı yadından.

# ƏZİZİM

Könlümdə üç sevgili var, bilirsən,
Biri anam, biri Vətən, biri sən.
Anam köçmüş,Vətən cansız, diri sən,
Quc boynumu, çək sığalın, əzizim.

Axşam olcaq açarsan söz boxçasın.
Sinən yazlıq çiçəklərin bağçası.
Ala gözlər qəmli-qəmli baxmasın,
Bu sənmisən, ya xəyalın, əzizim?!

Bu da mənəm, eşq yolunda didərgin,
Gəldi-gedər, vəfa etməz ömür-gün.
Ya bağışla, ya rədd elə, ya sürgün,
Ya mənimlə böl mahalın, əzizim.

17.11.15.

## GƏL EY NOVRUZ

Bu il üzü gülmədi
Nə çiçəyin, nə gülün.
Ötdü, səsi qırıldı
Köksü sarı bülbülün.

Bəla bəla üstünə
Yığıldıqca dağ oldu.
Dostlar yaxın olmadı,
Yad oldu, uzaq oldu.

Böyüklərin əlini
Öpə bilmir uşaqlar.
Böyüklər də çalışır
Uşaqların üzünə
Gözünə baxmasınlar.

Bu il də belə gəldi,
Bu yaz da belə yazdı.
Bu yaz ağ taleyimə
Bir qara yazı yazdı.

Qatara qoyulmayan
Yumurtalar dərd çəkir.
Süfrələr düzəlsə də
Qonağa həsrət çəkir.

Hər eldə, hər ocaqda
Hələ bayram gəlməmiş
Bir virus oturubdu.
Ədəbsiz, qanacaqsız,
Yaman pis oturubdu.

Gəl ey Novruz, gəl apar,
Apar dərdi- bəlanı.
Hanı şaqraq gülüşün,
Sevincin, toyun hanı?

Çərşənbələr yetmədi
Dərddən arıtsın bizi.
Gəl ey Novruz, özün gəl,
Xoş qədəmli gəlişin
Bəlkə yarıtsın bizi.

20.03.2020

## İSTƏMİR

Bəndə yolunu çaşdı,
Halal – haram qarışdı.
Dəniz coşdu, çay daşdı.
Sular da məcrasından
Çıxır qalmaq istəmir.

Göydən gəldi dörd kitab,
Quran sonuncu xitab:
“Bəndə, oxu nicat tap,
Qiyamət var, adil ol”.
Adil olmaq istəmir.

İbrət almadıq sözdən,
Günah keçibdi dizdən.
Allah da bezib bizdən,
Daha öz bəndəsinə
Allah olmaq istəmir.

21.03.2020

## AY VİRUS

Fərq qoymursan nə krala, fəhləyə,
Kral qala, fəhlə ölə - ləhliyə.
İşçiləri eyləmisən təhliyə,
Yazmağa da gəlmir əlim, ay virus!
Bu cahanda yoxdu sənə tay, virus!

Atomum var deyib öyünənləri,
Bucağa qoymusan  üç aydan bəri,
Başından yuxarı qalxıb əlləri,
Eyləmisən günlərini zay, virus!
Bu cahanda yoxdu sənə tay, virus!

Sarayından çıxa bilmir "krallar",
Gör nə qədər kral adlı trol var.
Haqq adına bir Yaradan-Kral var,
Sən də onun əsgərisən, ay virus!
Bu cahanda yoxdu sənə tay, virus!

Göz görməyən, əl tutmayan zərrəsən,
Şeş-qoşadı atdığın hər zərdə sən.
Məzlumların göz yaşına keçəsən –
Xahişimdi, eşit məni, ay virus!
Bu cahanda yoxdu sənə tay, virus!

28.03.20

## ARASINDA

Oğul bala, bu oyuna girişmə,
Yanarsan xeyirlə şər arasında.
Əzəl başdan bölünənlər bölünüb,
Haqq qalıb qurdnan şir arasında.

Mərəkədir, baş vurası kol deyil,
Karvan gedir, sən gedəsi yol deyil.
Hər vurulan zərbə deyil, qol deyil
Bu oyun fil ilə nər arasında.

Barış yoxdu, qurulubdu savaşlar,
Ya əyilir, ya vurulur dik başlar.
Böləmməyib dünya malın qardaşlar,
Qəhr olub bər-bəzək, zər arasında.

Günümüzün ən şirini – ən acı,
Əlacsızlar əlaclıya əl açır.
Daha bizim dərdimizin əlacı,
Asılıb göy ilə yer arasında.

24/02/04

## EYLƏ

Yolumuz dumandı, çəndi görünmur,
Əvvəli sonu yox, təndi, görünmür.
Allahım, cığırı, səmti görünmür,
Sən bizə bir təzə yol icad eylə.

Gedirik arxadan illər boylanır,
Çiçəklər boylanır, güllər boylanır.
Eldən ayrı düşən ellər boylanır,
Sən bizi yenidən el icad eylə.

Hələ ki, yesirik selin önündə,
Tufanın önündə, yelin önündə.
Yüz fitnə-fəsadın, felin önündə,
Dayanıb durmağa fel icad eylə.

Ot basıb, kol tutub, yolumuz itib,
Yurd gedib, oba yox, elimiz itib.
Daha yalvarmaqdan dilimiz itib,
Dinib danışmağa dil icad eylə.

Gedib torpağımız, enib başımız,
Axır gildir-gildir gözdən yaşımız.
Ya dağlar qoy olsun məzar daşımız,
Ya bizi təzədən el icad eylə.

## SOSİAL ŞƏBƏKƏDƏ YAZDIQLARIMDAN:

### Dostum

Gənclik dostlarımdan biri o zaman mənə xəyanət etmişdi. Nəticədə o yüksəlir, mən isə tənəzzülə gedirdim. Tam 8 il tənəzzül dövrü keçirdim. Dostum isə çox yüksəldi və böyük bir oliqarxa çevrildi. Mən onu uzun zaman görmədim, amma haqqında tez-tez eşidirdim. Məlum məsələdi; imkanlı, vəzifəli şəxsləri sağlığında sevənlər çox olur. Bu dövrdə mənim də həyatımda dəyişikliklər oldu. Tam 8 tənəzzül ilindən sonra 8 il də yüksəliş ili yaşadım. 2002 – ci ildə işdən çıxandan sonra Bakıda yaşamağa başladım. Xeyir-şər məclislərində hərdən köhnə dostum ilə rastlaşırdım. Ətrafında birlikdə işlədiyimiz çox adamlar olurdu. Mən ona heç yaxınlaşmazdım, hətta onu görəndə uzaqlaşıb özümü görməməzliyə vururdum. Amma olmurdu, bir neçə dəfə candərdi olsa da, əl verib görüşməli oldum. Dostum vizit kartını mənə verib dedi ki, vaxtın olanda gəl görüşək. Digər dostlarımızın yanında nə deyə bilərdim ki... Amma onlardan aralanan kimi visit kartını zibil yeşiyinə tulladım.

"Dostum" böyük bir açılış tədbiri hazırlamışdı. Məni də digər dostlarımızın yanında şəxsən o tədbirə dəvət etdi. Tədbirdən sonra da böyük bir banket nəzərdə tutulmuşdu. Təbii ki, mən o tədbirə də qatılmadım. Nə isə ki, ürəyim dostumdan bərk sınmışdı. Düzünü deyim ki, onu görəndə narahat olurdum.

Amma nə etmək olar: bir şəhərdə yaşayasan, ümumi dostların ola, mütləq yollar kəsişəcəkdir. Beləcə də yollarımız tez-tez kəsişirdi. Son illərdə bir neçə dəfə şəhərin Hüseyn Cavid prospektində üz-üzə gəlirdik. Hər dəfə də mən keçib getmək istəyəndə o dayanır, mütləq mənimlə görüşür, yanındakı adama mənim haqqımda danışır, axırda da məni ofisinə dəvət edirdi. Mən də etika xətrinə mütləq bir gün gələcəyimə söz verirdim.

Axırıncı dəfə onu yenə də tanımadığım bir dostu ilə Hüseyn Cavid prospektində gördüm. Üz-üzə çıxdıq, dayandı, görüşdük, yenə də məni yanındakı adama təqdim etdi. Dedi ki, FB səhifələrində bütün yaradıcılığını izləyirəm. Niyə gəlmirsən bir görüşək? Sonra da üzünü yanındakı adama tutub dedi:

- Biz çox yaxın dost idik. Allah pis adama lənət eləsin, aramıza girdilər. Nizami müəllim hələ o vaxtlar gözəl şeirlər yazırdı.

Bundan sonra o şeirlərdən biri haqqında danışdı. O günləri yada saldı. O danışdıqca mən onun keçmiş hərəkətlərinə görə necə xəcalət çəkdiyini hiss edirdim. Bu dəfə onun səmimiyyətinə inanırdım. Ayaqüstü bir xeyli söhbətdən sonra yaxın vaxtlarda onunla görüşəcəyimə söz verib ayrıldım. Özümdə bir rahatlıq tapmış kimi hisslər yaşadım. Dostum bir növü günahlarını etiraf edirdi. Mən də onu həmin gün bağışladım. Atalar demişkən; "bağışlamaq böyüklük əlamətidir, gərək bağışlamağı bacarasan".

Bir neçə günlük Türkiyə Cümhuriyyətinə səfərim vardı. Səfərdən sonra tezliklə dostum ilə görüşməyi düşü-

nürdüm. Təəssüf ki... səfərdə ikən dostum haqqında bəd xəbər aldım. Dostumun son mərasiminə tələsdim:

\- Allah rəhmət eləsin!..

Dostum, bir kimsəyə etmə xəyanət,
Bir gün olar sən çəkərsən xəcalət.
Bu dünya fanidir, gələn gedəcək,
Kimi qoruyubdur, bu var, bu dövlət?!

***

Can ki düşdü azara,
Ümid qaldı yazara.

Belə yazmışdım. Sonra fikrimə gəldi ki, Tanrı bizi hərdən sınaqdan keçirir və yerdəki nümayəndələrinin yanına göndərir. Azarlı insanlar ilə Tanrı arasında vasitəçilər isə təbiblərdir. Arxasını yazdım:

Təbibin təbib olsa,
Yol uzanmaz məzara.

Bir neçə təbiblərə müraciət etdim: Nazilə Gültac və Əlihüseyn Hidayətov məni məcburi qaydada analizlər verməyə göndərdilər. Sonra Elçin həkim, Əmirəli həkim məsləhət bildilər ki, həkim Hacıqulu Bağırov ilə görüşüm. Hətta Əmirəli həkim usanmadan mənimlə birlikdə Hacıqulu həkimin yanına gəlib bizi tanış etdi.Cərrah Hacıqulu Bağırov haqqında o qədər gözəl sözlər eşitdim ki, taleyimi fikirləşmədən ona tapşırmağı qət etdim.

Dərdimi öyrən, təbib,
Rədd elə məndən, təbib.
Yağdan tük çəkən kimi,
Çək onu dən-dən, təbib.

Düşündüm ki, Tanrım ilə aramda vasitəçi olacaq təbibi tapmışam. Eynilə mənim kimi xasiyyətdə, məğrur bir insanla qarşı-qarşıyaydım.

Tanrı ilə aramda
Bir vasitəçi ol, təbib.
Qoy açılsın önümdə
Yeni cığır, yol, təbib.

Çox şükür, ağır əməliyyatdan 17 gün keçdi. İndi ayaq üstəyəm, Böyük Yaradanım ilə aramızda vasitəçi olan təbibim Hacıqulu Bağırov və onun köməkçiləri həkim - cərrah Vazeh Sadıqov və gənc həkim Rəhman, tibb bacısı Aynur və s.tibbi personalı minnətdarlıqla yad edirəm. Yaradanıma min-min şükürlər olsun ki, bu imtahandan da məni üzüağ çıxartdı.

Bundan artıq nə deyim
Yeni fikirlər olsun.
Möhlət verdin, İlahi,
Sənə şükürlər olsun.

Bir də dua edənlər, namaz qılıb qurban deyənləri unutmaq olmaz.

Haqq yoluyla gedənlərə,
Qurban deyib, namaz qılıb,
Dua-səna edənlərə,
Ya Rəb, özün sən kömək ol.

***

## MÜƏLLİM NECƏ OLAR

Bir neçə gündür müəllim adına deyilən və yazılanlar bu statusu paylaşmağıma səbəb oldu. Müəllimlik- şərəfli peşədir, müəllim adı müqəddəsdir. Nə yazıq ki, bəzi təsadüfü adamlar bu şərəfli və ləyaqətli işə xələl gətirirlər. Xüsusilə Aynur Talıbovanın müəllimləri o şəkildə təhqir etməsini qəbul edə bilmirəm. Düzdür, müəllimlərin içərisində öz şərəf və ləyaqətini heçə sayan, ayaqlar altına atanlar da var. Amma hamı belə deyil. Müəllim dedikdə, bizim Əylisdə Qurban adında bir adam var idi , onun sözləri yadıma düşür. Qurbana kəndimizdə Xeybər deyərdilər. Uzun zaman çobanlıq etmişdi, son zamanlar da xırda alver edərdi.

Xeybər keçid dövründə öz fəallığı ilə seçilməyə başlamışdı. Düz söz danışdığına, cəsarətli çıxışlarına görə artıq adamlar ona Xeybər kimi müraciət etmir, ya Qurban bəy, ya da Qurban müəllim deyirdilər. Bir toy məclisində Xeybərə söz vermək istəyən tamada onu Qurban müəllim kimi təqdim etdi. Xeybər mikrofonu alıb ilk cümləsini belə başladı:

- Əziz həmyerlilər, sizdən xahiş edirəm ki, mənə müəllim deməyin. Müəllim Əkbər müəllim kimi olar. Mən bir çobanam, xahiş edirəm müəllim adına ləkə salmayın.

Əkbər müəllim mənim dayım idi, çox şərəfli və ləyaqətli bir ömür yaşadı. Müəllim adını daşıyan insanlara demək istəyirəm ki, bu adı, bu şərəfi qoruyun, əgər kimsə bunu bacarmırsa, bu peşədən getsə yaxşıdı.

***

**2020 – ci il**

***65 İL YOLUNU GÖZLƏMİŞƏM BELƏCƏ,***
***QƏDƏM QOYUB GƏLƏSƏN HƏYATIMA BU GECƏ.***
***BU GECƏ KƏHKƏŞANI ENDİRİB GÖY ÜZÜNDƏN,***
***ÖPƏCƏYƏM ALNINDAN,***
***ALTUN ULDUZ GÖZÜNDƏN.***

31.12.19

***

***EY ŞANLI TÜRK BAYRAĞI!***
***YÜKSƏL GÜNƏŞƏ, AYA,***
***SƏN AZADLIQ RƏMZİSƏN***
***BÜTÜN DÜNYAYA!!!***

***

## YERDƏ QALMAZ

Fələk, söndürmə çırağı,
Bəndənin nə günahı?!
Zalımın qəzəbi, məzlumun ahı
Yerdə qalmaz, yerdə qalmaz.

Can istərsən can gedər,
Su yerinə qan gedər.
Ah çıxar, aman gedər –
Yerdə qalmaz, yerdə qalmaz.

Yağar yağış, əsər külək,
Açıqlanar fitnə-kələk.
Ahlar səni yaxar, Fələk,
Yerdə qalmaz, yerdə qalmaz!..

04.11.2019

Sən ey dərdli adam, dərdin dağlara,
Yuyub göz yaşınla sərdin dağlara?
Dağlana-dağlana dağlar dağ oldu,
Qoy getsin dərdi də mərdin dağlara.

***

Yunus Əmrə İnstitutunda filologiya elmləri doktoru, yazıçı Nizami Muradoğlunun Türkiyə Cümhuriyyətinin Alanya şəhərində "Arslan Bayır – Baygenç Yayıncılık" tərəfindən çap olunan "Kanlı taş" romanının təqdimat mərasimi olmuşdur. Yunus Əmrə İnstitutunun direktoru dos.doktor Cihan Özdemir mərasimi giriş sözü ilə açaraq kitabın tarixi əhəmiyyətindən danışmışdır.

Nizami Muradoğlu kitabın yaranması ilə bağlı dinləyicilərə məlumat vermişdir.

"Kanlı taş" romanı 2014 və 2016 – cı illərdə Bakıda "Baba ocağı" adı ilə iki dəfə nəşr edilmişdir. Əsərdə təsvir edilən hadisələr XX əsrin əvvəllərində Azərbaycanın Naxçıvan bölgəsində cərəyan edir. Naxçıvanda erməni təcavüzünü real boyalarla əks etdirən əsər tarixi roman janrının mükəmməl nümunələrindəndir.

Roman haqqında fəlsəfə üzrə fəlsəfə doktoru, prof. Əhməd Qəşəmoğlu, fil.ü. fəlsəfə doktoru Şəmil Sadiq, görkəmli ziyalı Qənimət Səfərli, fil.elmləri doktoru, prof. Allahverdi Məmmədli, fil.elmləri doktoru İslam Sadıq, şair Xatirə Fərəcli, kitabın Türkiyə türkcəsinə çevirən, fil.ü.f. doktoru, dosent Məleykə Məmmədova, fil.ü.f.doktoru Ataş Əhmədli, fil.ü.f.doktoru, dosent Atif İslamzadə,

Azərbaycan radiosunda şöbə müdirinin müavini, yazıçı Kamil Məhərrəmoğlu, fil.ü.f. doktoru Tahir Orucov və başqaları öz fikirlərini bildirdilər.

Sonda kitabın müəllifi iştirakçılara və Yunus Əmrə İnstitutunun kollektivinə təşəkkürlərini bildirdi.

***

## MEŞƏ ÇAQQALSIZ OLMAZ

2015-ci ilin fevral ayı idi. ADPU-də filologiya fakültəsinin dekanı professor Buludxan Xəlilovun təşkilatçılığı ilə fakültənin tələbələri mənim təzəcə çapdan çıxmış "Baba ocağı" romanımı müzakirəyə hazırlamışdılar. Bizim folklor institutunun şöbə müdiri professor Kamran Əliyev, həmkarların sədri dosent Tahir Orucovla birlikdə mənim maşınıma oturub ADPU-ya gəldik. Yoldaşları universitetin yanında maşından endirib, maşını park etmək istədim. Ətrafda yer olmadığından Rəşid Behbudov adına Mahnı Teatrının yanına sürdüm. Bu zaman cavan bir yol polisi işarə verdi, mən maşını saxladım. Yanıma gəlib sənədlərimi istədi. Sənədimi təqdim etdim. Dedi ki, cərimə olunursunuz, yerində ödəyə bilərsinizmi?

-Günahım nədir?- soruşdum.

-Piyadaya yol vermədiniz.

- Hansı piyada? Mən heç onu görmədim.

-Görmərsiz də…

Dedim:

Görməmişəm o piyada qoçağı,
Yalan bilməz mənim dilim, dodağım.
Kitab yazdım adı "Baba ocağı",
Polis qardaş, icazə ver, mən gedim.

Şeirlə dediyimi təkrarladım. Mən yaşlı adamam, uşaq deyiləm, mənə yaraşmaz yalan danışmaq. Özüm də aliməm, yazıçıyam. Bu kitabı görürsən, "Baba ocağı". Onu mən yazmışam, indi bu dəqiqə pedaqoji universitetdə hamı yığışıb məni gözləyirlər. Orada mənim bu kitabımın müzakirəsi keçiriləcəkdir. Bu kitabda 1918 - ci ildə ermənilərin bizim millətin başına açdıqları zülümdən, törətdikləri soyqırımından söhbət gedir. Mən belə bir əsər yazmışam. Dedim:

Bu kitabı oxuyanlar, bilənlər,
Mənə min bir alqış, "sağ ol" deyərlər.
Yüz acını bir şirinə yeyərlər,
Polis qardaş, icazə ver, mən gedim!

Polis dedi:

- O sizin işinizdir.
- Bu hamının işidir. Məni incitmə, icazə ver gedim, gözləyirlər məni.

-Bu da mənim işimdir,- dedi yol polisi, özü də sən çox danışırsan, sənə üstəlik 3 bal da yazıram.

Dedim:

Bir ağsaçlı yazıçını üzürsən,
Gərimə azmış, hələ "bal" da yazırsan.
Şəhidlərin qanı üstə gəzirsən,
Polis qardaş, icazə ver, mən gedim!

Dedi: - Olmaz.

Soruşdum:

- Qarabağda olmusan.
- Mən bakılıyam,- dedi.
- Nə qədər ki, belə ayrılıqlar var, Qarabağ qurtulmaz,- dedim. Yaz cəriməni, sən yazarsan:

Bir kimsəyə yetişməyir sözümüz,
Yurd yerinə həsrət qalıb gözümüz.
Qarabağda qırılıbdı dizimiz,
Polis qardaş, icazə ver, mən gedim!

Yol polisi cavan bir oğlan idi, nə dedim sözümün qarşısına bir daş yumbalatdı. Mənə də 60 (altmış) manat cərimə yazdı. Ömrümdə birinci dəfə cərimə olundum. O polisin qanında qatışıq olduğu, daha doğrusu erməni qanı olduğu haqqında qəlbimdə bir şübhə yarandı. Amma bütün polislər belə deyil. Onların içində qazi olanlar, xalq, millət, Vətən yolunda şəhid olan igidlərimiz də var. Belələrinə də rast gəlmək olur. Necə deyərlər; "meşə çaqqalsız olmaz!"

***

Kamil var, aqil var, əqli-nadan var,
Zülmətdən işığa bir nurladan var.
Dünyanın gərdişin kimsə pozanmaz,
Adam, yaranmısan, bil, yaradan var.

Çoxdan yazılıb unudulmuş bu bəndləri canlandırmaq istədim.

Bu qallı dünyadı qalmaqal salıb
Yaşaya bilmək də kişilik imiş.
El-oba dərdini çiynine alıb
Daşıya bilmək də kişilik imiş.
Nə qədər xain var içimizdədir,
Nə qədər düşmən var qapımızdadır.
Nə qədər xəncər var bizi doğrayır
Nə qədər balta var sapı bizdədir.
Əsir qayalara yazığım gəlir
Düşmənin başına düşə bilmədi.
Özü əsir düşdü əsir qayalar
Yetişə bir kara, işə bilmədi.

***

Vətəni əldən gedən
Ay saxlamaz,
il saxlamaz.
Bu, vətən yarasıdır,
Bu yara qaysaqlamaz.
Dünya karvansaradır,
biz karvanda yolçuyuq,
Ya ölüyük, ya diriyik,
ya heç nəyik, ya buyuq.
Hardan gəldik hara varaq,

bilinməzmi yollarımız?
Dünya bizim çiynimizdə
yol gedirik,
qoynumuzda qollarımız…
Biz gedirik, Dünya gedir –
Hayanadı yollarımız?!.

***

Ey ölüsü dirisindən də şərafətli olanlar,
Ey ruhu göylərdə uçan ölü canlar.
Ey kurreyi-ərzə sığmayan, fəqət,
Bir qarış torpağın altda qalanlar,
Siz kimsiniz?
Ey səssizcə durub baxan nəfsi-bütünlər,
Ey daş heykələ dönmüş daşlı düyünlər.
Yer-göy dayanıb səbri-qərar ilə sizi dinlər,
Siz kimsiniz?

***

Zərif çiyinlərində
dünyanın dərdini, qəmini daşıyanda,
40 dərəcə istidə,
Sahildə tək qalıb üşüyüəndə
Məni axtaracaqsan.

***

Havada çiçək ətri,
Bu, yarın bişək ətri.

Külək,əsib aparma,
Sinəyə çəkək ətri.
Yollara iz düşübdü,
İzimiz düz düşübdü.
Sənimi görüb güllər
Beləcə büzüşübdü?

***

Ayüzlü qadınlar, ulduz qadınlar,
Analar, bacılar, yalqız qadınlar .
Dünyada nə qədər çiçək var sizin,
Eşq ilə çırpınan ürək var sizin,
Nə qədər duyğu var, dilək var sizin,
Ən gözəl anlar da qoy sizin olsun!

***

Sahildə böyüməmişdik
Nağıldı, gecəydi, ulduzdu, aydı,
Gözlərin gecədən daha qaraydı.
Sənin gülüşlərin bir şirin paydı.
Dəniz sahiliydi, bir də biz idik.
Ötüşən dalğalar, coşan dənizdi,
Tanrımız o günü dəftərə yazdı.
Bir ömür keçsə də unudulmazdı,
Dəniz sahiliydi, bir də biz idik.
Sən yoxdun, mən yoxdum, biz vardıq ancaq,
Top atdıq, oynadıq, sındı oyuncaq.

Sınmış könüllərə açmışdıq qucaq,
Dəniz sahiliydi, bir də biz idik.
Gör neçə müddətdi ayrı düşmüşük,
Toplan da inciyib, küsübdü pişik.
Sən demə - biz hələ böyüməmişik,
Dəniz sahiliydi, bir də biz idik...

***

Kim deyir cəhənnəm, cənnət boş xəyal imiş.
Həpsi dünyada varkən, bu nə sual imiş?!

***

Çək üzündən kəkilin ay da görünsün,
əks eləmiş sanki bu ay çayda görünsün.
Ayı sarmış iki yandan qara saçlar
su kimi axmada bir qayda görünsün.

## BU DA BELƏ...

Ziyalılar Vətənin dərdini hər zaman anlatmağa çalışırlar. Dünən də beləydi, bu gün də... Belə ki, biri "Gülüstan" müqaviləsi, yaxud "Kürəkçay" müqaviləsi haqqında bir şey oxuyursa, tez onu paylaşıb özündə bir təskinlik tapır. Bir status da yazır ki, "baxın e... sən demə o vaxt Qarabağda heç erməni olmayıbdı. İndi bu sənədlər üzə çıxdıqca dünya dövlətləri bizim haqq səsimizi eşidib ədalətli qərarlar çıxaracaqlar". Düşünürlər ki, ola bilsin Qarabağı azad edib bizə qaytaracaqlar.

Social şəbəkələrdə bu cür yazılara rast gəldikcə ürəyim ağrıyır. Yadıma bir əhvalat düşür. 1960 – cı illərin ortalarında sovetlər savadsızlığı ləğv eləmək məqsədilə axşam məktəbləri açdılar. Orta təhsili olmayan fəhlə və kəndliləri bu məktəblərə cəlb edirdilər. Əkbər dayım fizika müəllimi idi, bu axşam məktəblərində də dərs deyirdi. Mehdiqulu da fəhləydi, onu da orta təhsil alması üçün axşam məktəbinə yazmışdılar. Bir gün dərs zamanı Mehdiqulu kiminləsə danışır. Əkbər müəllim Mehdiqulunu lövhənin önünə çıxarıb deyir:

- Mehdiqulu dərsimizi danışa bilərsənmi?
- Bilmirəm.
- Mehdiqulu, nə bilirsən danış.
- Bilmirəm.
- Mehdiqulu, adını yaza bilərsənmi?
- Bəli.
- Yaz o zaman.

Mehdiqulu Azərbaycan əlifbasından bildiyi bütün hərfləri bir təhər

lövhəyə yazır. Əkbər müəllim soruşur:

- Mehdiqulu yazdınmı?
- Bəli, yazdım.

Əkbər müəllim çevrilib lövhəyə baxır:

- Mehdiqulu, burada ancaq hərflər var...
- Müəllim, adım da elə onların içindədir də...

Əziz dostlar, sanki bu gün ziyalılarımız Mehdiqulunun taleyini yaşayırlar. Başa düşməliyik ki, həqiqətləri dünya siyasətçiləri bizdən daha yaxşı bilirlər. Onu da bilməliyik ki, qan tökərək alınan torpağı kimsə öz xoşuna qaytarmaz, o ki, qaldı erməni ola. Qarabağın xilası partizan müharibəsindən keçir. Nə zaman buna hazır olsaq, onda danışmağa dəyər.

# NİZAMİ MURADOĞLUNA YAZILAN ŞEİRLƏR

## *MURADOĞLU*

*Şair Nizami Muradoğlunun "Dünya belə dünyadı" şeirinə*

Dünya qan-qadaya sanma doyacaq,
Salsaq da nə qədər hay, Muradoğlu.
Özü saydığını fələk sayacaq,
Ha sən saydığını say, Muradoğlu.

Biri harınlayır, kefi saz qalır,
Biri saç gətirir, biri daz qalır,
Dünyanı görməmək üçün az qalır,
Dəyişsin yerini ay, Muradoğlu.

Hala qan çilədi, əli qanlılıq,
Hər nə var məhv etdi ölücanlılıq,
Soyuq kar etmədi, soyuqqanlılıq,
Bizə çox yaşatdı vay, Muradoğlu.

O Məmməd babamı eyləmədi dərk,
Hər aqil kəlməyə şək gətirdi, şəkk,
Sən, mən dediyimiz nə düzələcək?
Bəlkə lal dayanaq, ay Muradoğlu.

Sonda, son sözümü ələyirəm mən,
Mehrimi mehrinə bələyirəm mən,
Sənə uzun ömür diləyirəm mən,
Oğluna, qızına toy, Muradoğlu.

30.10.2016.

**Fizuli Qurbanov**

***Nizami Muradoğluna***

Haqqa yol gedirsən, get gözəl qardaş,
Bütöv Azərbaycan qismətin olsun.
Ulu babaların ölməz ruhları,
Ruhunda bitməyən qüvvətin olsun.

Zəngəzur, Borçalı, Qarabağ əzəl,
Türkün oylağında yadlarmı gəzər?
İlanın başını igidlər əzər,
Şadlan ki, Təbrizin həmdəmin olsun.

Ağlımız qılıncdan kəskin olmalı,
Vətən sevgisiylə könül dolmalı,
Yadları yurdumdan dərhal qovmalı,
Savaşda hər ürək səngərin olsun.

Birlik içdən başlar anlayaydıq kaş,
Min qoldan güclüdür bir ağıllı baş,
Çatdırmır muraza gözlərdəki yaş,
Söz ilə əməlin zərgərin olsun.

Fizun danışmasın, gözləyir meydan,
Fəqət, ayrılıbdı könüllər candan,
Gəlir üstümüzə düşmən hər yandan,
Bayraq əlimizdə, diqqətin olsun.

# MƏNİM HEKAYƏM*

Bu günlərdə telefonuma bir zəng gəldi. Tanımadığım bir qadın "sizə bir şeir oxumaq istəyirəm" dedi. İş otağımda olduğumu, şeir dinləmək üçün münasib vaxt olmadığını bildirsəm də, təkid edərək bir bəndlik şeiri oxudu və soruşdu ki, xatırlayırsınızmı? Şeir beləydi:

Hər səni görəndə quruyur dilim,
Canımda nə qüvvət, nə taqət olur.
Şərt deyil dodaqlar öpüşsün, gülüm,
Gözlərin öpüşü qiyamət olur.

Bu şeiri Naxçıvanda birinci kursda oxuduğum zaman – Şərurda pambıq yığımına aparmışdılar bizi, orada yazmışdım. Təbii ki, xatırladım. Zəng edən qadın - tələbə yoldaşım Firuzəydi. Onu da xatırladım ki, adamlar hələ də mənim birinci kursda və sonrakı dövrlərdə yazdığım şeirləri əzbər bilirlər. Lakin elə məqamlar var ki, mən onlar haqqında indiyə qədər heç yerdə danışmamışam. Bu düşüncəylə də keçmişə səyahət edib, indiyə qədər yazmadığım, demədiyim, həyatım və yaradıcılığımla bağlı bəzi məsələləri – tərcümeyi-halımı qələmə almaq istədim.

---

* Bu mənim ikinci hekayəmdir.

Birinci hekayəm 2009-cu ildə çap olunan "Sabaha açılan qapılar" kitabında verilibdir.

Öncə qeyd edim ki, 1955-ci ilin aprel ayının 2-də Ordubad rayonunun Əylis kəndində kəndli ailəsində doğulmuşam. Atam da, anam da savadsız idilər, heç adlarını da yaza bilmirdilər.

Atam Murad Oruc oğlu 1904-cü ildə Əylisdən yuxarıda Nuhgədiyi (dialektdə Nügədih) kəndində doğulmuşdu. 1918 – ci ildə ermənilər o kəndi bütünlüklə yandırıb kül elədilər. Kənddə rastlarına çıxan bütün adamları qırdılar. Paşa kişinin kürəyinə qaynar samovar bağlayıb zülüm verərək öldürdülər. Mənim Oruc babamı da məscidin həyətində güllələdilər. Yaşlı adamları, qadınları və uşaqları süngüyə keçirib Ul deyilən yüksəklikdən dərəyə atdılar. Kənddə yeganə silahlı olan Əbülfəz son gülləsi qurtarana qədər ermənilər ilə vuruşdu. Lakin sonda köməksiz və tək qaldığından düşmən gülləsinin hədəfinə çevrildi və şəhid oldu.

Bu kəndin adamlarından sağ qalanlar həmin zaman kənarda olanlar idi. Nübar nənəm, oğlanları İman, Murad (mənim atam) və qızı Telli yaylaqda olduqlarından erməni əsarətinə düşmədilər. Amma ermənilərin xaincəsinə hücumu xəbərini alandan sonra gəlib kəndi xaraba gördülər. Daha bu kənddə yaşamaq mümkün deyildi. Yenidən yaylağa qayıdıb payızın sonunda Əylisin aşağısında olan Aşağı Nuhgədiyi kəndinə  köçdülər. Qeyd etməyi lazım bilirəm ki, bu cür yerlər əslində yaşayış məskənləri deyildi. Bura Yuxarı Nuhgədiyi kəndinin əkin yerləri olan bir torpaq sahəsi idi. Bu sahələrdə yayın istisindən qorunmaq üçün bir neçə balaca çərəz deyilən damlar tikmişdilər. Əlacsız dörd-beş ailə bir damda yaşamaq məcburiyyətində

qaldı. Bunun ardınca ermənilər Qafan rayonunun kəndlərində də türk əhalini qırdılar. Nijdenin, Aşotun quldur dəstələri uşaqdan böyüyə heç kəsə aman vermirdi. Sağ qalan, erməni quldurlarının əlindən qurtulub qaça bilən əhalinin əksəriyyəti Ordubad rayonuna, əsasən də Əylisin ətrafına toplaşırdı. Atamın dayısı Nəzər kişi də ailəsini bir təhər erməni əsarətindən çıxarıb Əylisə gəlmişdi. Nəzər kişi çox hörmətli və igid bir adam idi. Nəzər kişi bacısı Nübarı və yetim uşaqlarını da öz himayəsinə alıb heyvandarlıqla məşğul olmağa başladı.

O vaxt Muradın (atam) 14 yaşı vardı. Amma buna baxmayaraq dayısı Nəzər kişiyə yaxından kömək edir, qoyunların sağılmasında, quzuların otarılmasında fəallıq göstərirdi. Telli (bibim) Şikarıya ərə verildi. Bir oğlu oldu Əvəz adında. Lakin uşaq xəstələndi və o zamanlar dava-dərman, həkim olmadığından öldü. Oğlunun ölümü bibim Tellini də bu dünyadan nakam apardı. İman (əmim) Zöhrə ilə bir müddət eşq macəraları yaşadı. Sonradan Fatmayla evləndi və bir qızı dünyaya gəldi. Adını Nübar qoydu. Nübar nənəmin adıydı. Nübar nənəm də Oruc babamdam və qızı Tellidən sonra yaşaya bilməmişdi və Tiri yaylağında dünyadan köçmüşdü və məzarı da oradadır. Dəqiq tarixlərini bilmədiyim üçün yazmıram.

Anam rayonda sayılıb seçilən Məşədi Bağırın qızıydı. 1912 – ci ildə Əylisdə doğulmuşdu. Məşədi Bağır Kərbəlayi Əhmədin oğluydu. Babalarım mahalın tanınmış sənətkarlarıydı. O vaxt ən yaxşı tüfəng qundaqlarını, ev qapı-pəncərələrini babamgil düzəldərdi. Bu gün də Əylisdə, Ordubadda babamgilin düzəltdiyi qapı, pəncərələr durur.

Ordubadda o zaman ən böyük ipək fabrikasının sahibi Ərbab adlanan Rzaquluydu. Rzaqulu babamgilə xüsusi diqqət ilə yanaşardı, fabrikanın ipəkəyirmə sexlərində bağaralar tez-tez sıradan çıxdığından Ərbabın babamgilə tez-tez işi düşürdü. Ən yaxşı bağaraları babamgil düzəldirdi. Babamgilin düzəltdikləri bağaralar uzunömürlü olurdu.

Nə isə... Məşədi Bağırın qızı Məleykə (anam) gözəl bir qız idi və çox gənc ikən Abdullaya ərə verilmişdi. Lakin Abdulla çox yaşamadı, xəstələnib öldü. Məleykə 5-6 yaşlı iki oğlu – İsmayıl və Fazil ilə tək və tənha qaldı. Murad Məleykə ilə evlənməyə qərar verdi. 1937 – ci ildə onların nigahları kəsildi.

1941- ci ildə qardaşım Yaşar dünyaya gəldi. Elə həmin il də atam Muradı və əmim İmanı müharibəyə apardılar. Anam yenə də 3 uşaqla tək qaldı. Müharibə zamanı kəndlərdə hökumət fabrikalar açmağa başladı. Belə bir fabrika da bizim məhəllədə yerləşən Şah Abbas məscidində yerləşirdi. Anam Yaşar qucağında ola-ola fabrikada işləməyə başladı. Atam müharibədən 7 ildən sonra qayıtdı. Əmim İman qayıtmadı, itgin düşdü. Atam qayıdandan sonra kolxozda çalışmağa başlayır, heyvandarlıq ilə məşğul olur, çarvadarlıq edirdi. Ağır zəhmət bahasına ailəsini dolandırır və hətta əlacsız adamlara da əl tuturdu.

Yuxarıda göstərmişəm ki, 1955 – ci ildə doğulmuşam, arada qardaşlarım doğulub, lakin o illərin səfaləti onları yaşatmayıbdır. Gözümü açandan özümü evdə tək görmüşəm. Yəni qardaşlarım mənim dostlarım olmayıbdır, onlar ilə heç vaxt uşaqlıq oyunları oynamamışam, çünki mən dünyaya gələndə onlar artıq yaşlaşmışdılar və ayrı ya-

şayırdılar. Yaşar da o zaman Bakıda Rabitə Texnikumunda oxuyurdu.

Beləliklə mən öz taleyimlə barışaraq qonşu uşaqlarla oturub-durmaq, onlarla dostluq etmək, quzu otarmaq, oynamaq məcburiyyətində olmuşam.

Bu gün dediklərim qəribə görünə bilər, amma o zamana baxanda tamam fərqli nəticəyə gələ bilərsiniz. O vaxtlar hər evdən 7-8, hətta 10-11 uşaq çıxırdı. Kimin bacı-qardaşı çox idisə, onlar da söz sahibi olurdular. Kimsə onların qarşısına çıxa bilməzdi. Bu, beləydi. Amma mən tək idim. O təklik məni bu gün də təqib edir. Baxmayaraq ki, 3 övladım, 6 nəvəm var, amma heç vaxt onlara əziyyət vermək, yaxud onları öz işlərindən ayırmaq ağlımdan belə keçmir.

Həyatımın müəyyən anlarına səyahət etdim. Hələlik bu qədər, zamanı gəlincə səhifələri vərəqləyəcəyəm. Əziz oxucular indi sizi qəlb çırpıntılarımla baş-baş buraxıram. Sağlıqla qalın.

***

## Nizami MURADOĞLU

## (Məmmədov)

*Filologiya elmləri doktoru, AMEA Folklor İnstitutunda "Təhsil" şöbəsinin müdiri*

1955-ci ildə Ordubad rayonunun Əylis kəndində anadan olubdur

Müəllifin bu günə qədər on beş kitabı: ("Qayıda bilmirəm" -1989, "Dayan, əsən külək"- 2002, "Vətən dərdi" -2005, "Sabaha açılan qapılar"- 2009, "Bu dünyanın məzarları ağlamaz" -2010, "Yaşayan Cavidlər" -2012, "Sözün Məmməd Araz zirvəsi" -2013, Seçilmiş əsərləri-2015, "KDQ" və müasir Azərbaycan poeziyası-2016,Hüseyn Cavid-2016, Çağdaş Azərbaycan poeziyasında folklor ənənələri-2017, "Zülmətdə nur" – 2018, "Qədim Türk Yurdu Naxçıvan" – 2019, "Qılınc oğlu" - 2020) çap olunubdur.

Müəllifin "Baba ocağı" romanı 2019 – cu ildə Türkiyədə "Kanlı taş" adı ilə yayınlanıbdır.

Nizami MURADOĞLU Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Vətən-Media", "Həsən bəy Zərdabi", "Qızıl qələm" mükafatları laureatıdır.

2013-cü ildə Kaspi qəzetinin Məmməd Arazın 80 illik yubileyi münasibəti ilə keçirdiyi müsabiqədə ikinci dərəcəli pul mükafatına layiq görülüb. 2014-cü ildə Prezident təqaüdçüsü olubdur.

Nizami Muradoğlunun rus dilində «Мамед Араз и народное творчество» kitabı 2014-cü ildə Almaniyanın “Palmarium” Beynəlxalq Kitab Evi tərəfindən nəşr edilib-dir.

## Eşq bir sirdir



## Kitabın içindəkilər

**Ön söz ................................................ 5**

Araz axır ürəklə can arasından. İslam Sadıq............. 5

***Hər qarış torpağın qeyrət qalası***

Azərbaycan.................................................... 15
Bayrağım ....................................................... 18
Dərbənddə ..................................................... 20
Ölkəm............................................................ 21
Baki Lövhələri...............................................23
Culfa körpüsü ................................................ 24
Salam Xocalı ................................................. 25
Can vətən....................................................... 28
Ey türk balası................................................. 29
Vətən ............................................................ 30
Bu nağıl o nağıl deyil ..................................... 32
Ey Qobustan .................................................. 34
Hanı bəs......................................................... 36
Qaraca çoban .................................................. 37
Fani dünya ..................................................... 38
Səs verin səsimə ............................................ 39
Vətən oğlu ..................................................... 41
Naxçıvan........................................................ 44

Mömünə-xatun .............................................................. 46
Göy-göl ........................................................................ 47
Dırnısın......................................................................... 48
Naxçıvanım .................................................................. 49
Ordubad........................................................................ 50
Əylisin ......................................................................... 52
Turan dünyası............................................................... 54
Biləsən ......................................................................... 55
Hücuma keçək.............................................................. 57
Mən bir türkəm............................................................. 58
12 – lər.......................................................................... 60

## ***Ya en gəl yanıma, göyüzündəki,***
## ***Ya məni özünlə apar, darıxdım***

Eşq bir sirdir................................................................ .62
Nə var ki ....................................................................... 63
Bu sevginin sonu yox ................................................... 64
Apar məni..................................................................... 66
Qalar............................................................................. 70
Deyilmiyəm bəs ........................................................... 71
Həyat gözəldi ............................................................... 72
Bala............................................................................... 74
Birisi ............................................................................. 75
Mənim .......................................................................... 76
Eylə............................................................................... 77
Məni axtaracaqsan......................................................... 78
Dağlara-dağlara ............................................................ 79

Mən səni tanıyıram. .................................................. 80
Oxunmayan məktub .................................................. 82
Sənə gülmək yaraşır .................................................. 84
Öyrən .................................................. 85
Məhəbbət nədir .................................................. 87
Bakı küləyi .................................................. 88
Adam .................................................. 89
Sənsizləşirəm .................................................. 91
Ürəyim .................................................. 93
Göy ulduzu .................................................. 94
Ağla, əzizim .................................................. 95
Bədənində .................................................. 96
Həyat dərsi .................................................. 97
Afət .................................................. 98
Gecə yarı .................................................. 100
Sən öylə varlısan ki .................................................. 101
Dünya nağıl deyil .................................................. 102
Qadın müəllim .................................................. 103
Sənin .................................................. 104
Dünya fanidir .................................................. 106
Qaldı .................................................. 107
Gülüm .................................................. 108
Elə demə .................................................. 109
Sən dəli, mən dəli .................................................. 110
Ağ mantolu qadın .................................................. 112
Qorxuram .................................................. 113
Gecələr .................................................. 114
Sən və səni gözləyən .................................................. 115
Bənövşə .................................................. 117

Mən səni unutmadım ................................................. 118
Qadın ................................................................... 120
Məni bağışlama ....................................................... 121
Şair olan................................................................ 122
Bu canıyanmış ......................................................... 123
Məni bağışlarmısan .................................................. 124
Unutmadım ............................................................. 125
Gördüm .................................................................. 126
Yağış istəyirəm........................................................ 128
Təndəsən................................................................ 129
Sözümə baxma ........................................................ 131
Bu da yeni il ........................................................... 132
Toğrulayın bir çiçək ................................................. 134
Tərs işlər əlindən ..................................................... 136
Əvəzində ................................................................ 137
Gözəldi .................................................................. 138
Yaşadım ................................................................. 138
Əzizim ................................................................... 139
Sən mənim taleyimdə ................................................ 140
Bu dünya da gözəldi ................................................. 142
Çox sev .................................................................. 143
Durnam .................................................................. 144
Sən olacaqsan .......................................................... 146
Gördüyüm o qızlar. ................................................... 147
Sənsiz darıxmıram. ................................................... 149
Öyrət ..................................................................... 152
Sanırsan. ................................................................ 152
Bir az da. ............................................................... 155
Biz hələ ölmürük ...................................................... 156

Görürəm ........................................................................ 157
Deyər ............................................................................ 158
Dağların ......................................................................... 159
Səni tanıyıram. ............................................................... 161
Dəniz, sahil, mən ............................................................ 163
Göy üzündəki mələyə məktub .......................................... 165
Dəniz bizimdir ................................................................. 166
Düşündünmü heç ............................................................. 168
Gedək ............................................................................ 169
Mənim ........................................................................... 170
Bu gün ........................................................................... 171

## *Ordan- burdan*

Manat ............................................................................ 173
A mirzə. .......................................................................... 174
Şəhərdə. ......................................................................... 175
Bu şəhər ......................................................................... 176
Nəsimi. ........................................................................... 178
Salam, əfəndim ................................................................ 180
Ramiz əfəndi ................................................................... 182
Yeni il ............................................................................ 183
Bir gün. .......................................................................... 185
Gələrəm. ........................................................................ 186
Belə ............................................................................... 188
İnanmayın. ...................................................................... 189
Ey gülüzlü ...................................................................... 191
Üyüdür duyğuları ............................................................ 192

Yuxuma gəlmə ........................................................ 193
Gəlirsən. ................................................................ 194
Nə xəbər ................................................................ 196
Sən olacaqsan. ........................................................ 197
Sənsiz darıxmıram. .................................................. 198
Sev məni. ............................................................... 201
Gecə yarı. ............................................................... 202
Kazım gəlmədi.. ....................................................... 203
Anam zikr eləyir. ..................................................... 204
İndi ........................................................................ 205
Keyqubad Ələddin .................................................... 206
Yerdə qalmaz .......................................................... 208
İki dünya arasında. .................................................. 209
Yenə şəklin ilə qaldıq başbaşa .................................. 210
Bəsimdi ................................................................... 211
Mən qərib adamam ................................................... 213
Adamlar .................................................................. 215
Dünya ..................................................................... 216
Ağrıyır .................................................................... 216
Dərd üstə dər gəlir .................................................. 216
Yenə gəldi bahar fəsli .............................................. 217
Sənə ümid verirəm. .................................................. 217.
Şəhidlər xiyabanı ..................................................... 219
Yorğansız. ............................................................... 222
Bir yazılı təbrik ........................................................ 222
Əzizim .................................................................... 223
Gəl ey novruz .......................................................... 224
İstəmir .................................................................... 226
Ay virus .................................................................. 227

Arasında ........................................................................ 229
Eylə................................................................................ 228
Sosial şəbəkədə yazdıqlarımdan................................ 230
Haqqımda yazılan şeirlər:.......................................... 246
Əbülfəz Ülvi. Muradoğlu .......................................... 247
Füzuli Qurbanov. Nizami Muradoğluna. .................. 248
Mənim hekayəm......................................................... 250
Nizami Muradoğlu .................................................... 255

# EŞQ BİR SİRDİR

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 20.05.2020
Şərti çap vərəqi 13,5. Sifariş № 109
Kağız formatı 84x108 1/16. Tiraj 300 .

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4